RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN




№ 69 (9236) 5 APREL 2023-cü il ÇƏRŞƏNBƏ

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

QƏZETİN ƏSASI 1918-Cİ İLDƏ QOYULMUŞDUR

# Xəzərdə dünyanın ən modern neft platforması qurulur



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 4-də Bayıl tikinti-quraşdırma sahəsində "Azəri-Mərkəzi-Şərqi" platformasının üst modullarının dənizə rəmzi yola salınması mərasimində iştirak edib.**

AZƏRTAC xəbər verir ki, bp-nin Azərbaycan, Gürcüstan və Türkiyə üzrə regional prezidenti Qəri Counz və "Azəri-Mərkəzi-Şərqi" layihəsinin Baş direktoru Nil Filips dövlətimizin başçısına layihə üzrə görülən işlər barədə məlumat verdilər.

Bildirildi ki, "Azəri-Mərkəzi-Şərqi" layihəsi üzrə yekun investisiya qərarı 2017-ci ildə "Azəri-Çıraq-Günəşli" (AÇG) üzrə Hasilatın Pay Bölgüsü Sazişinin (HPBS) 2049-cu ilə qədər uzadılmasından sonra AÇG tərəfdaşlarının ilk böyük investisiya qərarıdır. Dəyəri 6 milyard dollar olan layihəyə yeni dəniz platforması və gündəlik 100 min barelədək hasilat gücündə digər qurğular daxildir. Layihənin istismar müddəti ərzində ümumilikdə 300 milyon barelədək neftin hasil olunacağı proqnozlaşdırılır.

Bu layihə çərçivəsində dənizdə suyun dərinliyinin təxminən 140 metr olan sahəsində - "Mərkəzi Azəri" və "Şərqi Azəri" platformalarının arasında 48 şaxtadan ibarət yeni hasilat, qazma və yaşayış platforması quraşdırılacaq. Layihəyə həmçinin yataqdaxili yeni sualtı boru kəmərləri də daxildir.

→ 2

## Heydər Əliyev İli



# Hüquqi dövlət quruculuğunun memarı

**Çox minillik dövlətçilik tarixi olan Azərbaycan xalqının XX əsrdəki müstəqil dövləti olan Azərbaycan Respublikasının tarixi inkişaf yolu şərəfli və keşməkeşli olmuşdur. Dövlətçilik tariximizdə ilk respublikanın qurulması XX əsrin əvvəlinə, onun 70 ildən sonra bərpası isə əsrin sonlarına - ən təlatümlü dövr hesab edilən 90-cı illərdəki geopolitik dəyişikliklər dövrünə təsadüf etmişdi.**

Ötən yüzilliyin sonlarında keçmiş SSRİ-nin tarixi məntiqə söykənən qaçılmaz çöküşü prosesi ittifaq ölkələrinin öz müstəqilliyini bərpa etməsi üçün zəmin yaratmışdı. Nəticə etibarilə 1991-ci ilin oktyabr ayının 18-də Azərbaycan öz dövlət müstəqilliyini bərpa etsə də, SSRİ-dən miras qalmış hüquq sistemi demokratik, hüquqi dövlət quruculuğuna, qanunun aliliyinin təmin olunmasına, insan hüquq və azadlıqlarının müdafiəsinə heç bir təminat vermirdi. Dünyanın inkişaf etmiş ölkələrinin mütərəqqi hüquq sistemləri ilə əlaqədən, demək olar ki, təcrid olunmuş və öz "dəyər"ləri olan keçmiş SSRİ-nin sosialist hüququna əsaslanan qanunvericilik sistemi postsovet dövrünün reallıqları ilə ayaqlaşmaq gücündə deyildi. Müstəqilliyin bərpa olunduğu ilk illərdə bu sistem quruculuğu yönündə bəzi addımlar atılsa da, təəssüf ki, siyasi idarəetmədəki təcrübəsizlik müstəqil dövlət quruculuğunun bərpası prosesini ləngitdiyi kimi, milli hüquq sisteminin təşəkkül tapmasına da öz mənfi təsirini göstərirdi.

→ 6

# "Togg" İlham Əliyevə təqdim olundu




→ 3

# Prezident İlham Əliyev tviterdə paylaşımında Türkiyə Prezidentinə təşəkkür edib


İlham Əliyev
@azpresident

Təşəkkür edirəm, Əziz Qardaşım. Amin! TOGG Sizin liderliyiniz altında qardaş Türkiyənin elmi-sənaye potensialının inkişafının daha bir bariz nümunəsidir.

Recep Tayyip Erdoğan @RTErdogan · 2s
Türkiye devlet görevlisi
Gardaşım İlham Aliyev de Türkiye'nin gururu Togg'unu teslim aldı. Hanenize hayırlı olsun. Allah güzel günlerde kullanmayı nasip etsin gardaşım @azpresident.

ÖS 6:06 · 4 Nis 2023 · 36,2 B Görüntülenme

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğana təşəkkür edib. AZƏRTAC xəbər verir ki, dövlətimizin başçısı bununla bağlı tviterdə paylaşım edib.**

Azərbaycan Prezidentinin paylaşımında qeyd olunub: "Təşəkkür edirəm, Əziz Qardaşım. Amin! "Togg" Sizin liderliyiniz altında qardaş Türkiyənin elmi-sənaye potensialının inkişafının daha bir bariz nümunəsidir".

Xatırladaq ki, aprelin 4-də Türkiyənin ilk yerli elektromobili "Togg" Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə təqdim olunub. Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan tviterdə bununla bağlı paylaşım edərək xoş arzularını bildirib. Türkiyə Prezidentinin təbrik tvitində qeyd olunub: "Qardaşım İlham Əliyev də Türkiyənin qüruru "Togg"u təhvil aldı. Xeyirli olsun. Allah gözəl günlərdə istifadə etməyi nəsib etsin, qardaşım".

# Prezident İlham Əliyev 4 Aprel - Beynəlxalq Mina Xəbərdarlığı və Mina Fəaliyyətinə Yardım Günü münasibətilə sosial şəbəkələrdəki hesablarında paylaşım edib


İlham Əliyev
@azpresident

4 Aprel - Beynəlxalq Mina Xəbərdarlığı və Mina Fəaliyyətinə Yardım Günüdür. Ermənistan Azərbaycanın işğal edilmiş ərazilərində 30 il ərzində 1 milyondan çox mina basdırmışdır. Azərbaycan dünyada mina ilə ən çox çirkləndirilmiş ölkələr arasındadır. 1990-cı illərin əvvəlindən 3300-dən çox vətəndaşımız mina qurbanı olmuşdur. Vətən müharibəsinin başa çatdığı 2020-ci il noyabrın 10-dan etibarən Ermənistanın mina terroru nəticəsində 300-ə qədər Azərbaycan vətəndaşı həlak olmuş və ya ağır yaralanmışdır.
Azərbaycan humanitar minatəmizləməni milli Dayanıqlı İnkişaf Məqsədi kimi elan edəcək. Ölkəmiz humanitar minatəmizləmənin BMT-nin 18-ci Dayanıqlı İnkişaf Məqsədi olması təşəbbüsünü fəal şəkildə təşviq edir. Azərbaycan həm də Minaların Təsirinə Məruz Qalmış Ölkələrin Həmfikirlər Qrupunun yaradılması təklifi ilə çıxış etmişdir. Hazırda azad edilmiş ərazilərimizdə genişmiqyaslı quruculuq işləri aparılır. Müasir texnologiyalara əsaslanan humanitar minatəmizləmə və mina sahəsində maarifləndirmə bu işlərin tərkib hissəsidir. Mən öz həyatını təhlükə altına ataraq gecə-gündüz çalışan minatəmizləyənlərimizin fəaliyyətini yüksək qiymətləndirirəm. Dünyada mina terroruna son qoymaq üçün beynəlxalq səylər artırılmalıdır.

İLHAM ƏLİYEV

## Milli Məclisin plenar iclasında

# Heydər Əliyev irsinə növbəti ehtiram nümunəsi

### Milli Məclis Ulu Öndərin xatirəsini əbədiləşdirən medal təsis edir

**Aprelin 4-də parlamentin birinci vitse-spikeri Əli Hüseynlinin sədrliyi ilə Milli Məclisin yaz sessiyasında növbəti plenar iclası keçirilib.**

İclasda əvvəlcə cari məsələlərlə bağlı müzakirələr aparılıb. Komitə sədrləri Qənirə Paşayeva, Zahid Oruc, Siyavuş Novruzov, Ziyafət Əsgərov, deputatlar Musa Qasımlı, Bəhruz Məhərrəmov, Əli Məsimli, Elşad Mirbəşiroğlu, Aydın Mirzəzadə, Sahib Alıyev, Razi Nurullayev, Hikmət Məmmədov çıxış edərək martın 28-də Milli Məclisin deputatı Fazil Mustafaya qarşı törədilmiş terror aktına münasibət bildiriblər. Millət vəkilləri bu terror aktını kəskin şəkildə qınayaraq bunu Milli Məclisin timsalında Azərbaycan dövlətinə qarşı yönəlmiş sui-qəsd kimi qiymətləndiriblər.

Qeyd edilib ki, bu, ölkəmizə qarşı aparılan düşmənçilik siyasətinin tərkib hissəsidir.

→ 4

# Döyüş cığırları zəfər yollarına çevrilir

İşğaldan azad olunmuş rayonlarda yolların salınması sahəsində görülən böyük işlər təqdirəlayiqdir. Həmin ərazilərdə ən böyük yol layihələrindən biri Füzuli rayonundan Şuşa şəhərinə çəkilən Zəfər yoludur. Uzunluğu 101 kilometr təşkil edən bu yol iki hərəkət zolaqlı olmaqla ikinci texniki dərəcəyə uyğun tikilib. Başlanğıcını Hacıqabul-Mincivan-Zəngəzur dəhlizi magistral avtomobil yolundan götürən Zəfər yolu Qarabağımızın tacı olan Şuşa şəhərinə qədər uzanır. Zəfər yolunun tikintisi müvəffəqiyyətlə başa çatıb və Prezident İlham Əliyev 2022-ci il noyabrın 7-də Şuşaya səfəri zamanı yolun açılışını edib.

→ 10

# Fars-molla rejiminin unutduğu həqiqət

İranın paytaxtında - Tehran şəhərində yanvarın 27-də Azərbaycan səfirliyinə terror hücumu həyata keçirildi. Səfirliyimizin mühafizə xidmətinin rəisi Orxan Əsgərov qətlə yetirildi, iki əməkdaşı isə hücumun qarşısını alarkən ağır yaralandı. İran rəhbərliyi terror aktının araşdırılması, bu barədə Azərbaycan tərəfə izahat verilməsi əvəzinə, ölkəmizin əleyhinə yeni-yeni planlar qurmaqdadır.

Azərbaycan bütün dünyada sülhsevər dövlət kimi tanınır. İran İslam Respublikası ilə münasibətlərində də hər zaman xoşniyyətli və ədalətli olub. Ölkələrimiz arasında yaranan bütün narahatlıqlar, anlaşılmazlıqlar hər zaman İran tərəfinin birtərəfli davranışlarından qaynaqlanır.

→ 9

# Xəzərdə dünyanın ən modern neft platforması qurulur













*Əvvəli 1-ci səh.*

Bu xətlər platformadan hasil ediləcək neft və qazın Səngəçal terminalına ötürülməsi üçün mövcud AÇG "Faza 2" sualtı ixrac kəmərlərinə qoşulacaq.

Bundan əlavə, laya vurulan suları "Mərkəzi Azəri" kompressor və suvurma platformasından "Azəri-Mərkəzi-Şərqi" qurğularına nəql etmək məqsədilə "Azəri-Mərkəzi-Şərqi" və "Şərqi Azəri" platformaları arasında suvurma boru xətti olacaq.

Məlumat verildi ki, "Azəri-Mərkəzi-Şərqi" platformasının üst modullarına neft və qaz emalı qurğuları, inteqrasiya edilmiş qazma qurğusu, qaz kompressoru və yaşayış blokları daxildir. Modulların layihələndirilmiş çəkisi 19 min 600 tondur.

Üst modullar Bayılda yerləşən tikinti-quraşdırma sahəsində "Azfen" şirkəti tərəfindən yerli infrastruktur və resurslardan istifadə olunmaqla inşa edilib. Hazırda tikinti işlərinin və istismar sınaqlarının son mərhələsi həyata keçirilir və bu sınaqların artıq 95 faizi tamamlanıb.

Üst modulların tikinti işlərinin kulminasiya nöqtəsi Xəzərdə bp-nin ilk dəfə icra etdiyi "qaldırma və sürüşdürmə" əməliyyatı olub. Bu əməliyyat zamanı iki nəhəng qazma modulu təhlükəsiz və səmərəli şəkildə lazımi yüksəkliyə qaldırılaraq relslərlə sürüşdürmə üsulu ilə "Azəri-Mərkəzi-Şərqi" platformasının üst tikililər blokunun üzərinə yerləşdirilib.

Layihənin pik dövründə üst modulların tikintisi işlərinə 4400 nəfərədək işçi cəlb edilib və onların 90 faizindən çoxu Azərbaycan vətəndaşı olub.

Sonra görülən işlərlə bağlı videoçarx nümayiş olundu.

Platforma Səngəçal terminalından, yəni uzaq məsafədən idarə ediləcək. İdarəetmə mexanizminə avtomatlaşdırılmış innovativ sistem daxil edilib.

Yeni "Azəri-Mərkəzi-Şərqi" platformasının əməliyyatlar üzrə meneceri **Fuad İSMAYILOV:** Salam, hörmətli cənab Prezident. Biz hazırda platformanın yaşayış blokunda əməliyyatların idarə olunması mərkəzindəyik. Bu mərkəzin əsas iş prinsipi Səngəçal terminalındakı idarəetmə otağında və platforma arasında rabitə əlaqələri kəsildikdə və fövqəladə vəziyyətdə bütün əməliyyatları buradan təşkil etməkdir.

Cənab Prezident, onu da fəxrlə qeyd etmək istəyirəm ki, bu, bp şirkətinin dünyada ilk dəfə olaraq tətbiq etdiyi uzaq məsafədən idarəedilən platformasıdır. Hazırda bizim əməkdaşımız Səngəçal terminalındakı əsas idarəetmə otağından Sizi salamlayacaq.

Baş operator **Seyidağa KƏRİMLİ:** Salam, hörmətli cənab Prezident. Mən Səngəçal terminalındakı yeni "Azəri-Mərkəzi-Şərqi" platformasının əsas idarəetmə otağının baş operatoruyam. Hazırda buradan bütün əməliyyatlarımızın idarə olunduğu nəzarət otağındayam. Burada tətbiq olunan texnologiya ən müasir, sınaqdan keçmiş və beynəlxalq standartlara uyğundur.



Cənab Prezident, bp şirkətinin dünyada ilk dəfə olaraq tətbiq etdiyi uzaq məsafədən idarə prinsipi çərçivəsində əsas idarəetmə otağımız dəniz platformasından, ümumiyyətlə, qaz quyularının istismarı, alınmış xam neft və qazın ilkin ayrılması və nəqli prosesləri daxil olmaqla, bütün əməliyyatların idarə edilməsi üçün layihələndirilmişdir. Diqqətinizə görə minnətdaram.

**Prezident İlham ƏLİYEV:** Təbrik edirəm. Sizə uğurlar.

**Əməkdaşlar:** Çox sağ olun. Təşəkkür edirik.

Prezident İlham Əliyev və bp-nin Azərbaycan, Gürcüstan və Türkiyə üzrə regional prezidenti Qeri Counz "Azəri-Mərkəzi-Şərqi" platformasının üst modulları qurğusunun dənizə rəmzi yola salınmasını bildirən düyməni basdılar.

Bildirildi ki, tikinti işlərinin və istismar sınaqlarının 2023-cü ilin ikinci rübündə tamamlanacağı gözlənilir. Həmin vaxt qurğu STB-1 daşıma barjına yüklənəcək, dənizə göndəriləcək və AÇG yatağı sahəsindəki dayaq blokunun üzərinə quraşdırılacaq. Tikinti işlərinin və istismar sınaqlarının dənizdə həyata keçirilən hissəsi tamamlandıqdan sonra "Azəri-Mərkəzi-Şərqi" platformasından ilk neftin 2024-cü ilin əvvəllərində əldə olunması üçün birinci quyunun qazılmasına başlanacaq.

Xatırladaq ki, "Azəri-Mərkəzi-Şərqi" platformasının dayaq bloku ötən il dekabrın 13-də Prezident İlham Əliyevin iştirakı ilə dənizə yola salınıb.

Bütün istismar sınaqları bitdikdən sonra dayaq bloku dənizə yola salınıb və suyun 137 metr dərinliyində öz daimi yerinə quraşdırılaraq üst modulları qəbul etməyə artıq hazırdır.

Qeyd edək ki, "Azəri-Mərkəzi-Şərqi" layihəsi üzrə tikinti işləri 2019-cu ildə başlanıb və iş həcminin 85 faizi artıq tamamlanıb. Layihənin pik dövründə tikinti işlərinə 8500 nəfərdən çox işçi cəlb edilib.

Sonda xatirə şəkli çəkdirildi.

# Azərbaycan Prezidenti İlham Əliyev Türkiyənin sənaye və texnologiya nazirini qəbul edib



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 4-də Türkiyə Respublikasının sənaye və texnologiya naziri Mustafa Varankı qəbul edib.

AZƏRTAC xəbər verir ki, Türkiyənin ilk yerli elektromobili "Togg"un istehsalı ilə bağlı təbriklərini çatdıran dövlətimizin başçısı onun Bakıya gətirilməsindən məmnunluğunu bildirdi, bununla bağlı Türkiyə dövlətinin başçısına minnətdarlığını ifadə etdi.

Azərbaycan Prezidenti bu tipli avtomobilin ikincisinin ölkəmizdə olmasını dostluq və qardaşlıq münasibətlərimizin təzahürü kimi dəyərləndirdi.

Dünən Türkiyənin "Baykar" şirkətinin texniki direktoru Selçuk Bayraktarla görüşünü xatırladan Prezident İlham Əliyev qardaş ölkədə son illərdə həm müdafiə sənayesi, həm də mülki sənaye sahələrində yüksək texnoloji məhsulların istehsal olunduğunu dedi, bunun Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın liderliyi ilə Türkiyə xalqının zəkası, istedadı və əməyi nəticəsində ərsəyə gəldiyini vurğuladı və "Togg"un istehsalına başlanılmasının da bu baxımdan yaxşı nümunə olduğunu bildirdi.

Dövlətimizin başçısı əldə olunan bütün bu uğurlar münasibətilə Türkiyə Prezidentinə, dost və qardaş Türkiyə xalqına təbriklərini çatdırdı.

Mustafa Varank "Togg"un ikinci avtomobilinin Azərbaycanda olmasından Türkiyə Prezidenti və xalqının qürur hissi keçirdiyini bildirdi.

Söhbət zamanı Azərbaycanla Türkiyə arasında dostluq və qardaşlıq münasibətlərinin müxtəlif istiqamətlərdə, o cümlədən sənaye və texnologiya sahələrində inkişafından məmnunluq ifadə olundu, əməkdaşlığımızın perspektivləri ətrafında fikir mübadiləsi aparıldı.

## Seneqal Respublikasının Prezidenti zati-aliləri cənab Maki Salla

Hörmətli cənab Prezident!

Seneqal Respublikasının milli bayramı - Müstəqillik Günü münasibətilə Sizə və xalqınıza öz adımdan və Azərbaycan xalqı adından ən səmimi təbriklərimi və xoş arzularımı yetirirəm.

İnanıram ki, Azərbaycan-Seneqal münasibətləri dövlətlərimizin və xalqlarımızın mənafeləri naminə bundan sonra da həm ikitərəfli, həm də çoxtərəfli müstəvidə uğurla inkişaf edəcəkdir.

Bu xoş gündə Sizə möhkəm cansağlığı, işlərinizdə müvəffəqiyyətlər, dost Seneqal xalqına əmin-amanlıq və firavanlıq arzulayıram.

*Hörmətlə,*

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 4 aprel 2023-cü il*

## İ.İ.Kərimovun Azərbaycan Respublikasının kənd təsərrüfatı naziri vəzifəsindən azad edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 5-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. İnam İmdad oğlu Kərimov Azərbaycan Respublikasının kənd təsərrüfatı naziri vəzifəsindən azad edilsin.
2. Azərbaycan Respublikasının kənd təsərrüfatı naziri təyin olunanadək həmin vəzifənin müvəqqəti icrası Azərbaycan Respublikası kənd təsərrüfatı nazirinin müavini Sarvan Elxan oğlu Cəfərova həvalə edilsin.
3. Bu Sərəncam imzalandığı gündən qüvvəyə minir.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 4 aprel 2023-cü il*

## İ.İ.Kərimovun Azərbaycan Respublikası Ali Məhkəməsinin sədri təyin edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. İnam İmdad oğlu Kərimov Azərbaycan Respublikası Ali Məhkəməsinin sədri təyin edilsin.
2. Bu Sərəncam imzalandığı gündən qüvvəyə minir.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 4 aprel 2023-cü il*

# Azərbaycan QHT-ləri mina problemi ilə əlaqədar BMT baş katibinə müraciət ünvanlayıb

Azərbaycanda fəaliyyət göstərən qeyri-hökumət təşkilatlarının nümayəndələri 4 Aprel - Beynəlxalq Mina Xəbərdarlığı və Mina Fəaliyyətinə Yardım Günü ilə əlaqədar BMT-nin baş katibi Antonio Quterreşə müraciət ünvanlayıblar.

AZƏRTAC müraciəti təqdim edir.

Müraciətdə deyilir:

"Hörmətli baş katib.

Hamıya məlumdur ki, minalar və partlamamış hərbi sursatlar dövrümüzün ən ciddi texnogen problemlərindəndir. 2005-ci ildən etibarən 4 Aprel Beynəlxalq Mina Xəbərdarlığı və Mina Fəaliyyətinə Yardım Günü kimi qeyd edilir. Bu gün insanlar qlobal minalarla mübarizə cəmiyyətinin fədakarlığını, minalar və partlamamış hərbi sursatlar haqqında məlumatlılığın vacibliyini qeyd edirlər.

Azərbaycan minalar və partlamamış hərbi sursatlar ilə ən çox çirklənmiş ölkələrdən biridir. Təəssüf ki, biz minalar və partlamamış hərbi sursatların yaratdığı təhlükə və qorxu ilə tanışıq. Azərbaycanın beynəlxalq səviyyədə tanınmış ərazilərinin 30 illik işğalı zamanı Ermənistanın minalardan istifadə etməsi bu gün də dinc əhali üçün böyük təhlükə yaradır. Son 30 ildə mina qurbanlarının ümumi sayı 3368 nəfərdir. Münaqişənin bitdiyi 2020-ci il 10 noyabr tarixindən bəri isə 501 nəfər həlak olub, 238 nəfər yaralanıb.

Humanitar minatəmizləmə fəaliyyəti Azərbaycan üçün əsas prioritetdir. QHT-lərlə tərəfdaşlıq, qabaqcıl texnologiya, maarifləndirmə, qadın minatəmizləmə qrupları və mina qurbanlarına yardım proqramları vasitəsilə minatəmizləmə potensialının gücləndirilməsi istiqamətində böyük səylər davam etdirilir. Ölkəmiz humanitar minatəmizləmə sahəsində fəaliyyət göstərən bir sıra əsas qurumlarla, o cümlədən sizin rezident əlaqələndirici ofisiniz, UNICEF, BMTİP və digərləri ilə tərəfdaşlıq edir. Həmçinin Azərbaycan öz təcrübəsini bölüşür. 2023-cü il may ayının sonunda Azərbaycanın Dayanıqlı İnkişaf Məqsədlərinə (DİM) nail olması üzrə minatəmizləmə fəaliyyətinin bir hissəsi olaraq İkinci Beynəlxalq Minatəmizləmə Konfransı keçiriləcək. Biz humanitar minatəmizləmənin sülhün qurulması prosesindəki böyük potensialına inanırıq.

Biz həmçinin Aİ və digər donorlara maliyyə dəstəyinə görə minnətdarıq. Qeyd etmək lazımdır ki, QHT-lərlə tərəfdaşlıq beynəlxalq yardımın mühüm tərkib hissəsidir. Bununla belə, ölkəmizə verilən vəsait mina terrorunu dayandırmağa, kişi, qadın və uşaqların ölümünün və yaralanmasının qarşısını almağa, demək olar ki, kifayət etmir.

Azərbaycanın işğaldan azad olunmuş əraziləri müharibə nəticəsində mülki şəxslərə mina və partlamamış hərbi sursatların törədə biləcəyi təhlükə barədə ciddi xatırlatma hesab edilə bilər. Minatəmizləmə fəaliyyəti ərazilərin bərpası və yenidən qurulması işləri üçün çox vacibdir. Minalar və partlamamış hərbi sursatlar məcburi köçkünlərin doğma yurdlarına qayıtmalarına mane olur. Minatəmizləmə həm də Dayanıqlı İnkişaf Məqsədlərinə nail olmaq üçün əsas ilkin şərtlərdən biridir. Məhz bu səbəbdən Azərbaycan minatəmizləmə üzrə milli DİM tətbiq etmək qərarına gəlib. Minalar və partlamamış hərbi sursatlar mülki əhali üçün təhlükə yaradır və bütün dünyada sosial-iqtisadi tərəqqiyə mane olur. Qlobal miqyasda DİM-lərə nail olmaq üçün minalardan təmizləməni təşviq etmək vacibdir. Azərbaycan humanitar minatəmizləmə üzrə yeni və xüsusi DİM təklif edir.

4 aprel minalar və partlamamış hərbi sursatların məhv edilməsi istiqamətində inkişafı qeyd etmək günüdür. Həmçinin bu, qarşımızda hələ çox uzun bir yol olduğunu xatırladır. Biz səylərimizin dəstəklənməsindəki dəyərli tərəfdaşlığınıza güvənirik. Bu dəstək ümumi məqsədimiz olan minalardan təmizlənmiş dünya üçün çox önəmlidir.

# "Togg" İlham Əliyevə təqdim olundu












Aprelin 4-də Türkiyənin ilk yerli elektromobili "Togg" Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə təqdim olunub.

AZƏRTAC xəbər verir ki, dövlətimizin başçısı əvvəlcə Türkiyənin sənaye və texnologiya naziri Mustafa Varank, "Togg" şirkətinin baş icraçı direktoru və idarə heyətinin üzvləri ilə görüşdü.

**Prezident İlham ƏLİYEV:** Bir daha salaməleyküm.

**Mustafa VARANK:** Hörmətli cənab Prezidentim, xoş gəldiniz.

**Prezident İlham ƏLİYEV:** Xoş gördük.

Türkiyə Palatalar və Birjalar Birliyinin rəhbəri **Rifat HİSARCIKLIOĞLU:** Salaməleyküm, cənab Prezidentim, necəsiniz?

**Prezident İlham ƏLİYEV:** Salam, xoş gördük. Sizi gözləyirdik.

**Rifat HİSARCIKLIOĞLU:** Allah razı olsun. Cənab Prezidentim, gödəkcəni geyinərsinizmi?

**Prezident İlham ƏLİYEV:** Təbii ki, geyinərəm.

**Rifat HİSARCIKLIOĞLU:** Ölçünü də tam tutdurmuşuq. Cənab Prezidentim, buranı ilk dəfə görürəm. Mənzərə möhtəşəmdir.

**Prezident İlham ƏLİYEV:** Bura Bakının ən gözəl, ən mənzərəli yeridir. Ona görə mən bu yeri seçdim.

Xatirə şəkilləri çəkdirildi.

Türkiyənin sənaye və texnologiya naziri Mustafa Varank "Togg" elektromobilinin T10X modelinin açarını dövlətimizin başçısına təqdim etdi.

**Mustafa VARANK:** Hörmətli cənab Prezidentim, hörmətli Prezidentimizin salamlarını gətirdik.

**Prezident İlham ƏLİYEV:** Əleykümsalam.

**Mustafa VARANK:** Türkiyədən ikinci avtomobili Sizə təqdim etmiş oluruq. Bütün türk xalqı ikinci avtomobilin Azərbaycana göndərilməsindən çox məmnundur. Xeyirli-uğurlu olsun. İnşallah, gözəl günlərdə istifadə edərsiniz.

**Prezident İlham ƏLİYEV:** Çox sağ olun, təşəkkür edirəm. İlk növbədə, Əziz Qardaşım, hörmətli Prezident Rəcəb Tayyib Ərdoğana təşəkkürümü bildirirəm ki, ikinci avtomobilin mənə verilməsini tövsiyə edib. Sizə də təşəkkür edirəm, ilk növbədə bu gözəl avtomobili istehsal etdiyiniz üçün. Bu, Türkiyənin, Türkiyə sənayesinin növbəti böyük bir uğurudur. Bu hədiyyəni mənə təqdim etdiyiniz üçün xüsusi təşəkkürümü bildirmək istəyirəm.

**Mustafa VARANK:** Xeyirli olsun.

Sonra Prezident İlham Əliyevə xatirə hədiyyəsi təqdim olundu.

Dövlətimizin başçısı "Togg" elektromobilini idarə etdi.

Qeyd edək ki, 2022-ci il oktyabrın 29-da təqdimatı keçirilən Türkiyənin milli istehsalı olan "Togg" elektromobilinin ilk sifarişçilərindən biri də dövlətimizin başçısı olub. Ötən il noyabrın 2-də Azərbaycan Prezidenti İlham Əliyev Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan ilə telefon söhbəti zamanı dövlətimizin başçısı Türkiyənin mobillik sahəsində xidmət göstərən qlobal texnologiya markası "Togg"un kütləvi istehsala başlanılması münasibətilə təbriklərini çatdırıb və bunu Türkiyə sənayesinin yeni uğuru kimi dəyərləndirib. Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan mətbuata açıqlamasında həmin telefon danışığı zamanı Azərbaycan Prezidenti İlham Əliyevin iki ədəd "Togg" elektromobili almaq üçün sifariş verdiyini bildirmişdi.

İlk avtomobil ötən gün Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğana və xanımı Əminə Ərdoğana təqdim olunub.

Xatırladaq ki, "Togg"un kütləvi istehsal zavodunun rəsmi açılış mərasimi ötən il oktyabrın 29-da keçirilib. Zavod Bursa vilayətinin Gemlik rayonunda inşa olunub. 2020-ci ildə təməli qoyulan zavodun inşası iki ilə tamamlanıb. Zavodun açılışı ilə yerli avtomobilin kütləvi istehsalı prosesi başlanıb. Tədbirdə iştirak edən Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan "Togg" elektromobilini sınaqdan keçirib. Rəcəb Tayyib Ərdoğan bildirib ki, il ərzində 175 min avtomobil istehsal olunacaq, 2030-cu ilə qədər istehsal 1 milyonu ötəcək.

Qeyd edək ki, "Togg" elektromobilləri "Pamukkale", "Anadolu", "Gemlik", "Kula", "Oltu" və "Kapadokya" olmaqla altı rəngdə istehsal olunur. Avtomobil iki modifikasiyada - 200 və 400 at gücündə elektrik mühərriki ilə buraxılır. Ən güclü versiya 0-dan 100 kilometr-saat sürəti 4,8 saniyəyə yığa bilir. Elektromobilin maksimal gediş məsafəsi isə 500 kilometrə yaxındır. Avtomobillərin hazırlanması zamanı onların ətraf mühit üçün tam zərərsiz olmasına xüsusi diqqət yetirilib.

Türkiyənin 60 illik xəyalının reallaşması kimi qiymətləndirilən yerli avtomobil "Togg"un T10X modeli üçün sifariş hüququ qazanan 20 min əsas və 20 min ehtiyat qalibin siyahısı da artıq açıqlanıb. Püşkatma nəticəsində T10X modelini almaq hüququ qazanan şəxslərin siyahısı "Togg"un rəsmi internet saytında elan edilib. Bu modeli əvvəlcədən sifariş verən 177 min 467 nəfər arasında 20 min nəfər yerli avtomobil sahibi olub.

Milli Məclisin plenar iclasında

# Heydər Əliyev irsinə növbəti ehtiram nümunəsi

## Milli Məclis Ulu Öndərin xatirəsini əbədiləşdirən medal təsis edir

*Əvvəli 1-ci səh.*

Düşmənlərimiz Azərbaycanın müstəqil daxili və xarici siyasət yürütməsini, Qarabağ müharibəsində əldə etdiyi qələbəni qəbul edə bilmirlər.

Millət vəkilləri aidiyyəti qurumların həyata keçirdiyi tədbirlər nəticəsində qısa zaman ərzində bu terroru törədənlərin ifşa olunmasını təqdirəlayiq hal hesab ediblər, ölkənin dövlət təhlükəsizlik və hüquq-mühafizə orqanları tərəfindən bu hadisədə əli olanların cəzalarını alması istiqamətində görülən işləri dəstəklədiklərini söyləyiblər.

Çıxışlarda deputat Fazil Mustafaya qarşı törədilmiş terror aktının araşdırılmasının, onun sağlamlıq durumunun ölkə Prezidenti İlham Əliyevin və Birinci vitse-prezident Mehriban Əliyevanın diqqətində olduğu xüsusi vurğulanıb. Milli Məclisin Sədri Sahibə Qafarovanın millət vəkilini xəstəxanada ziyarət etdiyi, onun müalicəsi ilə maraqlandığı qeyd edilib. Əminliklə bildirilib ki, hadisənin təşkilatçıları və icraçıları layiqli cəzalarını alacaqlar.

Sonra iclasda Azərbaycan Respublikası Milli Məclisinin Bəyanatı ilə bağlı məsələyə baxılıb. Milli Məclis Sədrinin birinci müavini, Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri Əli Hüseynli Azərbaycana qarşı xaricdən qarayaxma kampaniyalarının həyata keçirildiyini söyləyib. O, cari il martın 16-da Fransa Senatında keçirilmiş konfransda ölkəmizə qarşı növbəti təxribatın törədildiyini və parlamentin bu hadisəyə münasibət bildirməsinin vacibliyini qeyd edib.

Parlamentin Əmək və sosial siyasət komitəsinin sədri Musa Quliyev məsələ ilə bağlı bəyanatın mətnini hazırlamaq üçün komissiyanın yaradılması təklifi ilə çıxış edib.

Milli Məclis Sədrinin birinci müavini, Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri Əli Hüseynli təklifi dəstəkləyib. Bəyanat layihəsinin hazırlanması üçün Fransa ilə parlamentlərarası əlaqələr üzrə işçi qrupunun rəhbəri Soltan Məmmədovun başçılığı ilə parlamentin komitə sədri Ziyafət Əsgərovun, deputatlar Elşən Musayevin, Əziz Ələkbərovun və Sevil Mikayılovanın daxil olduğu komissiya yaradılıb və öz işinə başlayıb.

Məsələ ətrafında müzakirələrdə komitə sədri Səməd Seyidov, deputatlar Elşən Musayev, Soltan Məmmədov, Rafael Hüseynov, Qüdrət Həsənquliyev, Kamran Bayramov, Şahin İsmayılov, Əminə Ağazadə, Fəzail Ağamalı, Ceyhun Məmmədov, Razi Nurullayev çıxış ediblər. Bildirilib ki, Fransa Senatında növbəti dəfə Azərbaycanın suverenliyinə və ərazi bütövlüyünə qarşı yönəlmiş, beynəlxalq hüquqa hörmətsizlik ifadə edən konfrans keçirilməsi regionda sülhü və sabitliyi pozmağa yönəlib. 44 günlük Vətən müharibəsində olduğu kimi, ondan sonra da Fransa ölkəmizə qarşı qərəzli siyasətini davam etdirir. Qeyd edilib ki, Cənubi Qafqazda yaranmış yeni reallıqlar, Azərbaycanla Ermənistan arasında münasibətlərin normallaşması istiqamətində irəli sürülən təşəbbüslər fonunda belə tədbirlərin təşkili ilə Fransa sülh və əməkdaşlıq üçün imkanların yarandığı Cənubi Qafqazda vəziyyəti dramatikləşdirməyə çalışır.

Millət vəkilləri Azərbaycanın bütün digər tərəfdaşları ilə münasibətlərdə olduğu kimi, Fransa ilə əlaqələrdə də hər zaman səmimi, ardıcıl siyasət yürütdüyünü, qarşılığında isə Fransanın ədalətsiz, haqsız və qərəzli mövqeyi ilə qarşılaşdığını təəssüflə söyləyiblər. Deputatlar Fransa Senatında keçirilmiş qondarma konfransı növbəti dəfə Azərbaycanın daxili işlərinə müdaxilə kimi qiymətləndiriblər.

Azərbaycanın beynəlxalq səviyyədə tanınmış ərazilərində məskunlaşmış erməni azlığının hüquq və təhlükəsizlik məsələləri ilə bağlı aktivlik göstərilməsinə toxunan deputatlar, Fransanın öz ərazisində yaşayan fərqli etnik və dini mənsubiyyətdən olan insanların hüquqlarına qarşı dözümsüz münasibət göstərdiyini söyləyiblər. Bildirilib ki, Fransa parlamentarilərinin ölkəmizin suverenliyini və ərazi bütövlüyünü hədəfə alan, Azərbaycan ərazisində separatizmi açıq şəkildə təşviq edən addımları ikiüzlülüyün bariz təzahürü kimi ciddi şəkildə qınanılmalıdır.

Sonra deputat Sevil Mikayılova 2023-cü il martın 16-da Fransa Respublikasının Senatında keçirilmiş üzdəniraq "konfrans" ilə əlaqədar Azərbaycan Respublikası Milli Məclisinin Bəyanatının mətnini diqqətə çatdırıb.

Sənəd səsə qoyularaq qəbul edilib. *(Bəyanatın mətni qəzetin bugünkü nömrəsində dərc olunub).*

Milli Məclis Sədrinin birinci müavini, Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri Əli Hüseynli "Heydər Əliyevin 100 illiyi (1923-2023)" Azərbaycan Respublikasının yubiley medalının təsis edilməsi ilə əlaqədar "Azərbaycan Respublikasının orden və medallarının təsis edilməsi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə qanun layihəsini (birinci oxunuş) təqdim edib.

O bildirib ki, ölkə Prezidentinin sərəncamı ilə 2023-cü il Heydər Əliyev İli elan edilib. Ulu Öndərin xatirəsinə veriləcək ən dəyərli töhfələrdən biri də onun adına yubiley medalının təsis edilməsidir. Komitə sədri "Heydər Əliyevin 100 illiyi" yubiley medalının Azərbaycan medalları sırasında xüsusi yer tutacağını, Əsasnaməyə əsasən bu medalın ordenlərdən sonra sıralamada ilk olaraq taxıldığını deyib. Qeyd edib ki, Əsasnamənin 1-ci maddəsinə görə, yubiley medalı ilə təltif ediləcək şəxslərin dairəsi də digər medallarla müqayisədə genişdir.

Diqqətə çatdırılıb ki, Azərbaycan vətəndaşları və əcnəbilər, milli və xarici dövlət qurumları və beynəlxalq təşkilatların nümayəndələri bir sıra xidmətlərinə görə bu medalla təltif oluna bilərlər. Bu xidmətlərə Heydər Əliyev irsinin təbliği və tədqiqi, azərbaycançılıq ideyasının həyata keçirilməsi, sülhün və beynəlxalq əməkdaşlığın inkişafında xidmətlər kimi ülvi dəyərlər aiddir.

Əli Hüseynli qeyd edib ki, hələ sovet hakimiyyəti illərində məhz Heydər Əliyevin rəhbərliyi ilə Azərbaycan keçmiş ittifaqın ən inkişaf etmiş respublikalarından birinə çevrilmiş, o illərdə gələcək müstəqil dövlətin iqtisadi əsasları yaradılmış, milli dövlətçilik, azərbaycançılıq ideologiyası formalaşmışdır. O deyib ki, 1990-cı ilin noyabrında müstəqilliyimizin hələ rəsmi bəyan olunmadığı bir dövrdə Heydər Əliyev Naxçıvanda Azərbaycanın müstəqillik uğrunda mübarizəsini davam etdirmiş və üçrəngli bayrağımızı qaldıraraq suverenliyimizin bərpasının ilk hüquqi təməlini qoymuşdur. Bu baxımdan Əsasnamədə "Azərbaycanda dövlət quruculuğunda, o cümlədən milli azadlıq hərəkatında xüsusi xidmətlərinə görə "Heydər Əliyevin 100 illiyi" yubiley medalı ilə təltif olunması" müddəası təqdirəlayiqdir. Həmçinin dövlət müstəqilliyinin qorunub saxlanılması, sosial-mədəni, elmi inkişafda xidmətlərinə, ictimai-siyasi sahədə səmərəli fəaliyyətinə və digər xidmətlərinə görə şəxslər də bu medalla təltif ediləcək.

Yubiley medalının təsviri barədə danışan birinci vitse-spiker medalda Heydər Əliyevin barelyefinin, müstəqilliyimizin atributlarının əks olunduğunu söyləyib. O, "Heydər Əliyevin 100 illiyi (1923-2023)" medalının təsis edilməsinin Ulu Öndərin əziz xatirəsinə ehtiramın bir nümunəsi olduğunu vurğulayıb.

Məsələ ilə bağlı çıxış edən komitə sədri Siyavuş Novruzov, deputatlar Hikmət Məmmədov, Sabir Rüstəmxanlı, Musa Qasımlı, Fəzail Ağamalı "Heydər Əliyevin 100 illiyi (1923-2023)" yubiley medalının təsis edilməsini yüksək qiymətləndiriblər. Millət vəkilləri Ulu Öndər Heydər Əliyevin Azərbaycan xalqı və dövləti qarşısında müstəsna xidmətlərindən danışıblar, Ümummilli Liderin Azərbaycanın dövlət müstəqilliyinin qorunub saxlanmasında və möhkəmləndirilməsində önəmli rol oynadığını vurğulayıblar.

Qanun layihəsi səsə qoyularaq birinci oxunuşda qəbul edilib.

Sonra iclasda İnam İmdad oğlu Kərimovun Azərbaycan Respublikası Ali Məhkəməsinin hakimi təyin edilməsi haqqında məsələyə baxılıb.

Parlamentin birinci vitse-spikeri, Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri Əli Hüseynli bildirib ki, Prezident tərəfindən Konstitusiyanın 109-cu bəndinə və "Məhkəmələr və hakimlər haqqında" qanunun 93-4-cü maddəsinin birinci hissəsinə uyğun olaraq İnam Kərimovun namizədliyi Milli Məclisə təqdim olunub. O, Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin iclasında məsələyə baxıldığını və müsbət rəy verildiyini söyləyib.

Diqqətə çatdırılıb ki, İnam Kərimov Bakı Dövlət Universitetində, o cümlədən dünyanın tanınmış universitetlərində hüquq təhsili almış, hüquq üzrə fəlsəfə doktorudur. O, əmək fəaliyyətinə Prezident Administrasiyasının Hüquq-mühafizə orqanları ilə iş şöbəsində başlayıb. Həmin dövrdə, həmçinin Korrupsiyaya qarşı mübarizə komissiyasının katibi olub və bu sahədə ölkəmizi beynəlxalq təşkilatlarda təmsil edib. İnam Kərimov Azərbaycan brendi kimi tanınan ASAN xidmətin ilk rəhbəri olub, dövlət xidmətlərində şəffaflığın və vətəndaş məmnunluğunun təmin olunması sahəsində ciddi dönüş yaradıb. O, 2018-ci ildən nazir vəzifəsində çalışmaqla, həmçinin publik hüquqi və inzibati hüquqi vəzifələri icra edib.

Komitə sədri İnam Kərimovun Ali Məhkəmədə fəaliyyəti dövründə Azərbaycanda ədalət mühakiməsinin effektiv və şəffaf həyata keçirilməsinə öz töhfəsini verəcəyinə əminliyini ifadə edib.

Məsələ səsə qoyularaq qəbul edilib.

Sonra birinci vitse-spiker bildirib ki, növbəti 4 məsələ ölkə Prezidenti tərəfindən bir məktubla parlamentə daxil olub. Bu məsələlər - "Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının yaradılması haqqında" Naxçıvan Sazişinə dəyişikliklər edilməsinə dair Protokolun təsdiq edilməsi, "Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurası Katibliyinin maliyyə qaydaları haqqında" Sazişə dəyişikliklər edilməsinə dair Protokolun təsdiq edilməsi, "Türk Dövlətləri Təşkilatının hökumətləri arasında sadələşdirilmiş gömrük dəhlizinin yaradılması haqqında" Sazişin təsdiq edilməsi, "Türk Dövlətləri Təşkilatına üzv dövlətlərin hökumətləri arasında beynəlxalq kombinə edilmiş yük daşımaları haqqında" Sazişin təsdiq edilməsi barədə qanun layihələridir.

Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin sədri Səməd Seyidov məsələləri təqdim edərək bu gün Türk Dövlətləri Təşkilatının yeni mərhələyə yüksəldiyini qeyd edib. Bildirilib ki, təqdim olunan sənədlərdə "Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurası"nın adının "Türk Dövlətləri Təşkilatı"na dəyişdirilməsi və bununla əlaqədar müvafiq dəyişikliklərin edilməsi nəzərdə tutulub. Qeyd olunub ki, Türk Dövlətləri Təşkilatının içərisində müxtəlif qurumlar yüksək səviyyədə fəaliyyət göstərirlər. İmzalanmış sazişlərdə iqtisadi, maliyyə, mədəniyyət, təhsil, habelə digər sahələrdə əlaqələrin genişləndirilməsi ilə bağlı məsələlər öz əksini tapıb.

Qanun layihələri ayrı-ayrılıqda səsə qoyularaq qəbul edilib.

Aqrar siyasət komitəsinin sədri Tahir Rzayev "Birliyin iştirakçısı olan dövlətlərin geodeziya, xəritəçəkmə, kadastr və Yerin məsafədən zondla tədqiq edilməsi sahələrində qarşılıqlı fəaliyyəti haqqında 1992-ci il 9 oktyabr tarixli Sazişdə dəyişiklik edilməsi barədə" Protokolun təsdiq edilməsi haqqında qanun layihəsini təqdim edib. Komitə sədri bildirib ki, Azərbaycan Respublikası bu sazişə 10 aprel 1998-ci ildə qoşulub. 2021-ci il 28 may tarixində imzalanmış protokol ilə yuxarıda qeyd olunan sazişlə təsdiq edilmiş Geodeziya, xəritəçəkmə, kadastr və Yerin məsafədən zondla tədqiq edilməsi üzrə Dövlətlərarası Şura haqqında Əsasnamə yeni redaksiyada verilir. Əsasnaməyə uyğun olaraq 1992-ci il 9 oktyabr tarixli sazişin yerinə yetirilməsi üçün Dövlətlərarası Şura yaradılır və o, Müstəqil Dövlətlər Birliyinin sahəvi əməkdaşlıq orqanı hesab edilir. Əsasnamədə şuranın funksiyaları, tərkibi, fəaliyyətinin təşkili, üzvlərinin hüquq və vəzifələrinə dair müddəalar öz əksini tapıb. Burada şuranın Katibliyinin funksiyaları və prosedur qaydaları da müəyyən edilib.

Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin sədri Səməd Seyidov sənəd barədə bu komitənin müsbət rəyini səsləndirdikdən sonra qanun layihəsi səsə qoyularaq qəbul edilib.

İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin üzvü Məzahir Əfəndiyevin məlumatından sonra "Azərbaycan Respublikası ilə Yaponiya arasında gəlirlərə görə vergilərə münasibətdə ikiqat vergitutmanın aradan qaldırılması və vergidən yayınmanın qarşısının alınması haqqında" Konvensiyanın təsdiq edilməsi barədə və "Azərbaycan Respublikası Hökuməti ilə Monteneqro Hökuməti arasında hava əlaqəsi haqqında" Sazişin təsdiq edilməsi barədə qanun layihələri təsdiq edilib.

Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin üzvü Əminə Ağazadə ölkə Prezidenti tərəfindən bir məktubla təqdim edilmiş "Prokurorluq haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi (üçüncü oxunuş), Azərbaycan Respublikasının 2001-ci il 29 iyun tarixli 165-IIQ nömrəli Qanunu ilə təsdiq edilmiş "Prokurorluq orqanları işçilərinin fərqlənmə nişanları və xüsusi geyim formasının təsviri"ndə dəyişiklik edilməsi (üçüncü oxunuş),"Prokurorluq işçilərinin xidməti vəsiqəsi haqqında" Azərbaycan Respublikası Qanununun ləğv edilməsi (üçüncü oxunuş), "Prokurorluq orqanlarında qulluq keçmə haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi (üçüncü oxunuş) barədə qanun layihələri haqqında məlumat verib. O, layihələr haqqında birinci və ikinci oxunuşlarda ətraflı məlumat verildiyini, sənədlərlə bağlı komitəyə hər hansı bir təklifin daxil olmadığını söyləyib.

Qanun layihələri ayrı-ayrılıqda səsə qoyularaq üçüncü oxunuşda qəbul edilib.

Milli Məclisin birinci vitse-spikeri digər 3 məsələnin də Prezidentin bir məktubu ilə parlamentə daxil olduğunu söyləyib.

Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin üzvü Kamal Cəfərov Azərbaycan Respublikasının Miqrasiya Məcəlləsində dəyişiklik edilməsi haqqında qanun layihəsini (üçüncü oxunuş) təqdim edib. Diqqətə çatdırıb ki, layihə ilə bağlı birinci və ikinci oxunuş zamanı ətraflı məlumat verilib, sənədin mətnində hər hansı bir dəyişiklik aparılmayıb.

İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin üzvü Mahir Abbaszadə "Banklar haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə (üçüncü oxunuş) və "Qiymətli kağızlar bazarı haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə (üçüncü oxunuş) qanun layihələrini diqqətə çatdırıb. O deyib ki, layihələrə heç bir əlavə və dəyişiklik edilməyib.

Qanun layihələri ayrı-ayrılıqda səsə qoyularaq üçüncü oxunuşda qəbul edilib.

Milli Məclis Sədrinin birinci müavini Əli Hüseynli bildirib ki, gündəliyin son 3 məsələsi birinci oxunuşda olan qanun layihələridir.

Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin üzvü Əminə Ağazadə "Prokurorluq haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi (birinci oxunuş), "Dövlət qulluğu haqqında" və "Prokurorluq orqanlarında qulluq keçmə haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi (birinci oxunuş) barədə qanun layihələrini təqdim edib. Bildirilib ki, sənədlər Naxçıvan Muxtar Respublikası Hərbi Prokurorluğunun tabelik qaydasının dəyişdirilməklə yenidən təşkil olunması ilə əlaqədar hazırlanıb. Nəzərdə tutulan dəyişikliklər nəticəsində həyata keçiriləcək institusional islahatlar prokurorluq orqanlarının struktur quruluşunun təkmilləşdirilməsi, onların xidməti fəaliyyətinin daha da yaxşılaşdırılması və səmərəliliyinin artırılmasına, qanunla onlara həvalə edilmiş vəzifələrin icrası səviyyəsinin yüksəldilməsinə xidmət edir.

Qanun layihələri ayrı-ayrılıqda səsə qoyularaq birinci oxunuşda qəbul edilib.

Milli Məclisin İnsan hüquqları komitəsinin sədri Zahid Oruc "İnformasiya, informasiyalaşdırma və informasiyanın mühafizəsi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə qanun layihəsini (birinci oxunuş) diqqətə çatdırıb. O bildirib ki, Azərbaycan Prezidenti tərəfindən 17 aprel 2021-ci il tarixdə "Kritik informasiya infrastrukturunun təhlükəsizliyinin təmin edilməsi sahəsində bəzi tədbirlər haqqında" imzalanmış fərmanla kritik informasiya infrastrukturunun təhlükəsizliyinin təmin edilməsi sahəsinin hüquqi tənzimlənməsi məqsədilə müvafiq normativ hüquqi aktların layihələrinin hazırlanması nəzərdə tutulub. Bununla əlaqədar olaraq, "İnformasiya, informasiyalaşdırma və informasiyanın mühafizəsi haqqında" qanunda dəyişiklik edilməsi barədə" 2022-ci il 27 may tarixli 539-VIQD nömrəli Qanun qəbul edilib və sözügedən anlayış, o cümlədən kritik informasiya infrastrukturu, onun təhlükəsizliyinin təmin edilməsi və s. ilə bağlı müvafiq müddəalar qanuna əlavə edilib.

Qeyd edilib ki, kritik informasiya infrastrukturunun təhlükəsizliyinin effektiv təmin edilməsi ilə bağlı qanunvericilikdə yeni dəyişikliklər edilməsi zərurəti yaranıb. Layihədə kritik informasiya infrastrukturu obyektlərinin siyahısının Azərbaycan Respublikasının Nazirlər Kabineti tərəfindən müəyyən edilməsi təklif olunur. Bununla yanaşı, qanun layihəsində provayderin özünə dair tələblərin də Nazirlər Kabineti tərəfindən müəyyən edilməsi, provayderin təsisçisinin və onun səlahiyyətli nümayəndəsinin, eləcə də provayderin kritik informasiya infrastrukturunun təhlükəsizliyi üzrə fəaliyyətinə rəhbərlik edən şəxsin və bu fəaliyyətə cəlb edilmiş digər əməkdaşların Azərbaycan Respublikasının vətəndaşı olması ilə bağlı tələb nəzərdə tutulur.

Deputatlar Etibar Əliyev, Vüqar Bayramov, Səbinə Xasayeva, Nigar Arpadarai məsələ ilə bağlı fikirlərini və bəzi qeydlərini səsləndiriblər.

Qanun layihəsi birinci oxunuşda qəbul edilib.

***Rəşad CƏFƏRLİ,***
***"Azərbaycan"***




## İ.İ.Kərimovun Azərbaycan Respublikası Ali Məhkəməsinin hakimi təyin edilməsi haqqında

### Azərbaycan Respublikası Milli Məclisinin Qərarı

Azərbaycan Respublikası Konstitusiyasının 95-ci maddəsinin I hissəsinin 10-cu bəndinə, 131-ci maddəsinin II hissəsinə, "Məhkəmələr və hakimlər haqqında" Azərbaycan Respublikası Qanununun 93-4-cü maddəsinin birinci hissəsinə uyğun olaraq, Azərbaycan Respublikası Prezidentinin təqdimatına əsasən Azərbaycan Respublikasının Milli Məclisi **qərara alır:**

1. İnam İmdad oğlu Kərimov Azərbaycan Respublikası Ali Məhkəməsinin hakimi təyin edilsin.
2. Bu Qərar imzalandığı gündən qüvvəyə minir.

***Əli HÜSEYNLİ,***
***Azərbaycan Respublikası Milli Məclisi Sədrinin birinci müavini***

*Bakı şəhəri, 4 aprel 2023-cü il*

# Azərbaycan Respublikası Milli Məclisinin Bəyanatı

2023-cü il martın 16-da Fransa Respublikasının Senatında keçirilmiş üzdəniraq "konfrans" ilə əlaqədar Azərbaycan Respublikasının Milli Məclisi aşağıdakıları bildirir.

Fransa parlamentinin Azərbaycan torpaqlarının Ermənistan tərəfindən 30 illik işğalına son qoyulması ilə nəticələnmiş İkinci Qarabağ müharibəsindən sonra Azərbaycana qarşı düşmənçilik və qarayaxma kampaniyası aparan qüvvələrin əlində alətə çevrilməsi təəssüf doğurur.

Fransa qanunvericilik orqanının səlahiyyətlərindən kənara çıxan bu hərəkəti Ermənistan ilə Azərbaycan arasında münaqişədən sonra normallaşma prosesinin irəli aparılması və sülh sazişinin bağlanması istiqamətində beynəlxalq subyektlərin səylərinin gücləndiyi, eləcə də Azərbaycanın mərkəzi hakimiyyət orqanları ilə Qarabağ bölgəsinin etnik erməni sakinləri arasında dialoq qurulması üçün tədbirlər görüldüyü bir vaxtda sülh prosesinə zərbə vuran, Azərbaycan Respublikasının suverenliyinə və ərazi bütövlüyünə qarşı yönələn, revanşizmə rəvac verən bir addımdır.

Konstitusiyasında hər hansı etnik və milli azlıq anlayışı, ümumiyyətlə, nəzərdə tutulmayan, etnik və dini mənsubiyyəti fransızlardan fərqli insanların hüquqlarına açıq dözümsüzlük nümayiş etdirən, onların müvafiq beynəlxalq mexanizmlər ilə nəzərdə tutulmuş dil, din azadlığını və ya hər hansı digər hüquq və azadlıqlarını təmin etməkdən boyun qaçıran Fransanın, o cümlədən bu ölkənin qanunvericilik qurumunun başqa ölkələrin daxili işlərinə müdaxilə məqsədi ilə azlıqların hüquqlarını açıq-aşkar siyasi təzyiq alətinə çevirməsi, xüsusən, Azərbaycanın beynəlxalq səviyyədə tanınmış ərazilərində məskunlaşan erməni azlığının "hüquqları və təhlükəsizliyi" məsələsində canfəşanlıq göstərməsi qəbuledilməzdir.

Çox uzaq keçmişə getmədən xatırlatmaq kifayətdir ki, Fransa parlamenti Azərbaycandakı etnik erməni azlığının "hüquqları və təhlükəsizliyi" naminə qondarma təşəbbüslərə girişdiyi bir vaxtda, bu ölkədə məhkəmə vasitəsilə Korsika adasının yerli parlamentinin debatlar üçün fransız dilindən başqa bir dildən istifadə edilməsi barədə adət qaydasının qadağan olunduğuna dair qərar verilir, ümumiyyətlə, "Korsika xalqı" ifadəsinin Fransa Konstitusiyasına zidd olduğu təsbit edilir.

Fransa öz ərazisində yaşayan aborigen bir azlıq barəsində "xalq" ifadəsinin işlədilməsini Konstitusiyaya zidd addım kimi qadağan etdiyi halda, Azərbaycan vətəndaşlarının bir hissəsini qondarma "Dağlıq Qarabağ xalqı" və ya "Artsax xalqı" kimi qəbul edir, özünü onların guya pozulmuş hüquqlarının müdafiəçisi kimi qələmə verməyə çalışır.

Fransanın Avropadan kənarda idarə etdiyi ərazilər fransız müstəmləkə imperiyasının iyrənc qalıqlarıdır. Fransa müstəmləkə hakimiyyəti altında saxlamaqda davam etdiyi Mayot adası üzərində Qəmər Adaları İttifaqının şəksiz suverenliyini tanımaqdan boyun qaçırır, Yeni Kaledoniya xalqının və Fransanın dənizaşırı icma və ərazilərindəki digər xalqların hüquqlarına hörmətsizlik nümayiş etdirir.

Azərbaycanda yaşayan ermənilərin hansısa hüquqlarından "narahatlıq" ifadə edən Fransa parlament üzvlərinin mövcudluğu rəsmən inkar edilən milyonlarca Fransa vətəndaşının üzləşdiyi genişmiqyaslı ayrı-seçkilik barəsində müzakirələr aparması daha məntiqli olardı.

Azərbaycan Respublikasının daxili işlərinə davamlı müdaxilə edən Fransa Senatının və Milli Assambleyasının üzvləri 2021-ci ildə Fransa prezidentinin şəxsi təşəbbüsü ilə "separatizmə qarşı mübarizə və respublika prinsiplərinə hörmət" barəsində qanunlar qəbul etmişlər. "İslam terrorizminə" və ya "islam separatizminə" qarşı mübarizə adı altında qəbul olunan bu cür qanunlardan ölkədə din, dil, vicdan azadlığını kütləvi şəkildə məhdudlaşdırmaq üçün istifadə edilir, odur ki, Fransa parlament üzvlərinin Azərbaycanın suverenliyini və ərazi bütövlüyünü hədəf alan, Azərbaycan ərazisində separatizmi açıq şəkildə şirnikləndirən davranışı siyasi riyakarlığın ən bariz təzahürüdür.

Bütün bunlar Fransanın Cənubi Qafqaza yanaşmasının ikili standartlar üzərində qurulduğunu, Ermənistan və Azərbaycan ilə münasibətlərdə eqoist geosiyasi maraqlara əsaslandığını açıq nümayiş etdirir.

Azərbaycan ərazilərinin işğal altında olduğu onilliklər ərzində münaqişənin həlli üçün real addım atmayıb, Ermənistanın işğalçılıq siyasətini dəstəkləməyə üstünlük vermiş, münaqişə həll edildikdən sonra da onun yanında yer almış, həm milli səviyyədə, həm də beynəlxalq müstəvidə müxtəlif platformalarda Ermənistanı revanşizmə şirnikləndirən addım və təşəbbüslərin müəllifi olan Fransanın bölgədə itirdiyi mövqelərini kobud üsullarla bərpa etmək cəhdləri uğursuzluğa məhkumdur.

Belə bir məqam da nəzərə alınmalıdır ki, öz davranışı ilə Fransa nəinki Cənubi Qafqaz regionunun, həm də bütövlükdə Avropanın sülh, sabitlik və dayanıqlı inkişafla bağlı maraqlarına zərbə vurur.

Təsadüfi deyil ki, Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycana ədalətsiz, qeyri-obyektiv və qərəzli münasibətini dəfələrlə nümayiş etdirmiş Fransanın öz siyasətini yenidən nəzərdən keçirmədikcə, Ermənistanla Azərbaycan arasında normallaşma məsələlərinə hər hansı formada cəlb olunmaması barədə Azərbaycan hökumətinə müraciət qəbul etmişdir. Fransa tərəfinin son təxribatçı addımları şəraitində Azərbaycan parlamenti prinsipial mövqeyini bir daha təsdiq edərək Fransa Senatını Cənubi Qafqazda baş verən hadisələrin təhrif edilməsi kimi yanlış praktikadan əl çəkməyə, Azərbaycanın suverenliyinə və ərazi bütövlüyünə qarşı hərəkətlərdən, onun daxili işlərinə müdaxilədən çəkinməyə, Ermənistanla Azərbaycan arasında uzunmüddətli sülh yaradılmasına xidmət edən addımlar atmağa çağırır.

***(Bəyanat Azərbaycan Respublikası Milli Məclisinin 2023-cü il 4 aprel tarixli iclasında qəbul edilmişdir.)***

# Azərbaycanın xarici işlər naziri Avropa Şurasının Bakı ofisinin rəhbəri ilə görüşüb



Aprelin 4-də Azərbaycan Respublikasının xarici işlər naziri Ceyhun Bayramov Avropa Şurasının Bakı ofisinin rəhbəri Petr Zix ilə görüşüb.

Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a bildirilib ki, görüşdə Azərbaycan və Avropa Şurası arasında mövcud əməkdaşlıq gündəliyində duran məsələlər, o cümlədən regionda cari vəziyyət müzakirə edilib.

Görüş zamanı Azərbaycan və Avropa Şurası arasında geniş əməkdaşlıq gündəliyinin mövcudluğuna istinad olunaraq, bu xüsusda münasibətlərin inkişafında qəbul olunmuş Fəaliyyət Planlarının, o cümlədən 2022-2025-ci illər üzrə Fəaliyyət Planının vacibliyi diqqətə çatdırılıb. Milli qanunvericiliyin beynəlxalq qanunvericiliyə uyğunlaşdırılmasının, qanunun aliliyinin təmin olunması istiqamətində aparılmış çoxsaylı islahatların Azərbaycan və Avropa Şurası arasında mövcud əməkdaşlığın nəticələri olduğu qeyd edilib.

Nazir Ceyhun Bayramov postmünaqişə dövründə regionda mövcud vəziyyət, Azərbaycan tərəfindən işğaldan azad olunmuş ərazilərdə aparılan genişmiqyaslı bərpa və quruculuq işləri, bölgədə nəqliyyat və kommunikasiyaların açılması, Ermənistan və Azərbaycan arasında münasibətlərin normallaşması istiqamətində Azərbaycan tərəfindən atılan addımlar barədə qarşı tərəfi ətraflı məlumatlandırıb. Ermənistan tərəfinin öhdəliklərindən boyun qaçıraraq öz silahlı qüvvələrini Azərbaycan ərazilərindən çıxarmamasının, yalnız humanitar məqsədlər üçün istifadə olunan Laçın yolundan Azərbaycanın təbii sərvətlərinin daşınması, o cümlədən mina təhdidinin davam etdirilməsi məqsədilə istifadə etməsinin regionda sülh və təhlükəsizliyin bərqərar edilməsinə maneə olduğu diqqətə çatdırılıb. Laçın yolu ətrafında Ermənistanın bu kimi qeyri-qanuni fəaliyyətlərinə etiraz edən Azərbaycan vətəndaş cəmiyyəti nümayəndələrinin aksiyasına kölgə salmaq və beynəlxalq ictimaiyyəti yanlış yönləndirməyə hesablanan "humanitar böhran", "blokada" iddialarının həqiqəti əks etdirmədiyi vurğulanıb.

Petr Zix Azərbaycan və Avropa Şurası arasında əməkdaşlığın qarşılıqlı anlaşma və etimad əsasında uğurla davam etdiyini diqqətə çatdırıb. O, münasibətlərin inkişafında qarşılıqlı səfərlərin və təmasların vacibliyini vurğulayıb.

Görüşdə həmçinin qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

# Ceyhun Bayramov UNESCO nümayəndələrini Vətən müharibəsindən sonra regionda yaranmış vəziyyət barədə məlumatlandırıb

Aprelin 4-də Azərbaycan Respublikasının xarici işlər naziri Ceyhun Bayramov ADA Universiteti, UNESCO üzrə Azərbaycan Respublikasının Milli Komissiyası və İnkişaf və Diplomatiya İnstitutunun birgə təşkilatçılığı ilə keçirilən təlimdə iştirak məqsədilə Azərbaycana səfər edən UNESCO-nun Əddis-Əbəbədəki Ofisinin rəhbəri Rita Bissoonauth və Qvineya Respublikası, Konqo, Kot-d'İvuar, Niger, Benin, Toqo, Burkina Faso, Ekvatorial Qvineya, Cibuti, Qabonun UNESCO üzrə Milli Komissiyalarının baş katibləri ilə görüşüb.

Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a bildiriblər ki, görüşdə Azərbaycan və Afrika ölkələri arasında çoxtərəfli, o cümlədən UNESCO çərçivəsində əməkdaşlıq gündəliyində duran məsələlər müzakirə olunub.

Nazir Ceyhun Bayramov Azərbaycanın Qoşulmama Hərəkatına (QH) sədrliyinin əlaqələrin daha da inkişafına töhfə verdiyini bildirərək Azərbaycanın cari ilin mart ayında Bakıda keçirilən QH-nin COVID-19-a qarşı mübarizə üzrə Təmas Qrupunun Zirvə Görüşündə Afrikanın və inkişaf edən kiçik ada dövlətlərinin pandemiyadan sonrakı bərpasına dəstək göstərmək məqsədilə 2 fond üzrə qlobal çağırış bəyan etdiyini diqqətə çatdırıb.

Ölkəmizin Birləşmiş Millətlər Təşkilatı (BMT) və onun ixtisaslaşmış qurumları ilə əməkdaşlığa əhəmiyyət verdiyini bildirən nazir Ceyhun Bayramov bu xüsusda Azərbaycanın donor ölkə qismində təhsil, mədəniyyət, idman və elm sahələrində UNESCO ilə yaxından əməkdaşlıq etdiyini bildirib. Bu istiqamətdə əməkdaşlığın daha da genişləndirilməsi sahəsində Afrika ölkələrinin UNESCO üzrə Milli komissiyalarının baş katibləri üçün keçirilmiş təlim proqramının faydalı olacağına dair inam ifadə olunub.

Azərbaycanın COVID-19 pandemiyası dövründə qlobal təhsil koalisiyasının üzvü kimi dünyanın müxtəlif ölkələrində həyata keçirilən təhsil layihələrinə dəstək verdiyini bildirən nazir Ceyhun Bayramov xüsusilə bir sıra ölkələrdə qızların təhsil almasına yönələn fəaliyyətlərin təşviqinin prioritet istiqamətlərdən biri olduğunu qeyd edib.

Nazir Ceyhun Bayramov həmçinin təlim iştirakçılarını 44 günlük Vətən müharibəsindən sonra regionda yaranmış vəziyyət, Azərbaycanın postmünaqişə dövründə bölgədə apardığı genişmiqyaslı bərpa və quruculuq işləri, Ermənistanla sülh prosesi barədə məlumatlandırıb. Postmünaqişə dövründə Ermənistan tərəfindən sülh prosesinə maneçilik törədən hərbi-siyasi təxribatların törədilməsinə baxmayaraq, Azərbaycanın sülh gündəliyinin irəli aparılması istiqamətində qərarlı olduğu diqqətə çatdırılıb.

UNESCO-nun Əddis-Əbəbədəki Ofisinin rəhbəri Rita Bissoonauth, Afrikanın 10 ölkəsinin UNESCO üzrə Milli komissiyalarının baş katibləri üçün nəzərdə tutulmuş təlim proqramının təşkilinə görə təşəkkür edib. Sözügedən təlim proqramının UNESCO çərçivəsində Azərbaycan və Afrika ölkələri arasında əlaqələrin genişləndirilməsində mühüm rol oynayacağı diqqətə çatdırılıb.

# Azərbaycanın xarici işlər naziri BMT QAK-nin ölkəmizdəki yeni nümayəndəsi ilə görüşüb

Aprelin 4-də xarici işlər naziri Ceyhun Bayramov BMT-nin Qaçqınlar üzrə Ali Komissarlığının (QAK) Azərbaycana yeni təyin olunmuş nümayəndəsi Bik Lum ilə görüşüb.

Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a bildirilib ki, xanım Bik Lumu təyinatı münasibətilə təbrik edən nazir Ceyhun Bayramov ona yeni vəzifəsinin icrasında uğurlar arzulayıb.

Görüş zamanı müqabil tərəfi keçmiş Ermənistan-Azərbaycan münaqişəsi və onun nəticələri barədə məlumatlandıran nazir Ermənistanın etnik təmizləmə siyasəti nəticəsində bir milyondan artıq azərbaycanlının qaçqın və məcburi köçkün vəziyyətinə düşdüyünü və Azərbaycanın müstəqilliyinin ilk illərinə təsadüf edən bu ağır dövrdə Qaçqınlar üzrə Ali Komissarlığın ölkəmizlə əməkdaşlığını məmnuniyyətlə xatırladığını bildirib.

Nazir həmçinin işğaldan azad edilmiş ərazilərdə münaqişədən sonrakı dövrdə aparılan intensiv bərpa və yenidənqurma işlərindən bəhs edərək, bu işlər çərçivəsində artıq məcburi köçkünlərin Ağalı və Talış kəndlərinə qayıtmağa başladığını qeyd edib. Nazir Ceyhun Bayramov ölkəmizin, həmçinin erməni sakinlərin reinteqrasiyasında qərarlı olduğunu vurğulayıb.



Bununla yanaşı, Azərbaycanın sülh təşəbbüslərinə baxmayaraq, Ermənistan tərəfindən törədilən hərbi-siyasi təxribatlar diqqətə çatdırılıb. İşğal dövründə beynəlxalq təşkilatların missiyalarına imkan yaratmayan Ermənistan tərəfinin son zamanlar beynəlxalq təşkilatlardan öz məkrli niyyətləri üçün istifadə cəhdlərinin qəbuledilməz olduğu vurğulanıb.

BMT nümayəndəsi Azərbaycanla təmsil etdiyi qurum arasında əməkdaşlığın səviyyəsindən məmnunluq ifadə edərək, yeni təyin olunduğu vəzifəsində bu müsbət dinamikanı saxlamağa çalışacağını və bu istiqamətdə əlindən gələni əsirgəməyəcəyini bildirib. Azərbaycanlı məcburi köçkünlər üçün son 30 il ərzində çoxsaylı layihələr həyata keçirildiyi, onların öz yurdlarına qayıdışının təmin olunması ilə bağlı təmsil etdiyi qurum tərəfindən dəstək göstərilməsinə hazır olduqları qeyd olunub.

Görüş zamanı qarşılıqlı maraq doğuran regional məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

# Azərbaycanla İtaliya arasında əlaqələrin genişləndirilməsi imkanları müzakirə edilib

Bakıda Azərbaycan Respublikası Xarici İşlər Nazirliyi ilə İtaliya Respublikası Xarici İşlər və Beynəlxalq Əməkdaşlıq Nazirliyi arasında siyasi məsləhətləşmələrin növbəti raundu keçirilib.

Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a bildiriblər ki, siyasi məsləhətləşmələrdə nümayəndə heyətlərinə Azərbaycan tərəfindən xarici işlər nazirinin müavini Xələf Xələfov, qarşı tərəfdən isə İtaliya Respublikası xarici işlər və beynəlxalq əməkdaşlıq nazirinin müavini Edmondo Çirielli rəhbərlik edib.

Məsləhətləşmələr zamanı iki ölkə arasında ənənəvi dostluğa və qarşılıqlı etimada əsaslanan çoxölçülü strateji tərəfdaşlıq və onun gücləndirilməsi perspektivləri, siyasi, ticarət-iqtisadi, energetika, müdafiə və təhlükəsizlik, nəqliyyat, logistika, humanitar, mədəniyyət, təhsil sahələrində əlaqələrin genişləndirilməsi imkanları müzakirə edilib.

Nazir müavini Xələf Xələfov münasibətlərin hazırkı yüksək səviyyəsinin təmin olunmasında son illərdə yüksəksəviyyəli siyasi dialoqun davam etməsinin, Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin İtaliyaya, İtaliya Respublikasının Prezidenti Sercio Mattarellanın Azərbaycana səfərlərinin xüsusi rol oynadığını vurğulayıb.

2020-ci ildə iki ölkə arasında imzalanmış Çoxölçülü strateji tərəfdaşlığın gücləndirilməsinə dair Birgə Bəyannamənin, habelə müxtəlif sahələrdə əməkdaşlığa dair imzalanmış sənədlərin, eləcə də çoxsaylı hökumət və parlament nümayəndə heyətlərinin səfərlərinin və birgə olaraq həyata keçirilmiş bir sıra strateji layihələrin əhəmiyyəti qeyd olunub.

Nazir müavini Edmondo Çirielli ölkələrimiz arasında mövcud olan çoxölçülü strateji tərəfdaşlıqdan məmnunluqla danışaraq münasibətlərimizin hazırkı səviyyəyə yüksəlməsinin Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin siyasi iradəsi sayəsində mümkün olduğunu bildirib. Azərbaycanın bölgədə mərkəzi rola malik olduğunu, iki ölkə arasında geniş spektrli iqtisadi gündəliyin mövcudluğunu, uzun illər Azərbaycanın İtaliya üçün mühüm enerji təchizatçısı olduğunu, "Cənub qaz dəhlizi"nin və onun tərkib hissəsi olan Trans Adriatik qaz boru kəmərinin fəaliyyətə başlamasından sonra Azərbaycanın İtaliyanın enerji təhlükəsizliyindəki rolunun daha da artdığını diqqətə çatdırıb.

Azərbaycanda uzun illər çoxsaylı italyan şirkətlərinin uğurla fəaliyyət göstərdiyini, iki ölkənin həyata keçirdiyi layihələrin bölgədə və ondan kənarda əməkdaşlığın və inkişafın təmin olunmasındakı əhəmiyyətini vurğulayıb.

Nazir müavini X.Xələfov görüş zamanı Vətən müharibəsindən sonrakı dövrdə bölgəmizdə yaranmış yeni reallıqlar, davamlı sülhün və sabitliyin bərqərar olunması, işğaldan azad edilmiş ərazilərimizdə həyata keçirilən yenidənqurma və bərpa işləri haqqında qarşı tərəfə ətraflı məlumat verib və bu layihələrdə italyan şirkətlərinin fəal iştirakının dostluğumuzun bariz nümunəsi olduğunu bildirib. Azərbaycan və Ermənistan arasında münasibətlərinin normallaşması istiqamətində iki ölkə arasında sülh müqaviləsinin imzalanmasının, dövlət sərhədlərinin delimitasiyası və kommunikasiyaların açılmasının zəruri olduğunu diqqətə çatdırıb, Ermənistanın qeyri-konstruktiv mövqeyinin və öz üzərinə götürdüyü öhdəlikləri yerinə yetirməməsinin Cənubi Qafqazda sülh quruculuğuna təhlükə yaratdığını qeyd edib.

Nazir müavini E.Çirielli Azərbaycanın bölgədə sülhün bərqərar edilməsi istiqamətində səylərinin təqdirəlayiq olduğunu, Cənubi Qafqazda davamlı sülhün təmin olunmasının vacibliyini qeyd edərək, bu xüsusda İtaliyanın müvafiq töhfələr verməyə hazır olduğunu bildirib.

Siyasi məsləhətləşmələrdə iki ölkə arasında humanitar sahələrdə əməkdaşlıqdan məmnunluq ifadə olunub, Heydər Əliyev Fondunun mühüm rola malik olması vurğulanıb. Bakıda İtaliya-Azərbaycan Universitetinin yaradılmasının, Romada Azərbaycan Mədəniyyət Mərkəzinin fəaliyyətə başlamasının tərəfdaşlığımızın şaxələndirilməsindəki əhəmiyyəti qeyd olunub.

Məsləhətləşmələrdə, habelə regional və beynəlxalq gündəlikdə dayanan qarşılıqlı maraq kəsb edən digər mövzular, çoxtərəfli formatlarda əməkdaşlığın genişləndirilməsi ətrafında fikir mübadiləsi aparılıb, strateji dialoqun və hökumətlərarası komissiyanın növbəti iclaslarının keçirilməsinin əhəmiyyəti vurğulanıb.

# Ombudsman Böyük Britaniyanın ölkəmizdəki səfiri ilə görüşüb



Azərbaycan Respublikasının insan hüquqları üzrə müvəkkili (ombudsman) Səbinə Əliyeva Böyük Britaniyanın ölkəmizdəki səfiri Fergus Auld və səfirliyin nümayəndələri ilə görüşüb.

Bu barədə AZƏRTAC-a Ombudsman Aparatından bildirilib.

Görüş zamanı ombudsman qonaqlara mandatı və əsas fəaliyyət istiqamətləri haqqında məlumat verib. Ölkəmizdə insan hüquq və azadlıqlarının müdafiəsi sahəsində həyata keçirilən islahatlardan danışan S.Əliyeva Ombudsman təsisatının yaradılmasının bu istiqamətdə atılan ən mühüm addımlardan biri olduğunu vurğulayıb. Ölkəmizdə heç bir ayrı-seçkiliyə məruz qalmadan hər kəsin ombudsmana müraciət etmək hüququnun olduğu, hər bir müraciətə isə diqqətlə yanaşıldığı qonaqların diqqətinə çatdırılıb. Qeyd edilib ki, müraciətlərin qəbulu prosesində çevikliyin təmini məqsədilə təsisatda 24/7 rejimində fəaliyyət göstərən Çağrı Mərkəzi yaradılıb. Ombudsman həmçinin məhkumların və onların ailə üzvlərinin əfv haqqında müraciətlərini nəzərə alaraq, Azərbaycan Respublikasının Prezidenti yanında Əfv Məsələləri Komissiyasına müraciətlər etdiyini bildirib.

Görüş zamanı S.Əliyeva BMT, Avropa Şurası və digər nüfuzlu beynəlxalq təşkilatlarla olan əməkdaşlığı barədə məlumat verib, insan hüquqlarının səmərəli müdafiəsi ilə bağlı birgə həyata keçirilən layihələrdən danışıb. Ombudsman tərəfindən BMT-nin müqavilə qurumlarına paralel hesabatların təqdim olunması və universal dövri icmal prosesi çərçivəsində həyata keçirilən fəaliyyət barədə qonağa məlumat verilib.

Görüşdə bir sıra digər məsələlər ətrafında müzakirə aparılıb.

Yekunda qonaqlara Ombudsman təsisatının 20 illiyinə həsr olunmuş poçt markası və təsisat tərəfindən hazırlanmış maarifləndirici nəşrlər hədiyyə edilib.



# Heydər Əliyev İli 2023



# Hüquqi dövlət quruculuğunun memarı

*Əvvəli 1-ci səh.*

O dövrdə ölkədəki pərakəndəlik, separatizm meylləri, siyasi təcrübənin zəifliyi, ayrı-ayrı silahlı dəstələrin hökmranlıq etmək istəyi dövlətçiliyin itirilməsinə doğru gedən bu vəziyyəti şərtləndirən başlıca amil idi. Bu hadisələrin fonunda müstəqilliyini təzəcə bərpa etmiş ölkənin gələcək inkişafı, böhran vəziyyətində olan dövlətçiliyin xilas edilməsi konstitusiya hüquq sahəsində islahatların təxirə salınmadan həyata keçirilməsini, yeni mütərəqqi və demokratik dəyərlərə söykənən dövlət quruculuğunu, milli hüquq və məhkəmə sisteminin, normativ hüquqi akt bazasının yaradılmasını zərurətə çevirmişdi. Amma təəssüf ki, yuxarıda qeyd edilən səbatsızlıq və bu kimi digər səbəblərdən sadalanan işləri görə biləcək nə güclü dövlət aparatı, nə də siyasi rəhbər və iradə mövcud deyildi.

Məhz belə mürəkkəb bir şəraitdə xalqın təkidi ilə hakimiyyətə qayıdan və xilaskarlıq missiyasını çiyinlərinə götürən Ümummilli Lider Heydər Əliyev qısa müddət ərzində Azərbaycanda sabitliyi təmin etməyə nail oldu və dövlət quruculuğu prosesi üçün zəruri olan bir sıra vacib addımların atılmasını təmin etdi. İlk növbədə hər bir müstəqil dövlətin inkişafı üçün başlıca amil olan sabitliyin təmin edilməsi bu istiqamətdə atılmış ən zəruri addım oldu. Bunun ardınca vətəndaşların hüquq və mənafelərinin müdafiəsinə əsaslanan milli dövlətin qurulması prosesinə start verildi - insan və vətəndaş hüquqlarının və azadlıqlarının, Azərbaycan Respublikasının vətəndaşlarının layiqli həyat səviyyəsinin təmin edilməsi yeni qurulan dövlətin ali məqsədi kimi əsas hədəf seçildi, beynəlxalq münasibətlər sisteminə inteqrasiyaya istiqamətlənmiş, sosial ədalət prinsipinə əsaslanan hüquqi dövlət quruculuğu prosesi öz başlanğıc mərhələsinə qədəm qoydu və məntiqi ardıcıllığa uyğun olaraq hər şeydən əvvəl bu prosesin konseptual əsasları işlənib hazırlandı. Bu mərhələdə Azərbaycan Respublikasının Milli Məclisi "Azərbaycan Respublikasının yeni konstitusiya layihəsini hazırlayan komissiyanın tərkibi haqqında" müvafiq qərar qəbul etdi və o vaxt prezident vəzifəsində olan Ümummilli Lider Heydər Əliyevin sədrliyi ilə yaradılmış komissiya ümumxalq səsverməsinə çıxarılacaq konstitusiyanın layihəsinin hazırlanması işinə başladı. Onun rəhbərliyi altında yeni konstitusiya layihəsini hazırlayan komissiyanın ilk iclasındakı çıxışında Ümummilli Lider layihə ilə bağlı zəruri tezisləri komissiya üzvlərinin diqqətinə çatdıraraq, əslində, həm də hüquqi dövlət quruculuğu prosesinin ilkin təməllərini formalaşdırdı: "Biz elə bir konstitusiya layihəsi hazırlamalı və nəhayət, elə bir Konstitusiya qəbul etməliyik ki, o, müstəqil Azərbaycan Respublikasının demokratik prinsiplər əsasında uzun müddət sabit yaşamasını təmin edən əsas qanun, tarixi sənəd olsun... Konstitusiyamız Azərbaycanda məhz demokratik, hüquqi, dünyəvi, sivilizasiyalı bir dövlət qurmaq üçün əsas yaratmalıdır, onun əsas qanunu olmalıdır... Konstitusiya yaratmaq üçün tarixi keçmişimizə nəzər salmalıyıq, eyni zamanda ümumbəşəri dəyərlərdən, dünyanın demokratik dövlətlərinin əldə etdiyi nailiyyətlərdən istifadə etməli, bəhrələnməliyik... Konstitusiya birinci növbədə dövlətlə, hakimiyyətlə xalqın arasında olan münasibətləri özündə əks etdirməlidir. Hakimiyyət bölgüsü qanunvericilik, ali icra, məhkəmə hakimiyyətləri - bunlar hamısı xalqın iradəsinə söykənməli, seçkilər yolu ilə təmin olunmalıdır. Dövlət xalqın işi olmalıdır. Xalq dövlət üçün yox, dövlət xalq üçün olmalıdır və bu prinsiplər Konstitusiyamızın əsasını təşkil etməlidir... Ona görə də hər bir vətəndaşın hüquqlarının qorunması, azadlıqlarının təmin edilməsi və hər bir vətəndaşa cəmiyyətimizdə, ölkəmizdə özünə layiqli yer tutmaq imkanlarının yaradılması - bunlar hamısı Konstitusiyamızda öz əksini tapmalıdır..." Ümumxalq səsverməsindən sonra qəbul edilmiş ilk milli Konstitusiyanın müddəalarından da göründüyü kimi, müasir Azərbaycan Konstitusiyasında konstitusionalizmin klassik ideyaları aydın şəkildə təsbit olunmuşdur: hakimiyyətlərin bölgüsü; insan hüquq və azadlıqlarının prioritet hesab edilməsi; hakimiyyətin mənbəyinin xalq olması; siyasi plüralizm; konstitusion nəzarət və sairə.

Sadalanan bütün bu konseptual məqamlar, əslində, yuxarıda qeyd edildiyi kimi, mahiyyət etibarilə hüquqi dövlət quruculuğu prosesində ilkin təməl rolunu oynadı. Konstitusiya qəbul edildikdən sonra bu istiqamətdə ilk mühüm addım atılsa da, qarşıda görülməli işlər hələ çox idi. Növbəti fazada müvafiq dövlət proqramlarının, əsasən də insan hüquqları sahəsində qanunvericilik aktlarının qəbulu prosesi xüsusi yer tuturdu. Bu sahədə maddi hüquq normalarının bir hissəsi Konstitusiyada öz əksini tapsa da (xüsusi qeyd edilməlidir ki, Konstitusiyanın 158 maddəsindən 48-i, təqribən üçdəbiri məhz insan hüquq və azadlıqlarının təminatını nəzərdə tutan müddəalardır), sahəvi aktların çoxu hələ mövcud deyildi. Məhz bu amildən çıxış edərək Ümummilli Lider Heydər Əliyev tərəfindən 1996-cı il 21 fevral tarixli sərəncamla təşkil edilmiş Hüquq İslahatları Komissiyası bu sahə üzrə ixtisaslaşmış ekspertlərin iştirakı ilə müasir Avropa standartlarına cavab verən qanunvericilik aktlarının layihəsini hazırlayaraq milli qanunvericiliyin qabaqcıl ölkələrin təcrübəsinə əsaslanan səviyyəyə çatmasına nail olmuşdur. İnsan hüquqları və azadlıqları sahəsində o dövrdə qəbul edilmiş aktlar sırasında Ümummilli Lider Heydər Əliyevin 22 fevral 1998-ci ildə imzaladığı "İnsan və vətəndaş hüquqlarının və azadlıqlarının təmin edilməsi sahəsində tədbirlər haqqında" fərmanı və 1998-ci il 18 iyun tarixli sərəncamı ilə təsdiq edilmiş "İnsan hüquqlarının müdafiəsinə dair Dövlət Proqramı" mühüm yer tutur. Konstitusiyada ümumdövlət əhəmiyyətli məsələ səviyyəsinə qaldırılmış və milli hüquq sisteminin prioritet istiqamətinə çevrilmiş insan hüquqları məsələsi bu fərman və sərəncamlarla daha da genişləndirildi. O da qeyd edilməlidir ki, bir dövlət təsisatı kimi dövlətçilik tariximizdə ilk dəfə yaradılmış insan hüquqları üzrə müvəkkil (ombudsman) təsisatının formalaşdırılması ilk olaraq məhz adıçəkilən aktlarda nəzərdə tutulmuşdu. Qeyd etmək yerinə düşər ki, ilk dövlət proqramının qəbul olunduğu gün - 18 iyun dövlət başçısı İlham Əliyevin 2007-ci il tarixli müvafiq sərəncamına əsasən, Azərbaycan Respublikasında İnsan hüquqları günü elan edilmişdir.

Azərbaycan Respublikasının Avropaya inteqrasiya xəttinin xarici siyasi kurs kimi müəyyənləşdirilməsi də məhz Ümummilli Liderin siyasi idarəetməsinin vacib istiqaməti idi. Bu baxımdan mühüm beynəlxalq təşkilatlardan olan Avropa Şurasına üzv qəbul edildikdən sonra qanunvericilik sisteminin Avropa standartlarına uyğunlaşdırılması prosesində Milli Məclis tərəfindən qanunların qəbulu zamanı mühüm beynəlxalq çoxtərəfli müqavilələrdə, saziş və konvensiyalarda müəyyən edilmiş fundamental insan hüquq və azadlıqlarının əsas meyar kimi götürülməsi də hüquqi dövlət quruculuğu prosesində xüsusi yer tuturdu. "Məlumat azadlığı haqqında", "Uşaq hüquqları haqqında", "Azərbaycan Respublikasının insan hüquqları üzrə müvəkkili (ombudsman) haqqında", "Azərbaycan Respublikasında insan hüquq və azadlıqlarının həyata keçirilməsinin tənzimlənməsi haqqında", "Azərbaycan Respublikasının Seçki Məcəlləsi" və Azərbaycan Respublikasının bu qəbildən olan digər qanunları və konstitusiya qanunları bu fikrə nümunə kimi göstərilə bilər. Milli Məclis tərəfindən Birləşmiş Millətlər Təşkilatının "Qadınlara münasibətdə ayrı-seçkiliyin bütün formalarının ləğv olunması haqqında" Konvensiyasının, "Milli azlıqlara mənsub olan şəxslərin hüquqlarının təmin edilməsi haqqında" Konvensiyanın, "Müəlliflik hüququnun və əlaqəli hüquqların müdafiəsi sahəsində əməkdaşlıq haqqında" Sazişin, "Genosid cinayətinin qarşısının alınması və onun cəzalandırılması haqqında" Konvensiyanın, "Köləlik haqqında" Konvensiyanın, "İrqi ayrı-seçkiliyin bütün formalarının ləğv edilməsi haqqında" Beynəlxalq Konvensiyanın, "Milli azlıqların müdafiəsi haqqında Çərçivə Konvensiyası"nın, "İnsan hüquqlarının və əsas azadlıqların müdafiəsi haqqında" Konvensiyanın və onun protokollarının ratifikasiya edilməsi ilə beynəlxalq hüquqi aktların milli qanunvericiliyə implementasiyası prosesi də bu baxımdan xüsusi önəm daşıyırdı. Milli hüquqi mexanizmlərin təkmilləşdirilməsi, insan hüquqları sahəsində fəaliyyət göstərən beynəlxalq təsisatlarla əməkdaşlığın qurulması və inkişaf etdirilməsi, bu sahədə fəaliyyət göstərən beynəlxalq mərkəzlərdə tədqiqat və təhsil proqramları əsasında mütəxəssislərin hazırlanması, dövlət aparatında qulluq keçən dövlət qulluqçularının və ixtisaslaşmış kadrların müvafiq təcrübə mübadiləsi proqramlarına cəlb edilməsi amili də nəzərdən qaçırılmamalıdır. Çünki istənilən hüquqi dövlətdə dövlət aparatının funksiyalarının məhz kadr korpusu tərəfindən yerinə yetirildiyi amili xüsusi önəm kəsb edir. Ümummilli Liderin nəzərində həm Azərbaycan SSR dövründə, həm müstəqilliyin bərpasından sonrakı ilk onillikdə xüsusi istedadı olan gənclərin qabaqcıl xarici ölkə ali məktəblərində, təşkilatlarda təhsil və təcrübə proqramlarına cəlb edilməsi çox vacib məsələ idi. Təsadüfi deyil ki, həmin dövrdə təhsil almış gənc nəslin bir çoxu bu gün hüquqi dövlət quruculuğunun həyata keçirilməsi prosesinin iştirakçıları kimi müxtəlif dövlət orqanlarında qulluq keçməkdədirlər.

Müstəqil Azərbaycan Respublikasında hüquqi dövlət quruculuğu prosesinin növbəti vacib mərhələsi ədalətli və müstəqil məhkəmə sisteminin yaradılmasından ibarət olmuşdur. Məlumdur ki, hüquq filosofları tərəfindən irəli sürülmüş hakimiyyətlərin bölünməsi prinsipinin vacib tərkib hissəsi olan müstəqil məhkəmələr ədalətli cəmiyyət quruculuğu prosesinin əsas komponentlərindən biri kimi qəbul edilmişdir. Demokratik, hüquqi və dünyəvi dövlət quruculuğunun Azərbaycan Respublikası üçün ən düzgün siyasi xətt olduğunu hesab edən Ümummilli Lider ölkəmizdə müstəqil məhkəmə hakimiyyətinin formalaşdırılmasına müstəsna əhəmiyyət vermişdir. Təsadüfi deyildir ki, dünyanın bir çox aparıcı beynəlxalq təşkilatları, həmin təşkilatlar çərçivəsində qəbul edilmiş çoxtərəfli beynəlxalq müqavilələr, sivil və demokratik dövlətlərin konstitusiyaları, elmi ədəbiyyatlar müstəqil məhkəmə sisteminin mövcudluğunu ədalətin əsas təminatçısı, hüquqi dövlətdə ən vacib institut kimi xarakterizə etmişdir. Bu baxımdan Ulu Öndər Heydər Əliyevin təşəbbüsü ilə 1997-ci ildə "Məhkəmələr və hakimlər haqqında" Azərbaycan Respublikası Qanununun qəbul edilməsi xüsusi önəm daşıyır ki, bu qanunla milli hüquq sistemində məhkəmələrin yerinin Konstitusiyanın müddəalarına uyğun olaraq müəyyən edilməsi və formalaşdırılması prosesinə start verildi. Bu qanunun ardınca Azərbaycan Respublikası Prezidentinin həmin qanundan irəli gələn məsələlərin tətbiqi və məhkəmə islahatlarının həyata keçirilməsi məsələləri ilə bağlı proqram xarakterli fərmanı ilə respublikada məhkəmə quruluşunun və məhkəmə qərarlarının icrası prosesinin müasir modelinin formalaşdırılmasına başlanıldı. Vətəndaşların Konstitusiyada və digər aktlarda müəyyən edilmiş hüquq və azadlıqlarının təmini baxımından xüsusi önəm daşıyan ədalət mühakiməsinin əlçatanlığı və müstəqilliyi hüquqi dövlət quruculuğu prosesinin ən vacib mərhələlərindən biri kimi qiymətləndirilməlidir ki, görülmüş bütün bu işlərin və həyata keçirilmiş əsaslı məhkəmə-hüquq islahatlarının nəticəsində keçmiş Sovet İttifaqından qalma məhkəmə sistemi demək olar ki, tamamilə aradan qaldırıldı, yeni və qabaqcıl inkişaf etmiş ölkələrin təcrübəsinə söykənən üçpilləli müstəqil məhkəmə hakimiyyəti sistemi yaradıldı, hakim korpusunun demokratik əsaslarla formalaşdırılması prosesi sürətləndirildi. O da xüsusi qeyd edilməlidir ki, müstəqil məhkəmə sisteminin formalaşdırılması işində Məhkəmə-Hüquq Şurasının təsis edilməsi amili də mühüm rol oynamışdır. Öz fəaliyyətini şəffaflıq prinsipi əsasında quran şuranın fəaliyyəti əsasında hakim heyətinin müsabiqə əsasında formalaşdırılması bu baxımdan da xüsusi önəm kəsb edirdi. Sadalanan bu işlərin fonunda proses sonrakı mərhələdə "Polis haqqında", "Prokurorluq haqqında" və digər sahəvi qanunvericilik aktlarının qəbul edilməsi ilə davam etdirildi. Göründüyü kimi, Ümummilli Lider Heydər Əliyevin rəhbərliyi ilə hüquqi dövlət quruculuğu prosesi çərçivəsində demək olar ki, dövlət hakimiyyətinin bütün qollarında əsaslı islahatlar aparıldı, idarəetmə sisteminin bütün istiqamətlərinin inkişafı üzrə tarixi əhəmiyyət kəsb edən qərarlar qəbul olundu, Azərbaycan xalqının dövlətçilik tarixində köklü və mütərəqqi işlər görüldü. Məhz Ümummilli Liderin təməlini qoyduğu və yuxarıda sadalanan həmin islahatların məntiqi nəticəsidir ki, müasir Azərbaycan Respublikasının inkişafı davamlı prosesə çevrilmişdir. Əminliklə deyə bilərik ki, bu siyasi və hüquqi islahatlar bu gün ölkə Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə uğurla davam etdirilir. Tarixi faktların ədalətli təhlili göstərir ki, xalqın təkidli tələbi ilə hakimiyyətə qayıdışın ilk illərində ölkədə xaos, özbaşınalıq, separatizm, silahlı qruplaşmalar, başıpozuq dəstələr mövcud idisə, bu gün Azərbaycan Respublikası ölkə Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə dünya siyasi arenalarında söz sahibi olan, tam müstəqil siyasət yürüdən, iqtisadi cəhətdən qüdrətli, təhlükəsiz və stabil bir dövlətdir.

Yaşadığımız dünyada elmi texniki tərəqqi, sənaye inqilabları, texnoloji yeniliklər xüsusilə 21-ci əsrdə elə sürətlə inkişaf edir ki, bu yeni çağırışlar dövlət quruculuğu və idarəetməsinə yeni konseptual baxışların ortaya qoyulmasını zəruri edir. Modernləşməkdə olan dövlətin fəaliyyətində səmərəliliyin daha da artırılmasına yönəlik yeni idarəetmə konsepsiyasının yaradılması bu sadalanan paradiqmadan çıxış etməyi tələb edir. Qeyd olunan amillər müasir dövlət idarəetməsi işində yeni bir eranın başlanğıcı kimi də qəbul edilə bilər. Rəqəmsal texnologiyanın sürətli inkişafı, internetin və kompüterləşmənin artması nəticə etibarilə dövlət-vətəndaş münasibətlərinə yeni müasir baxışların və sistemlərin ortaya qoyulmasını, milli qanunvericiliyin tərkib hissəsi olan normativ hüquqi aktların yenilənməsini də qaçılmaz edir. Bu baxımdan Milli Məclis tərəfindən bu münasibətləri yeni məcraya salan qanunların qəbul edilməsi, Azərbaycan Respublikasının Prezidenti tərəfindən bu qəbildən olan yeni fərman və sərəncamların imzalanması, müvafiq strategiyaların və dövlət proqramlarının qəbul edilməsi, elektron hökumət, elektron məhkəmə platformalarının yaradılması xüsusi vurğulanmalıdır və bütün bunlar Azərbaycan Respublikasında artıq müasir idarəetmənin həyata keçirilməsi kimi qiymətləndirilməlidir. Bu gün əminliklə deyə bilərik ki, dövlət orqanlarının fəaliyyətinin müasir tələblərə uyğun qurulması, onların fəaliyyətində müasir prinsip olan şəffaflığın rəhbər tutulması həm də elektron idarəetmənin tətbiqi əsasında təmin edilmişdir. Bu tətbiqetmələr nəticəsində dövlət orqanlarının fəaliyyət infrastrukturu təkmilləşdirilmiş, elektron xidmətlər bu fəaliyyətə inkorporasiya edilmiş, vətəndaşların dövlət idarəetməsinə və bu idarəetmədə iştiraka çıxış imkanları artırılmışdır. Ötən 30 ilin faktlarının təhlili göstərir ki, ölkəmizdə Ümummilli Lider tərəfindən aparılmış hüquqi islahatlar, düzgün dövlət quruculuğu prosesi və 2003-cü ildən başlayaraq bu islahatlar kursunun davamının təmin edilməsi olmasaydı, bu gün biz nə dünyadakı söz sahibliyimizdən, nə hərbi və iqtisadi gücdən, nə də ərazilərimizin işğaldan azad edilməsindən danışa bilərdik. Azərbaycan xalqından yüksək səs çoxluğu ilə mandat alaraq Prezident seçilən cənab İlham Əliyev Ümummilli Liderin hüquqi dövlət quruculuğu prosesini davam etdirməklə yanaşı, ölkənin iqtisadi qüdrətini yüksəltmək, paralel olaraq Ermənistanın dünya birliyi tərəfindən işğalçı ölkə kimi tanınmasına nail olmaq hədəfini seçdi. Əlbəttə, bu işlər bir neçə ayın, ya da ilin içində ərsəyə gəlmədi. 2003-cü ildən başlayan bu çətin yol 17 illik zəhmətdən sonra 2020-ci ildə öz zirvəsinə yüksəldi. Artıq dünya ictimaiyyəti Azərbaycan həqiqətlərini istəsə də, istəməsə də, qəbul etməyə başlamışdı, Ermənistanı isə işğalçı dövlət kimi qəbul edən ölkələrin sayı artmışdı. Ölkəmiz Avropanın enerji təhlükəsizliyinin təminatçısına çevrilmiş, ordu güclənmiş, müasir silah və sursatlarla təmin edilmiş, Ümummilli Lider tərəfindən əsası qoyulmuş hərbi ixtisaslı orta və ali məktəbləri bitirən zabit heyəti ordu sıralarında öz mövqelərini tutmuşdu. Bu işlərə paralel olaraq, beynəlxalq siyasi arenalarda qazandığımız uğurlar Azərbaycan Respublikası üçün siyasi üstünlüklər gətirmişdi. Onu da nəzərə almaq lazımdır ki, bu misilsiz işlər ərazisinin 20 faizi işğal altında olan, 1 milyondan çox qaçqın və məcburi köçkünün öz dədə-baba torpaqlarından zorla qovulduğu ölkədə görülmüşdür. Şübhəsiz ki, yuxarıda sadalanan işlərin mürəkkəb coğrafiyada yerləşən bir ölkədə belə ağır şərtlər altında aparılması ikiqat iradə və əzm tələb edirdi. Amma xalq-iqtidar birliyindən güc alan cənab İlham Əliyev tərəfindən görülmüş misilsiz işlər 17 ilə sığışdırıldı və o tarixi gün gəlib çatdı: "İlhamla irəli!" ilə başlayan seçki kampaniyası "Ali Baş Komandanla irəli!" komandasına çevrildi. Modernləşdirilmiş güclü Azərbaycan Ordusu Ali Baş Komandanın "Dəmir yumruq" əməliyyatına başladı. 44 rəqəmini tarix səhifələrinə 44 günlük Vətən müharibəsi kimi həkk edən Müzəffər Ali Baş Komandan və onun əsgər və zabitləri 1993-cü ildən başlanmış yolun çoxdan gözlənilən mənzilbaşına çatdı, torpaqlar 30 ilə yaxın həsrətdən sonra azad edildi. Birinci Qarabağ müharibəsində erməni vandalizmi nəticəsində yerləyeksan edilmiş Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarına daxil olan ərazilərimiz bu gün "ağıllı kənd", "ağıllı şəhər" konsepsiyası əsasında yenidən qurulur. Bu gün yenidənqurma işlərinin yüksək sürətlə və əzmlə həyata keçirilməsi, bütövləşən Azərbaycana yeni nəfəs, keçmiş məcburi köçkünlərə yeni yaşam həvəsi bəxş edir. Tezliklə öz doğma yurdlarına qayıdacaq soydaşlarımız və xalqımızın digər nümayəndələri 1993-cü ildə əsası qoyulmuş hüquqi dövlət quruculuğu prosesinin Müzəffər Ali Baş Komandan İlham Əliyev tərəfindən uğurla və daha böyük əzmlə davam etdirilməsinin məntiqi bəhrəsini görməkdədirlər. Bu gün tam əminliklə deyə bilərəm ki, qədim dövlətçilik tarixinə sahib olan azərbaycanlılar dahi şəxsiyyət Heydər Əliyevin misilsiz əməyi nəticəsində yaradılmış dövlətimizin - Azərbaycan Respublikasının hələ çox-çox illər sonra da bəhrəsini görəcək və Ulu Öndərin əvəzsiz xidmətlərinin nəticəsi olan rifah dövlətində sülh və əmin-amanlıq içində əbədi yaşayacaqlar.

**Ziyafət ƏSGƏROV,**
***Milli Məclisin Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsinin sədri***

# Qardaşlıq nümunəsi

## Azərbaycanla Türkiyə hərbi sənaye sahəsində də bərabər addımlayırlar







**Prezident İlham Əliyev aprelin 3-də Türkiyənin "Baykar" şirkətinin texniki direktoru Selçuk Bayraktarı qəbul edib. Görüş zamanı Azərbaycanla Türkiyə arasında dostluq və qardaşlıq münasibətləri, hərbi və müdafiə sənayesi istiqamətində uğurlu əməkdaşlıq müzakirə edilib.**

Həmçinin "Qızıl Alma" layihəsi ilə bağlı işlərin davam etdirilməsinin və əməkdaşlıq perspektivlərinin əhəmiyyəti vurğulanıb. Ötən gün isə Türkiyənin ilk yerli elektromobili "Togg" Prezident İlham Əliyevə təqdim olunub. Bütün bunlar Azərbaycan və Türkiyənin sarsılmaz dostluq və qardaşlıq münasibətlərindən xəbər verir.

### Qardaş dövlətlər uğurlarını da bir-biri ilə bölüşürlər

Milli Məclisin deputatı Anar İsgəndərov bildirib ki, aprelin 3-də dövlət başçısı İlham Əliyev Türkiyənin "Baykar" şirkətinin texniki direktoru Selçuk Bayraktarı qəbul edərkən çox maraqlı söhbət, fikir mübadiləsi aparılıb: "Prezident İlham Əliyev öncə Türkiyədə baş verən zəlzələ ilə bağlı qardaş xalqa bir daha başsağlığı verib, fəlakətdən sonra bu ölkəyə ayaq basan ilk dövlət başçısı kimi Ərdoğanla danışıqlarından bəhs edib. Eyni zamanda bütün Azərbaycan xalqının zəlzələ nəticəsində dəymiş ziyanı aradan qaldırmaq üçün əlindən gələni etdiyini bildirib. Selçuq Bayraktar Azərbaycana hər səfərində burada "bir millət, iki dövlət" nümayəndəsi kimi olduğunu və bundan qürur duyduğunu qeyd edib. Selçuk Bayraktar bizim üçün həm də ona görə əzizdir ki, 44 günlük Vətən savaşımızda Türkiyənin müdafiə və hərbi sənayesinin nə qədər inkişaf etdiyinin şahidi olduq. Bunun əyani nümunəsi kimi Azərbaycana təqdim edilən silahların uğurlu nəticələrini görmək olar. Görüşdə həm Azərbaycanın dövlət başçısı, həm də "Baykar" şirkətinin texniki direktoru bir daha bəyan etdilər ki, Azərbaycan və Türkiyə arasında hərbi sənayenin inkişafı və müştərək silah istehsalı gələcəkdə də davam etdiriləcək".

Deputatın sözlərinə görə, bütün bunlar onu göstərir ki, hər zaman olduğu kimi, Türkiyə Azərbaycanın, Azərbaycan da qardaş Türkiyənin yanındadır. 2021-ci il iyunun 15-də imzalanmış Şuşa Bəyannaməsi iki qardaş dövləti bir-birinə müttəfiq edib, daha da yaxınlaşdırıb. Türkiyənin dövlət başçısı Rəcəb Tayyib Ərdoğanın dediyi kimi, Azərbaycana atılan daş həm də Türkiyəyə atılan daşdır. Davamlı xarakter almış belə görüşlər də Azərbaycanla Türkiyə arasında əlaqələrin bütün sahələr üzrə inkişafından xəbər verir. Türkiyə istehsallı elektromobilin təntənəli surətdə Prezident İlham Əliyevə təqdim olunması da iki dövlət arasında təkcə hərbi-siyasi, eləcə də iqtisadi sahələrdə deyil, digər istiqamətlərdə də yaxın münasibətin olduğunu sübut edir. Azərbaycan və Türkiyə istənilən sahədə əldə etdikləri uğurları bir-birləri ilə bölüşməkdən məmnundurlar".

### "Qızıl alma" ölkəmizin müdafiə qabiliyyətini daha da artıracaq

Milli Məclisin deputatı Elşad Mirbəşiroğlu bildirib ki, qardaş Türkiyə ilə Azərbaycan arasında sıx hərbi-texniki əməkdaşlıq mövcuddur: "Digər sahələrlə yanaşı, bu istiqamətdə də dinamik inkişaf var. Vətən müharibəsi dövründə Türkiyə istehsalı olan pilotsuz uçuş aparatlarının təsirli rolu isə, sözsüz ki, danılmazdır. Bu baxımdan sözügedən istiqamətdə əməkdaşlığın davam etdirilməsi dövlətimizin marağı dairəsindədir. Selçuk Bayraktarın da qeyd etdiyi kimi, hazırda "Qızıl alma" layihəsi üzərində iş gedir. Bu, Türkiyənin yeni nəsil silah istehsalı istiqamətində mühüm uğurlarından biridir. Nəzərə almaq lazımdır ki, Türkiyə hərbi sənayesinin inkişafı ölkəmizin də mövqelərini və müdafiə qabiliyyətini əhəmiyyətli dərəcədə artırır. Aprelin 3-də Prezident İlham Əliyevlə Selçuk Bayraktar arasında baş tutan görüş həm də bu baxımdan olduqca əhəmiyyətlidir".

### Geosiyasi vəziyyət ordumuzun ən son hərbi-texnoloji avadanlıqlarla silahlanmasını zəruri edir

Milli Məclisin deputatı Tural Gəncəliyev qeyd edib ki, Azərbaycan və Türkiyə arasında hərbi əməkdaşlıq münasibətləri getdikcə dərinləşir: "Sevindirici haldır ki, Türkiyənin ən son hərbi-texnoloji üstünlüklərə yiyələnməsi əsas strateji müttəfiqi olan Azərbaycanın da mövqelərinə müsbət təsir göstərir. Selçuk Bayraktarın rəhbərlik etdiyi "Baykar" şirkəti dünyada yeni trend məhsulların istehsalçısına çevrilib. Bu şirkətin hər hansı yeni texnoloji ideyası bütün dünyada böyük maraqla qarşılanır. Həmin məhsulların satıldığı ilk ölkə də məhz Azərbaycan olur. Sonuncu görüşdə də üzərində iş aparılan "Qızıl alma" layihəsi, eləcə də digər yeni nəsil dronların istehsalı barədə məsələlər müzakirə edilib. Tezliklə bu məhsullar Türkiyənin və Azərbaycanın silahlı qüvvələrinin hərbi bazalarında yerləşdiriləcək"

Deputatın dediyinə görə, Azərbaycan elə bir coğrafi məkanda yerləşir ki, geosiyasi vəziyyət ölkəmizin Silahlı Qüvvələrini yalnız ənənəvi üsullarla deyil, həm də dünyanın ən son hərbi-texnoloji silahları ilə silahlanmasını zəruri edir: "Bu gün dronlar müharibələrin fəlsəfəsini, taktiki, texniki xüsusiyyətlərini, metodlarını fundamental şəkildə dəyişib. Müharibə zamanı səmaya nəzarət etmədən, səmada söz sahibi olmadan quruda hansısa şəkildə üstünlük əldə etmək mümkün deyil. Ona görə də Azərbaycanın Türkiyə ilə bu sahədə əməkdaşlığı hər iki ölkənin xeyrinədir. Həm də Azərbaycan təkcə istehlakçı deyil, ölkəmiz istehsal prosesinə də mühüm töhfələr verir".

T.Gəncəliyev bildirib ki, Azərbaycan dünyada mövcud olan ən son hərbi-texnoloji silahlara sahibdir, bundan sonra da sahib olacaq: "Ona görə də heç kim ölkəmizin suverenliyinə, milli maraqlarına zidd addımlar atmamalı, ədalətsiz davranmamalıdır. Xüsusilə son zamanlar regionda yaranan gərgin geosiyasi vəziyyət, qonşularımız İran və Ermənistan, eləcə də düşmən münasibətini davam etdirən Fransa kimi ölkələrin Azərbaycana qarşı yürütdükləri siyasət bizi hərbi təhlükəsizilik məsələlərində daim ehtiyatlı olmağa vadar edir. Odur ki, Azərbaycanın Türkiyə ilə hərbi sahədə əməkdaşlığı bu baxımdan da xüsusi məmnunluq yaradır".

*Nəzrin QARDAŞXANOVA, "Azərbaycan"*

# Təxribatçıların bütün yolları bağlanıb

## Qarabağ və Şərqi Zəngəzurdakı strateji əhəmiyyətli ərazilər Azərbaycan Ordusunun nəzarətindədir

Şanlı zəfərimizdən sonra regionda sülhün bərqərar olmasını, Azərbaycanın söz sahibinə çevrilməsini gözü götürməyənlər çoxdur. Elə həmin qüvvələr ermənilərin xislətini bildiklərindən onların vasitəsilə Cənubi Qafqazda təhlükəsizliyin təmin olunmasının qarşısını hər vəchlə almağa çalışırlar. İkinci Qarabağ müharibəsindən sonra da Hayastana dəstək verərək, onların silah-sursat daşımasına yardımçı olmaqla qanunsuz erməni birləşmələrinin Azərbaycan ərazilərində təxribatlar törətmələrinə şərait yaradırlar.





Mart ayından erməni separatçılarının təxribatları yenidən intensivləşib. Bununla yanaşı, Ermənistandan Rusiya sülhməramlı kontingentinin müvəqqəti yerləşdiyi Azərbaycan ərazisindəki qeyri-qanuni erməni silahlı dəstələri üçün canlı qüvvə, silah-sursat, mina, eləcə də digər hərbi təyinatlı vasitələrin daşınması və Xankəndi-Xəlfəli-Turşsu və bu marşrutdan şimalda keçən Xankəndi-Kosalar-Mirzələr-Turşsu yollarında ermənilər tərəfindən qeyri-qanuni tikinti və təkmilləşdirmə işlərinin intensivləşməsi halları müşahidə olunurdu. Azərbaycan tərəfi bununla bağlı dəfələrlə müraciət etsə də, heç bir zəruri tədbir görülmədi.

Beləliklə, yaranmış vəziyyət nəzərə alınaraq Laçın yolunun şimalındakı torpaq yollarından qeyri-qanuni fəaliyyətlər üçün istifadənin, eləcə də potensial təxribatların törədilməsinin qarşısının alınması məqsədilə ordumuz tərəfindən lokal zəruri nəzarət tədbirləri həyata keçirildi. Nəticədə Laçın rayonunun Cağazur və Zabux kəndləri arasında yerləşən bir neçə hakim yüksəklik, əsas və yardımçı yollar, Şuşanın Allahqulular və Zamanpəyəsi kəndləri, eləcə də sərhədboyu geniş sahələr nəzarətə götürüldü.

Əslində, 44 günlük Vətən müharibəsindən dərs çıxarmalı olan Hayastan anlamalıdır ki, onların sülh müqaviləsi imzalamaqdan başqa yolu yoxdur. Bununla belə Hayastan daim havadarlarına arxalanaraq təxribatlara əl atır, danışıqları gecikdirmək üçün əlindən gələni edir. Hər dəfə isə layiqli cavabını alır, Azərbaycan Ordusunun gücünün, qüdrətinin bir daha şahidi olur.

### Şuşanın kəndlərinin və digər məntəqələrin nəzarətə keçməsi böyük uğurdur

Milli Məclisin deputatı, Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsinin üzvü Arzu Nağıyev qəzetimizə açıqlamasında deyib ki, son vaxtlar işğaldan azad olunmuş ərazilərdə məhz erməni separatçılarının Rusiya sülhməramlı qüvvələri ilə birgə qanunsuz hərəkətlərinin qarşısı alınmalıdır. Böyük qayıdışın tam həll olunması üçün ən mühüm məsələlərdən biri təhlükəsizliyin təmin edilməsidir.

Onun sözlərinə görə, qayıdış baş tutandan sonra orada yaşayacaq əhalinin hər hansı təhlükə ilə təhdidinin tam şəkildə qarşısının alınması üçün ciddi addımlar atılmalıdır. Deputat qeyd edib ki, bunun ən mühümü məhz kommunikasiyalara, ərazidə olan nəqliyyat yollarına, eyni zamanda Ermənistandan Azərbaycana gələn yola mütləq şəkildə nəzarət etməkdir: "Strateji əhəmiyyətli yüksəklikləri daim nəzarətdə saxlamaq, Azərbaycan Ordusunun mövqelərini möhkəmləndirmək qarşıya qoyulan ən ciddi tələblərdən biridir. Buna görə də istər Şuşanın, istərsə də digər ərazilərin nəzarətdə saxlanması mühüm məsələdir və böyük nailiyyətlərdir".

Həmin ərazilərdə dinc quruculuq işləri, kommunikasiyaların bərpası prosesi getdiyini vurğulayan Arzu Nağıyev sülhün bərqərar olmasını istəməyən qüvvələrin olduğunu bildirib. Separatçılar öz havadarları vasitəsilə cidd-cəhdlə sülh müqaviləsinin imzalanmasına qarşı çıxır, danışıqlardan yayınırlar.

Deputat düşünür ki, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə qarşıya qoyulan məsələlərin həllinə nail olunacaq. "Buna çatmağın ən mühüm istiqamətlərindən biri də strateji əhəmiyyətli məntəqələrin nəzarətə götürülməsi və qanunsuz fəaliyyət göstərən erməni separatçılarının, eyni zamanda hərbi birləşmələrin Azərbaycan ərazilərindən çıxarılmasıdır. Həm Şuşanın iki kəndinə, həm də son vaxtlar digər istiqamətlərdə yüksəkliklərə, yollara nəzarətin bərpası böyük nailiyyətdir. Bu istiqamətdə fəaliyyət davam etdiriləcək", - deyə A.Nağıyev bildirib.

### Bir sıra strateji əhəmiyyətli yüksəkliklərin nəzarətə götürülməsi hələ başlanğıcdır

Hərbi ekspert Alp Arslan İmamqulu qeyd edib ki, bir sıra strateji əhəmiyyətli yüksəkliklərin nəzarətə götürülməsi hələ başlanğıcdır. O vurğulayıb ki, bu gün şərti sərhədlərimizdə hələ də Ermənistan və himayədarlarının birgə oyunları baş verməkdədir. Bu nəzərə alınmalıdır: "Azərbaycanın məqsədi, niyyəti məlumdur. Biz daim sülh tərəfdarı olmuşuq. Bu səbəbdən şərti sərhədlərimizdə tez bir zamanda delimitasiya və demarkasiya işlərinin yekunlaşması, sülh müqaviləsinin imzalanması, xüsusən də Xankəndidə yaşayan erməni əhalinin Azərbaycan vətəndaşlığına qəbul olunması istiqamətində gərəkli işlər görülməkdədir".

Ekspert bildirib ki, bütün bunları görməzdən əvvəl müdafiə və təhlükəsizliyimizi təmin etmək üçün bir çox ərazilər, yüksəkliklər, qəsəbələr nəzarətimizə keçməlidir. Bu da əksər hallarda Rusiya sülhməramlı kontingentinin xidməti sahələrində olduğu üçün müəyyən qədər çətinlik yaradır.

Bütün bunlara baxmayaraq, Azərbaycan Ordusunun çətin olanı daim bacardığını qeyd edən Alp Arslan İmamqulu düşünür ki, növbəti əməliyyatlarda da bir çox strateji əhəmiyyətli ərazilər Azərbaycan Ordusunun nəzarətinə keçəcək.

*Əsmər QARDAŞXANOVA, "Azərbaycan"*

# Zəfərin qətiyyətli davamı

## Ordumuz lokal tədbirlərlə Qarabağda mühüm yüksəkliklərə və bir neçə kəndə nəzarəti təmin edib

"Bu gün biz Azərbaycan-Ermənistan sərhədi istiqamətində çox əlverişli mövqelərə sahib olmuşuq və bu mövqelərdə özümüzü gücləndiririk, bu mövqelərdə qalacağıq".

Martın 28-də Prezident İlham Əliyev Məsim Məmmədovu Prezidentin Şərqi Zəngəzur iqtisadi rayonuna daxil olan Laçın rayonunda xüsusi nümayəndəsi təyin olunması ilə əlaqədar qəbul etdiyi zaman səsləndirdiyi kimi, Azərbaycan öz suveren ərazilərində milli maraqlarını qətiyyətlə təmin edir, erməni separatçılarının torpaqlarımızda özbaşınalıq etmələrinə imkan vermir.

Elə martın 25-də Azərbaycan Ordusunun hərbi əməliyyat keçirərək bir sıra strateji yüksəkliklərə, Xankəndi-Xəlfəli-Turşsu yoluna və Şuşanın iki kəndinə nəzarəti ələ alması da buna əyani sübut, prinsipial mövqeyimizin tömininin göstəricisidir. Bu eyni zamanda son dövrlər Laçın yoluna paralel olan torpaq yollardan istifadə edərək ölkəmizə qarşı hərbi təxribatlar törədən separatçıların sözün əsl mənasında yollarının, əl-qollarının bağlanması istiqamətində atılan mühüm addımdır.

### Şuşanın Allahqulular və Zamanpəyəsi kəndləri də ordumuzun nəzarəti altındadır

Xatırladaq ki, martın 25-də Azərbaycan Ordusunun yuxarıda sözügedən yola nəzarəti ələ aldığı ilə bağlı məlumat yayan Müdafiə Nazirliyi bildirib, ki, Xankəndi-Xəlfəli-Turşsu və bu marşrutdan şimala keçən Xankəndi-Kosalar-Mirzələr-Turşsu yollarında ermənilər tərəfindən qeyri-qanuni tikinti və təkmilləşdirmə işlərinin intensivləşməsi Azərbaycan Ordusunun texniki müşahidə vasitələri ilə qeydə alınıb.

Yaranmış vəziyyət nəzərə alınaraq Laçın yolunun şimalındakı torpaq yollarından qeyri-qanuni fəaliyyətlər üçün istifadənin, eləcə də Ermənistan tərəfindən silah-sursat daşımaqla vəziyyətin gərginləşməsinin və potensial təxribatların törədilməsinin qarşısının alınması məqsədilə Azərbaycan Ordusunun bölmələri tərəfindən lokal zəruri nəzarət tədbirləri həyata keçirilib.

Həmin tarixdə ordumuzun keçirdiyi əməliyyat nəticəsində bir sıra yüksəkliklər, ətraf ərazilər, eyni zamanda Şuşa rayonunun Allahqulular və Zamanpəyəsi kəndləri Azərbaycan Ordusunun nəzarəti altındadır.

Göründüyü kimi, Azərbaycan Ordusu xalqımızın, ölkəmizin təhlükəsizliyi üçün çox vacib bir əməliyyat keçirib, ən əsası da, bunu hüquqi əsaslara dayanaraq yerinə yetirib və suveren ərazilərimizi nəzarətinə götürüb.



### Son dövrlər Hayastanın təxribatları intensivləşmişdi

Vətən müharibəsindən ötən iki il yarımlıq müddətdə Hayastan 10 noyabr üçtərəfli Bəyanatı ilə üzərinə götürdüyü öhdəlikləri yerinə yetirməyib. Haylar bəyanatın müddəalarını kobud şəkildə pozaraq Qarabağda fəaliyyət göstərən qanunsuz erməni hərbi birləşmələrini ərazilərimizdən çıxarmayıb. Bununla da kifayətlənməyərək, yalnız humanitar məqsədlər üçün nəzərdə tutulan Laçın yolundan hərbi təyinatlı yüklər daşıyaraq Qarabağdakı hərbi tör-töküntülərini silah-sursatla təmin edib ki, bu da onların Azərbaycana qarşı təxribatlarına birbaşa yol açıb. Bu təxribatçı əməllərə Vətən müharibəsindən sonra ərazilərimizdə aşkarlanan 2021-ci il Hayastan istehsallı minalar bariz dəlillərdəndir.

Hayastanın xüsusilə də məramı sülh olmayan Avropa İttifaqının sülh missiyasını Azərbaycanın icazəsi olmadan sərhədlərimizə gətirib yığmasından sonra ölkəmizə qarşı intensivləşən təxribatları isə gözdən qaçmayıb. Belə ki, bu missiyanın gəlişindən sonra dövlət sərhədi boyu və Rusiya sülhməramlılarının müvəqqəti yerləşdirildiyi Azərbaycan ərazilərində Hayastan silahlı qüvvələri və qanunsuz erməni hərbi birləşmələri tərəfindən atəşkəs mütəmadi şəkildə pozulur. Xatırladaq ki, martın 5-də qeyri-qanuni erməni birləşmələrinin törətdikləri təxribat nəticəsində 2 hərbi qulluqçumuz şəhid olub, eləcə də martın 20-də Azərbaycan-Ermənistan dövlət sərhədinin Zəngilan rayonu ərazisindən keçən hissəsində Hayastanın törətdiyi təxribat nəticəsində Dövlət Sərhəd Xidmətinin hərbi qulluqçusu yaralanıb.

Onu da qeyd edək ki, ötən il dekabrın 12-dən ekofəallarımız Laçın-Xankəndi yolunda Qarabağ iqtisadi rayonunda separatçılar tərəfindən sərvətlərimizin istismarı və talanmasına, bu yoldan hərbi məqsədlərlə istifadəyə qarşı dinc etiraz aksiyası keçirirlər. Milli qətiyyətimizin rəmzi olan bu aksiya sayəsində bir sıra nailiyyətlərə də nail olmuşuq ki, bunlardan biri də Laçın-Xankəndi yolundan Hayastan tərəfindən hərbi təyinatlı yüklərin daşınmasına son qoyulmasıdır. Bundan dərs çıxarmayan Hayastan son zamanlar Laçın yoluna paralel olan torpaq yollarla Rusiya sülhməramlılarının müvəqqəti yerləşdiyi Qarabağ iqtisadi zonasına gizli şəkildə silah-sursat, canlı qüvvə daşımağa davam edirdi.

Bu qanunsuz və təhlükəli hal isə bir daha Azərbaycanın Laçın yolunun son nöqtəsində sərhəd-keçid məntəqəsinin yaradılmasını vacib edir.

### Azərbaycan sülh gündəliyinə sadiqdir

Azərbaycan 44 günlük müharibədən dərhal sonra Cənubi Qafqazda dayanıqlı sülhə nail olunması üçün Hayastana təkmil sülh modeli təklif edib və bununla bağlı Prezident İlham Əliyev dəfələrlə bəyan edib ki, ölkəmiz sülh gündəliyinə sadiqdir. 2020-ci il 10 noyabr üçtərəfli Bəyanatı ilə üzərinə götürdüyü öhdəlikləri zamanından öncə yerinə yetirməsi də Azərbaycanın sülhə tərəfdar olduğunu göstərir. Buna Laçın yolunun tez bir zamanda tikilərək istifadəyə verilməsi bariz nümunədir.

Təəssüf ki, iki ildən çox müddət keçməsinə baxmayaraq, Hayastan tərəfindən sülhə nail olunması istiqamətində hansısa konkret addım atılmayıb, əksinə, sülhü pozan davranışlar sərgilənib.

Lakin Azərbaycan heç bir halda Hayastanın ölkəmizə qarşı təxribatlar törətməsinə, gizli yollarla Qarabağdakı separatçılara silah-sursat, canlı qüvvə daşımasına imkan verməyəcək.

Martın 25-də Azərbaycan Ordusunun bölmələri tərəfindən keçirilən lokal zəruri nəzarət tədbirləri də bir daha dövlətimizin milli maraqlarını qanuni yolla təmin etməsinin göstəricisidir.

Bu həm də Vətən müharibəsində qazandığımız parlaq zəfərin uğurlu və qürurlu davamıdır.

*Yasəmən MUSAYEVA, "Azərbaycan"*

# Düşənbədə Tacikistan-Azərbaycan İnvestisiya Forumu keçirilib

Azərbaycan Respublikasının İxracın və İnvestisiyaların Təşviqi Agentliyi - AZPROMO və Tacikistanın İnvestisiyalar və Dövlət Əmlakının İdarə Edilməsi üzrə Dövlət Komitəsinin birgə təşkilatçılığı ilə Düşənbədə Tacikistan-Azərbaycan İnvestisiya Forumu keçirilib.



İqtisadiyyat Nazirliyindən AZƏRTAC-a bildirilib ki, İnvestisiya Forumunda hər iki ölkədən enerji, kənd təsərrüfatı, qida sənayesi, İKT, maliyyə, turizm və əczaçılıq sahələrini təmsil edən 170-dən çox şirkət iştirak edib.

İnvestisiya Forumunda çıxış edən Dövlət Komitəsinin sədri Sadyi Kodirzod iki ölkə arasında iqtisadi-ticarət əməkdaşlığı barədə məlumat verib, biznes strukturlarının iştirakı ilə keçirilən işgüzar tədbirlərin Azərbaycan və Tacikistan sahibkarları arasında daha sıx əlaqələrin qurulması, əməkdaşlığın səmərəliliyinin artırılması üçün önəmini vurğulayıb.

Azərbaycanın iqtisadiyyat nazirinin müavini Sahib Məmmədov Azərbaycan və Tacikistan arasında münasibətlərin dərin tarixi və mədəni köklərə malik olduğunu, dövlət başçılarının müxtəlif formatlarda keçirdikləri görüşlərin, xalqlarımız arasındakı dostluq münasibətlərinin birgə əməkdaşlığımızın əsasını təşkil etdiyini vurğulayıb. Azərbaycanın Tacikistanla ikitərəfli iqtisadi əlaqələrin inkişafına önəm verdiyini qeyd edən Sahib Məmmədov deyib: "İki ölkə arasında sənaye, ticarət, kənd təsərrüfatı və digər sektorlarda əməkdaşlığın genişləndirilməsi əsas istiqamətlərdəndir. Azərbaycanın əlverişli biznes və investisiya mühiti bu potensialın reallaşdırılması üçün yeni imkanlar və geniş üfüqlər açır. Birgə təşəbbüslərin həyata keçirilməsində özəl sektorun fəallığı və işgüzar dialoqun genişləndirilməsi xüsusilə əhəmiyyətlidir".

Forumda AZPROMO-nun rəhbəri Yusif Abdullayev, Tacikistanın Ticarət və Sənaye Palatasının sədri Cumaxonzod Camşed, Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin (KOBİA) İdarə Heyətinin sədri Orxan Məmmədov, Tacikistanın sənaye və yeni texnologiyalar nazirinin müavini Aziz Nazar, İqtisadi Zonanın İnkişafı Agentliyinin (İZİA) İdarə Heyətinin sədrinin müavini Fuad Məhərrəmov, Tacikistanın energetika və su ehtiyatları nazirinin müavini Manuçehra Safarzoda, Ələt Azad İqtisadi Zonasının İdarə Heyətinin sədrinin müavini İsmayıl Manafov, Tacikistanın Turizm Komitəsinin sədri Kamoliddinzod Bahoddur və Azərbaycanın Dövlət Turizm Agentliyinin sədrinin müşaviri Kənan Quluzadə iqtisadiyyatın müvafiq sahələrində əlaqələrin genişləndirilməsi, hər iki ölkənin investisiya potensialı, biznes və investisiya mühiti barədə məlumat veriblər.

Forumda həmçinin Azərbaycan və Tacikistanın investisiya potensialı, icra olunan layihələr haqqında təqdimatlar nümayiş etdirilib.

Tədbir çərçivəsində Azərbaycan Sahibkarlar Konfederasiyası və Tacikistanın Ticarət və Sənaye Palatası arasında, "Azərbaycanda Qadın Sahibkarlığın İnkişafı Assosiasiyası" İctimai Birliyi və "Tacikistan İş Qadınlarının Milli Assosiasiyası" arasında, Azərbaycan Beynəlxalq Mədən Şirkəti və Tacikistanın Talco Management şirkəti arasında, eləcə də "AzərTürk Bank" və "Amonatbonk" arasında anlaşma memorandumları imzalanıb. Forum B2B görüşlərlə davam edib.

Səfər çərçivəsində iqtisadiyyat nazirinin müavini Sahib Məmmədov Tacikistanın iqtisadi inkişaf və ticarət nazirinin müavini Ahliddin Nuriddinzoda ilə görüşüb.

Görüşdə ölkələrimizin ikitərəfli iqtisadi əlaqələrinə birbaşa təsir göstərən trendlər müzakirə olunub, bu müstəvidə mövcud resurslardan və imkanlardan səmərəli istifadə edilməsinin vacibliyi vurğulanıb.

Tərəflər iqtisadi-ticarət əlaqələrinin əsas istiqamətlərinin müəyyənləşdirilməsi ətrafında fikir mübadiləsi aparıblar.

# Azərbaycan dövləti İrpendə akademik Zərifə Əliyeva adına 12 nömrəli orta məktəbi generatorla təmin edib

Azərbaycan dövləti İrpen şəhərində görkəmli elm xadimi, oftalmoloq-alim Zərifə Əliyeva adına 12 nömrəli tam orta məktəbə daha bir töhfə verib.



AZƏRTAC xəbər verir ki, elektrik enerjisi probleminin həlli məqsədilə Azərbaycan Prezidenti İlham Əliyevin göstərişi ilə "SOCAR Energy Ukraine" şirkəti orta məktəbi generatorla təmin edib.

Məktəbin direktoru Valentina Antonenko AZƏRTAC-a açıqlamasında orta məktəbə daim dəstək göstərən Azərbaycan dövlətinə, xüsusilə Prezident İlham Əliyevə təşəkkürünü bildirib: "Həmişə olduğu kimi, müharibə zamanı da Azərbaycan dövlətindən səmimi dostluq münasibəti görməkdəyik".

Qeyd edək ki, bundan öncə Prezident İlham Əliyevin göstərişi ilə "SOCAR Energy Ukraine" şirkəti Rusiya-Ukrayna müharibəsi zamanı İrpen şəhərində ciddi ziyan dəyən orta məktəbin təmirini üzərinə götürərək müvafiq işləri yeni tədris ilinə kimi başa çatdırıb. Təmir işləri zamanı orta məktəbin dam örtüyü tamamilə yenilənib, sinif otaqları təmir edilib, pəncərə çərçivələri dəyişdirilib, yeni istilik radiatorları quraşdırılıb, kosmetik işlər həyata keçirilib. Partlayışdan ən çox zərər çəkmiş idman zalı və bomba sığınacağı təmir edilib.

# Azərbaycan HHQ-nin aviasiya vasitələri təlim-məşq uçuşlarını davam etdirir

Cari ilin hazırlıq planına uyğun olaraq Azərbaycan Hərbi Hava Qüvvələrinin (HHQ) aviasiya vasitələri təlim-məşq uçuşlarını davam etdirir.



Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, bazalanma aerodromlarından gecə uçuşları icra edən aviasiya vasitələrinin ekipajları ərazinin qiymətləndirilməsi, hərəkət marşrutlarının öyrənilməsi və digər epizodlar üzrə müxtəlif tapşırıqları icra ediblər.

Uçuş heyətinin döyüş hazırlığının daha da artırılması məqsədilə keçirilən təlimdə qarşıya qoyulan tapşırıqlar müvəffəqiyyətlə yerinə yetirilib.

# Birləşmiş Ştatlara Azərbaycanın ticarət missiyası təşkil ediləcək



Birləşmiş Ştatlara Azərbaycanın ticarət missiyası təşkil ediləcək. İqtisadiyyat Nazirliyindən AZƏRTAC-a bildirilib ki, nazirin birinci müavini Elnur Əliyev ABŞ-nin ticarət katibinin qlobal bazarlar üzrə köməkçisi Arun Venkataramanla görüşündə ABŞ ilə iqtisadi-ticarət tərəfdaşlığının inkişafını qeyd edib.

Diqqətə çatdırılıb ki, iki ölkənin biznes dairələrinin iştirakı ilə ticarət missiyalarının və işgüzar görüşlərin keçirilməsi iqtisadi əlaqələrin şaxələndirilməsinə stimul verir. Elnur Əliyev Bakıda ABŞ-Azərbaycan "Yaşıl enerji" forumunun təşkilinin iki ölkə arasında investisiya qoyuluşlarının həcminin artırılması və bərpaolunan enerji sahəsində ABŞ təcrübəsinin tətbiqi baxımından əhəmiyyətinə toxunub. Azərbaycanın bu sahədə artıq dünyanın aparıcı şirkətləri ilə uğurlu əməkdaşlıq nümunələrinin olduğunu diqqətə çatdırıb.

Nazirin birinci müavini ölkəmizin təşəbbüskarı və iştirakçısı olduğu regional və qlobal əhəmiyyətli layihələr barədə danışıb. Qeyd edilib ki, enerji sahəsində ABŞ-lə uğurlu əməkdaşlığımız var. Bununla belə, iqtisadi-ticarət əlaqələrinin şaxələndirilməsi baxımından xüsusilə kənd təsərrüfatı, logistika, nou-hau və s. sahələrin böyük potensialı mövcuddur. Görüşdə ölkəmizin ABŞ üçün tranzit əhəmiyyəti vurğulanıb, Transxəzər Beynəlxalq Nəqliyyat Marşrutunun (Orta dəhliz) potensialının daha da genişləndirilməsi üçün birgə səylərin vacibliyi qeyd edilib.

Diqqətə çatdırılıb ki, ABŞ Azərbaycan iqtisadiyyatına 18 milyard dollardan çox investisiya yatırıb. ABŞ-Azərbaycan Ticarət Palatası investisiya əməkdaşlığının inkişafı, ikitərəfli işgüzar əlaqələrin qurulması üçün səmərəli mexanizmdir. Bu il Birləşmiş Ştatlara təşkili nəzərdə tutulan ticarət missiyası da biznes subyektləri arasında əlaqələrin dərinləşdirilməsinə xidmət edəcək.

Arun Venkataraman ABŞ şirkətlərinin Azərbaycanda həyata keçirilən layihələrdə iştirak etmək niyyətini ifadə edib, iqtisadi əlaqələrin genişləndirilməsi istiqamətləri barədə fikirlərini bölüşüb. Bunun üçün şirkətlər arasında işgüzar dialoqun intensivləşdirilməsinin vacibliyi vurğulanıb.

Görüşdə ticarət və investisiya əlaqələrinin təşviqi, enerji diversifikasiyası, texnologiyaların transferi, logistika, "yaşıl enerji" və rəqəmsal iqtisadiyyat sahələri üzrə əməkdaşlıq istiqamətləri müzakirə edilib.

# Dörd gün ərzində doğan Ümid Günəşi...

Aprelin 4-də Heydər Əliyev Sarayında Mədəniyyət Nazirliyi, Azərbaycan Gənclər Fondu və Mənəvi Dəyərlərin Təbliği Fondunun dəstəyi, Azərbaycan Televiziyasının media tərəfdaşlığı, "Böyük Qayıdış" Gənclər Təşkilatının və "Zəfər" Şəhid Ailələrinə Dəstək İctimai Birliyinin birgə təşkilatçılığı ilə Aprel döyüşlərinin növbəti ildönümünə həsr olunmuş "Ümid Günəşi" ədəbi-bədii gecəsi keçirilib.



Tədbirdə dövlət və hökumət rəsmiləri, Milli Məclisin deputatları, şəhid ailələri və qazilər, ziyalılar, gənclər təşkilatlarının təmsilçiləri, könüllü gənclər, ictimaiyyət və media nümayəndələri olmaqla iki minə yaxın şəxs iştirak edib.

AZƏRTAC xəbər verir ki, tədbirdə əvvəlcə Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib, ərazi bütövlüyümüz uğrunda canından keçən qəhrəmanların əziz xatirəsi birdəqiqəlik sükutla yad edilib.

Ədəbi-bədii gecədə çıxış edən Aprel döyüşləri şəhidi, "Murov qartalı" ləqəbli polkovnik-leytenant Raquf Orucovun həyat yoldaşı, "Zəfər" Şəhid Ailələrinə Dəstək İctimai Birliyinin sədri Sevinc Alıyevanın sözlərinə görə, Azərbaycan Ordusunun başlatdığı dördgünlük yol 44 günlük Vətən müharibəsinə qədər uzandı və Şuşada böyük Zəfərlə bitdi. Aprel döyüşləri qəhrəmanlarının açdığı cığır ilə irəliləyən oğullarımız onların missiyasını uğurla tamamlayaraq şanlı Qələbə qazandılar. Aprel döyüşləri şəhidləri ilə çiyin-çiyinə döyüşən hərbi qulluqçular, vaxtilə onlarla posta çıxan əsgərlər öz silahdaşlarının qisasını Vətən müharibəsində aldılar. Ərazi bütövlüyümüzü bərpa edərək şəhid ailələrinin yaralarına məlhəm oldular. Odur ki, əminliklə deyə bilərik ki, Zəfərin təməli Aprel döyüşləridir.

"Ənənəvi olaraq keçirdiyimiz belə tədbirləri gənclər təşkilatları ilə birgə təşkil edirik. Məqsədimiz yetişməkdə olan nəslin qəhrəmanları tanımaları, onların şərəfli həyat yolunu özlərinə nümunə götürmələridir. Aparılan təbliğat-təşviqat tədbirlərinin, dövlət gənclər siyasətinin bariz nümunəsidir ki, Azərbaycan gəncliyi 120 günə yaxındır Laçın-Xankəndi yolunda əsl iradə nümayiş etdirərək faydalı qazıntı yataqlarının qanunsuz istismarına qarşı haqlı etirazlarını bildirir. Heç təsadüfi deyil ki, onlar iradəni, əzmi şəhidlərimizdən, qazilərimizdən alıblar. Əminəm ki, gələn nəsillər bundan sonra da şəhidlərimizin izləri ilə gedəcək və Vətənə, millətə layiqli bir vətəndaş kimi yetişəcəklər", - deyə S.Alıyeva fikirlərinə yekun vurub.

İki övladını Vətənə fəda etmiş Ziba Əsgərova övladları ilə bağlı xatirələrini bölüşüb: "Övladlarımın hər ikisinin hərbçi olması həm onların, həm də mənim arzum idi. Çünki xalqımızın başına gətirilən faciələr, Xocalı hadisələri mənə o qədər pis təsir etmişdi ki, olanların qisasının alınmasını istəyirdim. Aprel döyüşləri başlayanda övladlarım - Nurlan Əsgərli və İntiqam Əsgərli Xüsusi Təyinatlı Qüvvələrin mənsubu kimi xidmət edirdilər. Hər ikisi Aprel döyüşlərində iştirak etdilər. Nurlan Aprel döyüşlərində şəhid oldu. Son nəfəsini qardaşının qollarında verən Nurlan gülümsəyərək "qardaş, kaş Şuşaya bayrağımız sancılandan sonra şəhid olaydım" deyib. O gündən İntiqam özünə qisas andı içmişdi. Ali Baş Komandanın əmrini gözləyirdi ki, həm Nurlanın, həm digər şəhid dostlarının, həm də amansızlıqla qətlə yetirilən qadınların, uşaqların, qocaların qisasını alsın. Vətən müharibəsi başlayanda, sadəcə, məndən halallıq istədi. Deyirdi ki, kənarda dünyamı dəyişsəm, rahat olmaram, şəhid olsam ruhum nigaran qalmaz. Hər zaman deyirdi ki, bizə nəsə olsa, dövlət əmanətlərimizə sahib çıxacaq. Müharibə vaxtı əlaqə saxlayanda belə ordumuz haqqında o qədər ürəkdolusu danışırdı ki, qalib gələcəyimizə inanırdım. Ona nə qədər desələr ki, çox irəli getmə, qardaşın da şəhiddir, ailən daha bir itkinin yükünü çəkə bilməz, heç kimə qulaq asmayıb. İntiqam noyabrın 9-da Şuşada şəhid oldu. O, həm Nurlanın qisasını aldı, həm də onun arzusunu yerinə yetirərək Şuşanı azad edənlər arasında oldu. İntiqamın şəhadətindən beş ay sonra oğlu dünyaya gəldi. Elə öz adını övladına verdik. O zaman gördüm ki, həqiqətən də İntiqam düz deyir, dövlətimiz, qədirbilən insanlar bizi yalnız qoymadılar. Hər iki övladım mənim üçün nağıl qəhrəmanıdır. Nurlanla da, İntiqamla da fəxr edirəm. Allah dövlətimizi, Ali Baş Komandan, Prezident İlham Əliyevi, ordumuzu qorusun. Şəhid anası olaraq ən böyük arzum budur ki, bayrağımız daim zirvələrdə dalğalansın".

Çıxışında qəhrəmanlığın irsən ötürülən məfhum olduğunu deyən "Böyük Qayıdış" Gənclər Təşkilatının İdarə Heyətinin üzvü, Aprel döyüşləri qazisi, Xüsusi Təyinatlı Qüvvələrin ehtiyatda olan baş leytenantı Əhliyyət Mehdiyev tarixboyu Azərbaycan oğullarının doğma yurd-yuvalarını yadelli işğalçılardan qoruduğunu, torpağın bir qarışını belə düşmənə güzəştə getməyərək canlarını fəda etdiklərini diqqətə çatdırıb: "Biz Azərbaycan gəncliyi 1988-1994-cü illərdə o çətin şəraitdə döyüşmüş Fred Asif, Şirin Mirzəyev, Allahverdi Bağırov, Əliyar Əliyev, Əlif Hacıyev kimi minlərlə qəhrəmanın övladları və davamçılarıyıq. 1994-cü il atəşkəsindən sonra dəfələrlə düşmənin təxribatlarına şahid olduq. Düşmənin təxribatları 2016-cı il aprelin 1-də pik həddə çatdı. Ermənilərin iriçaplı silahlar və ağır artilleriya ilə yaşayış məntəqələrini atəşə tutması nəticəsində dinc sakinlər arasında yaralanan və şəhid olanlar oldu. Ali Baş Komandanın əmri ilə sürətli əks-hücum əməliyyatı həyata keçirdik. Nəticədə Füzuli, Cəbrayıl və Ağdərə rayonları istiqamətində işğalda olan 2 min hektar torpaq azad edildi, minlərlə hektar ərazi Azərbaycan Ordusunun tam nəzarəti altına keçdi. İstər Lələtəpə yüksəkliyinin azad edilməsi, istərsə də Goranboy, Tərtər, Ağdərə istiqamətində Talış yüksəkliklərinin azad olunması böyük Zəfərin başlanğıcı oldu. Aprel döyüşləri nəticəsində Ermənistan ordusunun, komandanlığının və siyasi rəhbərliyinin iradəsini qırdıq. Dörd gün ərzində tam müharibə şəraitində öz gücümüzü sınadıq, müxtəlif illərdə yığdığımız təcrübələri tətbiq etdik. 2016-cı ilin Aprel döyüşlərindən sonra şahidi olduq ki, Ermənistan ordusunda yüksəkrütbəli zabitlər, generallar ordudan qovuldular, siyasi hakimiyyətdə dəyişikliklər oldu. Bizə bu Qələbəni bəxş edən, "ardımca" deməyi bacaran Raquf Orucov, Murad Mirzəyev, Polad Həşimov, Şükür Həmidov kimi qəhrəman komandirlərimiz, bizimlə çiyin-çiyinə döyüşən Pəncəli Teymurov, Ravil Novruzov, Elimdar Səfərov, Elvin Namazov, Elnur İsgəndərov kimi onlarla silahdaşımız olub. Heç şübhəsiz ki, Aprel döyüşlərinin də qəhrəmanı Azərbaycan əsgəri idi. Onlar Qarabağın üzünü görməsələr də, bütün mənəviyyatları ilə həmin torpaqlara bağlı idilər. Bizim Orxan, Nurlan, Müşfiq kimi 18-19 yaşında tarix yazan yüzlərlə qəhrəmanımız var. Dördgünlük döyüşlərdə qazanılan qələbəni 44 günlük Vətən müharibəsinin bələdçisi adlandıra bilərik. Aprel döyüşlərində dünya, xalq-ordu-iqtidar birliyinə, cəbhəyə yollanmaq üçün ayaqlanan minlərlə gəncin qorxmazlığına, heç zaman işğalla barışmayacağımıza şahid oldu. Həm Aprel, həm Tovuz döyüşlərində, həm də 44 günlük Vətən müharibəsində Azərbaycan gəncliyi böyük qəhrəmanlıq nümunələri göstərdi. 44 gün ərzində Azərbaycan Ordusunun misilsiz şücaət, əzm göstərərək əldə etdiyi möhtəşəm Zəfər isə Ermənistan ordusunun onurğa sütununu sındırdı. Azərbaycan döyüş meydanında əldə etdiyi uğura siyasi qələbə də əlavə etdi. Belə ki, Ermənistan imza atmalı olduğu kapitulyasiya aktı ilə Kəlbəcər, Laçın və Ağdam kimi böyük və strateji rayonları döyüşsüz qaytarmağa məcbur oldu. Biz bu gün Qalib xalqın nümayəndələriyik. Azad edilən torpaqlarda mərhələli şəkildə quruculuq işləri aparılır, doğma məkanlarımıza mərhələli şəkildə qayıdırıq. Hər birimiz Böyük qayıdışla milli birliyimizə, milli kimliyimizə, milli şüurumuza qayıdırıq. Bütün bunlara görə qəhrəman şəhidlərimizə, qazilərimizə borcluyuq. Gənclərə vətənpərvərlik ruhunun, milli-mənəvi dəyərlərimizin aşılanması üçün hər birimiz Qələbəmizin memarları olan şəhidlərimizin həyat və döyüş yolunu təbliğ etməli, onları unutmamalıyıq. Əminəm ki, qədirbilən xalqımız, yetişən gənclik öz qəhrəmanlarını əsrlərboyu yaşadacaq".

Tədbir bədii hissə ilə davam edib. Tanınmış incəsənət xadimlərinin və istedadlı gənclərin ifasında musiqi nömrələri səsləndirilib, "Ümid Günəşi" bədii kompozisiyası nümayiş etdirilib.

Həmçinin şəhid övladları "Qəhrəman övladıyıq" mahnısını ifa ediblər.

## Azərbaycan rəsmi Tehrandan törətdiyi terrora görə cavab gözləyir

# Fars-molla rejiminin unutduğu həqiqət

Tarix yalnız keçmiş zaman deyil, həm də bu gündür. Keçən hər an dəqiqələrə, saatlara, günlərə, aylara, illərə qovuşur. Beləcə, indimiz tarixə çevirilir. Hər bir dövrün qərinələr, əsrlər sonra necə xatırlanacağının, haqqında nələr deyiləcəyinin və yazılacağının məsuliyyəti isə müasirlərinin üzərinə düşür. Bu mənada, fərdlər, xalqlar, dövlətlər yalnız ölkəsinin bu günlərinə yox, həm də sabahına cavabdehdirlər. Elə etməlidirlər ki, gələcək nəsillər onları əməllərinə görə qınamasın, lənətləməsinlər.






### Terrorçunun, zalımın yanında olanları necə adlandıraq?..

Görünən budur ki, tarixi ilə öyünən İran bu həqiqəti unudub. Yaddan çıxarıb ki, bu gün maraqlarına yenilməklə, özü öz tarixi qarşısında məğlub olacaq. Onsuz da artıq uzun illərdir ki, tarixinə qara səhifələr yazıb. Hələ XX əsrin son onilliyində, sovet ittifaqının süquta uğradıqdan sonra ən yaxın qonşusu və din qardaşı olan Azərbaycanın müstəqilliyinə nail olmasına sevinməməklə, əslində fars-molla rejimi özünün əsl simasını, xislətini göstərdi. Suveren dövlət olaraq ilk addımlarını atan, ilk qərarlarını verən Azərbaycan həmin dövrdə çox çətin günlərini yaşayırdı. Problemi təkcə iqtisadi böhranın məngənəsində qalması da deyildi. Respublikamızın azad olmasını istəməyənlər onu ağır vəziyyətə salmışdılar. Minlərlə azərbaycanlı dədə-babalarının əzəli yurd yerlərindən - Qərbi Azərbaycandan silah gücü ilə qovulmuşdular. Qərbi azərbaycanlılar erməni cəlladları tərəfindən qətlə yetirilən doğmalarının dərdlərini gətirmişdilər özləri ilə. Evləri təcavüzkarlar tərəfindən əllərindən alınmış, mal-dövlətləri yağmalanmışdı.

Azərbaycanın Qarabağ və Şərqi Zəngəzur ərazilərində də quldur ermənilər təxribatlar törədir, əllərinə keçən azərbaycanlıları dəhşətli əzablarla öldürürdülər. Körpələrə, qocalara, şikəstlərə, hamilə qadınlara belə acımır, kimsəyə aman vermirdilər.

İran öz tarixinə ən böyük ləkəni həmin illərdə vurdu. Adının yanında İslam Respublikası yazılmasına baxmayaraq, dinin qaydalarına əməl etmədi. Haqsızlığın, ədalətsizliyin qarşısında susmaq islam dininə görə günah sayılır. Fars-molla rejimi isə o zaman nəinki sərhədlərinin bu üzündə azərbaycanlılara işgəncələr verilməsinə, qırğınlara, soyqırımılara məruz qalmalarına səsini çıxarmadı, insanlığını tamamilə itirmiş, quduzlaşmış ermənilərin güclənməsi üçün əllindən gələn yardımı etdi.

Azərbaycanlıların tarixən qorxaq kimi tanıdıqları erməni quldurları havadarlarından aldıqları o zamanın müasir silahları, hərbi texniki avadanlıqları, eləcə də ərzaq və digər yardımlarla özlərini yenilməz saydılar. Və bu gücdən, bu qüvvədən azərbaycanlıları məhv etmək üçün istifadə etdilər. Silahlanmış ermənilər Azərbaycanın Qarabağ və Şərqi Zəngəzur ərazilərində kəndləri, qəsəbələri, rayonları, şəhərləri odlara qaladılar. Minlərlə azərbaycanlını əzab-əziyyət verərək qətlə yetirdilər, meyitlərinə belə işgəncə verməkdən çəkinmədilər. Əsir və girov götürdükləri azərbaycanlıları elə günə qoydular ki, ölənlərə həsəd apardılar. Fars-molla hökuməti bunları bilə-bilə, görə-görə həmin ermənilərdən kömək əlini çəkmədi.

Azərbaycan torpaqlarının iyirmi faizi 1990-cı illərdə işğal olundu. Həmin ərazilərdə - Qarabağ və Şərqi Zəngəzur torpaqlarında Hayastan silahlı qüvvələrinin mövqelərinin möhkəmləndirilməsində də fars-molla rejiminin böyük xidmətləri olduğu bütün dünyaya bəlli idi. Elə həmin yerlərdə əl-ələ verib, şərikli narkotika plantasiyaları saldıqlarını da bilməyən yox idi.

İşğalın davam etdiyi otuz ilə yaxın müddətdə Hayastan silahlı qüvvələri yalnız Azərbaycan Ordusunun mövqelərini mütəmadi olaraq atəşə tutmadı, əsgər və zabitlərini şəhid etmədi. Azərbaycanın mülki əhalisinin yaşayış yerlərinə iriçaplı pulemyotlardan atəş yağdırdılar. Nəticədə dinc, günahsız sakinlər həlak oldular.

Hayastan təxribatlarına ara vermədi. 2020-ci il sentyabrın 27-də İkinci Qarabağ müharibəsinin də başlamasına səbəb erməni təxribatı oldu. Müharibə 44 gün çəkdi. Yenə Hayastan havadarlarından böyük dəstək aldı. Ancaq bu dəfə qarşısında güclü, qüdrətli Azərbaycanı gördü. Onun qəhrəman ordusuna yenildi və döyüşçüləri duruş gətirməyərək döyüş meydanlarından qaçdılar. Bütün yardımlara, köməklərə rəğmən Ermənistan dövləti, beləcə, havadarlarını peşman etdi, məğlub olaraq işğalda saxladığı Azərbaycan ərazilərindən geri çəkildi.

Ermənistan məğlubiyyətini üçtərəfli Bəyanat imzalayaraq həm də rəsmi şəkildə təsdiq etdi. Ancaq yenə məkrini, təcavüzkarlığını hər fürsətdə göstərir. İkinci Qarabağ müharibəsindən sonra da Azərbaycanın işğaldan azad etdiyi ərazilərində minalar basdırır. Mina terroru törədərək azərbaycanlıların həyatına son qoyur. Bir tərəfdən də gizli yollarla Azərbaycana silah-sursat, canlı qüvvələr daşıyır.

Beynəlxalq qanunları heçə sayan Hayastan dostlaşdığı, qardaşlaşdığı İran kimi dövlətlərə arxalanır. Əks halda, özünü belə idarə etməyə, əhalisini dolandırmağa gücü çatmayan bir ölkə olaraq başının çarəsini düşünərdi.

### Ölkəmiz barədə təhqiredici materiallar yayan İran mediası Tehranı qətiyyən narahat etmir

İranın paytaxtında - Tehran şəhərində yanvarın 27-də Azərbaycan səfirliyinə terror hücumu həyata keçirildi. Səfirliyimizin mühafizə xidmətinin rəisi Orxan Əsgərov qətlə yetirildi, iki əməkdaşı isə hücumun qarşısını alarkən ağır yaralandı. İran rəhbərliyi terror aktının araşdırılması, bu barədə Azərbaycan tərəfə izahat verilməsi əvəzinə, ölkəmizin əleyhinə yeni-yeni planlar qurmaqdadır. Bunu son vaxtlar Azərbaycanın hüquq-mühafizə orqanları tərəfindən ölkə ərazisində İranın casus şəbəkələrinin ifşası bir daha təsdiqləyir. Daxili İşlər Nazirliyinin əməkdaşlarının həyata keçirdiyi xüsusi əməliyyat tədbirləri nəticəsində Azərbaycanda "din pərdəsi" adı altında təxribat və pozuculuq əməllərini həyata keçirən şəxslər saxlanıldı. Faktlar göstərir ki, İranın casus şəbəkələrinin kökləri dərinə gedir. Narahatlıq doğuran bir məqam da odur ki, fars-molla hökuməti casus kimi yalnız öz ölkəsinin vətəndaşlarından istifadə etmir. İran tərəfindən həm də Azərbaycanın bəzi vətəndaşları pul müqabilində və ya dini duyğularını istismar etməklə ələ alınır.

Azərbaycan bütün dünyada sülhsevər dövlət kimi tanınır. İran İslam Respublikası ilə münasibətlərində də hər zaman xoşniyyətli və ədalətli olub. Ölkələrimiz arasında yaranan bütün narahatlıqlar, anlaşılmazlıqlar hər zaman İran tərəfinin birtərəfli davranışlarından qaynaqlanır.

Uzun illərdir ki, Azərbaycan əleyhinə yalan, böhtan və qərəz dolu məlumatlar, xalqımız barədə aşağılayıcı, təhqiredici materiallar hazırlayaraq yayan İran mediası rəsmi Tehranı qətiyyən narahat etmir. Fars-molla rejimi Azərbaycanın dövlət müstəqilliyinin bərpa olunduğu ilk günlərdən indiyə qədər öz mediasında ölkəmizə qarşı düşmənçilik siyasəti yürüdüb. İranın bu mövqeyini görmək üçün elə təkcə "Səhər TV"yə baxmaq kifayətdir.

İran dövləti öz mediasında mütəmadi olaraq Azərbaycan Respublikası, eləcə də dövlət və hökumət rəsmilərimiz barədə yalan və təhqir dolu məlumatlar yayılmasına son qoymaq, tədbir görmək əvəzinə etiraz notası verib. Bakıdakı səfirliyi vasitəsilə Azərbaycan Xarici İşlər Nazirliyinə çatdırdığı etiraz notasında İran respublikamızın bəzi media qurumlarının "nalayiq və təhqiramiz hərəkətləri"nin davam etməsindən narahatlığını bildirib. Bu qəribə görünmürmü. Axı bunu edən elə İran mətbuatı deyilmi. İran İslam Respublikasının Azərbaycan Respublikasındakı səfiri Seyid Abbas Musəvi Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə çağırılıb. İran tərəfinin notasında Azərbaycan mediası ilə bağlı qeyd olunanların obyektivliyi əks etdirmədiyi nəzərə çatdırılıb, İran tərəfinə cavab notası, eləcə də İran mediasında Azərbaycan əleyhinə yayılmış bir sıra məqalələrin siyahısı təqdim edilib.

Azərbaycan hər zaman bütün yalanları, böhtanları, qərəzləri haqlı mövqeyi, doğru cavabları ilə puç edir. İrandan fərqli olaraq, şanlı keçmişini unutmadığı kimi, bir həqiqəti də yaddan çıxarmır: ötən hər gün keçmişdə qalır, tarixə dönür. Fars-molla rejimi öz əməlləri ilə İran tarixinə ləkə vurur.

***Zöhrə FƏRƏCOVA,***
***"Azərbaycan"***

## Vətəndaş cəmiyyəti nümayəndələri və ictimai fəallar ekoloji cinayətə və qanunsuz istismara etirazlarını davam etdirirlər

# Təbii sərvətlərimizin qanunsuz istismarına qarşı dinc aksiya davam edir

Azərbaycan ərazilərində faydalı qazıntı yataqlarının qanunsuz istismarının dayandırılmasını, "Qızılbulaq" və "Dəmirli" yataqlarında monitorinqin keçirilməsinə icazə verilməsini tələb edən azərbaycanlı könüllü gənclər və ekofəallar tərəfindən Laçın-Xankəndi yolunun Şuşa ərazisindən keçən hissəsində təşkil olunan haqlı etiraz aksiyası 114 gündür davam edir.



AZƏRTAC xəbər verir ki, ekofəallar ötən gecəboyu da yüksək fəallıq nümayiş etdirib, səhər saatlarında hər zaman olduğu kimi, Azərbaycanın Dövlət Himnini səsləndiriblər.

Aksiya iştirakçıları Qarabağda faydalı qazıntı yataqlarının qanunsuz istismarının dayandırılması ilə bağlı Azərbaycan, rus və ingilis dillərində mütəmadi olaraq plakatlar qaldırır, "Azərbaycan milləti qoruyacaq sərvəti!", "Azərbaycan oyaqdır, sərvətinə dayaqdır!", "Azərbaycan vahiddir, sərvətinə sahibdir!", "Ekocinayətə son!" kimi şüarlar səsləndirirlər.

Ekoaksiyanın keçirildiyi ərazi humanitar məqsədlərlə istifadə olunan avtomobillərin keçidi üçün tam açıqdır.

Xatırladaq ki, ötən il dekabrın 3-də və 7-də Rusiya sülhməramlı kontingentinin komandanlığı ilə aparılmış müzakirələrin nəticəsi olaraq Azərbaycanın İqtisadiyyat, Ekologiya və Təbii Sərvətlər nazirlikləri, İqtisadiyyat Nazirliyi yanında Əmlak Məsələləri Dövlət Xidməti və "AzerGold" Qapalı Səhmdar Cəmiyyətinin mütəxəssislərindən ibarət heyət Rusiya sülhməramlı kontingentinin müvəqqəti yerləşdirildiyi Azərbaycan ərazilərində faydalı qazıntı yataqlarının qanunsuz istismarı, bundan irəli gələn ekoloji və digər fəsadlarla bağlı ilkin monitorinq aparmalı idi. Lakin sülhməramlıların hərəkətsizliyi ucbatından monitorinq baş tutmayıb. Buna etiraz olaraq, azərbaycanlı ekofəallar Şuşa ərazisindən keçən Laçın-Xankəndi yolunda dekabrın 12-dən dinc aksiyaya başlayıblar.

# *Yevgeni MİXAYLOV:* "Moskva İrəvana qarşı çoxdan sərt addımlar atmalı idi"

"Ermənistanın Rusiyaya qarşı son hərəkətləri arxadan vurulan kiçik, ancaq ağrılı zərbədir. Ermənistan tez və ya gec öz rəhbərliyinin timsalında Rusiyanın mövqeyinin bütün gücünü hiss edəcək".



Bu fikirləri AZƏRTAC-a politoloq, millətlərarası münaqişələr üzrə mütəxəssis və təhlükəsizlik məsələləri üzrə ekspert Yevgeni Mixaylov İrəvanın Moskvaya münasibətdə bir-birinin ardınca gələn dost olmayan addımlarını şərh edərkən söyləyib.

Agentliyin həmsöhbəti deyib: "Ermənistan Konstitusiya Məhkəməsinin Roma statutunu qanuni olaraq tanıyan sərsəm qərar qəbul etməsi və erməni cəmiyyətinin bəzi liderlərinin Rusiya Prezidenti Vladimir Putini bu ölkəyə səfərə gələrkən həbs etmək çağırışları acınacaqlı nəticələrə gətirib çıxaracaq. Mən buna çox əminəm. Hazırda Rusiya Federasiyası özünün hələ ki erməni tərəfdaşının belə hərəkətlərinə qarşı cavab tədbirləri haqqında düşünür. "Rospotrebnadzor"un Ermənistandan süd məhsullarının tədarükündən imtina etməsi barədə söhbətlər gəzir. Bu, təbii ki, təzyiq üsuludur, çünki istehsalçı ölkə tamamilə qaydalara uyğun hərəkət etmirsə, o zaman süd məhsullarında həmişə hər hansı mikroorqanizmlər aşkar etmək olar. Düşünürəm ki, bu, yalnız ilk addımlardır".

Rusiya bazasının Gümrüdə yerləşdiyini və regionda sülhməramlı kontingentin olduğunu xatırladan, həmçinin Azərbaycanla münasibətləri çox gözəl xarakterizə edən, İran və Türkiyə ilə işgüzar qarşılıqlı fəaliyyəti normal adlandıran ekspert söyləyib ki, bütün hallarda RF-nin atacağı addımlar mövcuddur. Bununla belə, o, konkret olaraq hansı addımlardan söhbət getdiyini bildirməkdə çətinlik çəkib.

Y.Mixaylov sözlərinə yekun vurub: "Zənnimcə, Moskva İrəvana qarşı çoxdan sərt addımlar atmalı idi. Lakin biz hər halda unutmuruq ki, uzun illər tərəfdaş, bu Cənubi Qafqaz respublikasının təhlükəsizliyinin qarantı olmuşuq və əlbəttə, bizim rəhbərlik erməni xalqının əziyyət çəkməsini çox istəmir. Amma hökumət və dövlətin özünün zərər görməsinə gəldikdə, biz bunun üzərində fikirləşirik. Bu dövlətin sadiq olması və bütün razılaşmaları yerinə yetirməsi, habelə Qərblə apardığı oyundan çəkinməsi vacibdir. Düşünürəm ki, indi Rusiyanın yuxarı eşelonlarında da bu barədə düşünürlər. Digər tərəfdən, tamamilə aydındır ki, indi bizim özümüzün çoxlu sayda beynəlxalq problemlərimiz var və faktiki olaraq, Ermənistanın son hərəkətləri arxadan vurulan kiçik, ancaq ağrılı zərbədir. Hesab edirəm ki, Ermənistan tez və ya gec öz rəhbərliyinin timsalında Rusiyanın mövqeyinin bütün gücünü hiss edəcək".

# Yarımçıq həqiqətlər

44 günlük Vətən müharibəsində qazanılan uğurlu qələbədən sonra Azərbaycan Hayastana sülh təklif etdi. Ölkəmizin bu xoşməramlı təklifi bu gün dalana dirənmiş, iqtisadi bataqlıq girdabında çabalayan, dolanışıq üçün əhalisinin böyük əksəriyyəti ölkəsini tərk edən, yerdə qalan hissəsi yoxsulluq girdabında çırpınan, yaşam mücadiləsi verən Hayastana daha çox sərf edir. 30 illik münaqişə dövründə apardıqları səhv siyasət ucbatından Hayastan bir sıra beynəlxalq əhəmiyyətli layihələrdən də özünü təcrid edib.

Düşdüyü bu ağır durumdan Hayastanın Zəngəzur dəhlizinin açılması ilə xilas ola biləcəyini Azərbaycan Prezidenti İlham Əliyev dəfələrlə qeyd etsə də, görünən budur ki, haylar bunu anlamır. Xatırladaq ki, dəhlizin açılması ilə regionda yeni nəqliyyat arxitekturası yaranır. Hayastan Rusiyaya, İrana, eyni zamanda üzvü olduğu Avrasiya İqtisadi Birliyinin bazarlarına quru yol ilə çıxmaq imkanı qazanır. Şərq-Qərb yükdaşımalarından əldə edilən gəlirlə isə yoxsul Hayastan iqtisadi asılılıqdan asanlıqla xilas ola bilər. Məsələ burasındadır ki, 44 günlük müharibədə ağır məğlubiyyətə uğrayan, ordusunun 11 min nəfərdən çoxu döyüş mövqeyini qoyub qaçan, fərarilik edən bir ölkədə "pafoslu" çıxış edən, müharibə istəyən revanşist qüvvələr hələ də var. Və o qüvvələr Ermənistanın baş naziri Paşinyana sülh protokolunu imzalamağa imkan verməmək gücündədirlər.

Bu günlər baş nazir Paşinyanın xanımı Anna Akopyanın orduda fərariliyin baş alıb getməsi, 44 günlük müharibə zamanı Hayastanın 11 min nəfər əsgər və zabitinin fərarilik etməsi haqqında açıqlamanı onun müharibə tərəfdarlarına, revanşist qüvvələrə verdiyi cavab kimi də qiymətləndirmək olar.

Anna Akopyan deyir ki, biz reallığı gizlədərək yüksək pafoslu sözlər deməyi sevirik, amma reallıq budur ki, 44 günlük müharibədə 11 min nəfər fərarimiz vardı. Biz müharibədə Davidi (Ermənistan ordusunun əsgəri - red.) və onun kimi daha 4 min əsgəri itirdik, çünki çoxları cəbhəyə getmədi, müharibə zamanı ali baş komandan Vətəni müdafiə etmək üçün könüllüləri çağıranda onlar çağırışa gəlmədilər".

Birincisi, Anna yarımçıq həqiqətlərdən danışır. Hayastan ordusunun itkilərini hər vəchlə hələ də gizlətməyə çalışır. Anna Akopyan Davidi və onunla birlikdə daha 4 min erməni əsgərinin itirildiyini qeyd edir. 44 günlük müharibədə hayların itkisi 4000-dən dəfələrlə çox olub. Baş nazir Nikol Paşinyan hər zaman etiraf edib ki, onun məqsədi Ermənistan ordusunu tamamilə məhv olmaqdan xilas etmək olub. Məlumdur ki, Hayastan tərəfdən döyüşənlər əsasən muzdlular idi. Muzdluların itkisi barədə məlumatlar gizlədilir. İkincisi, Anna Akopyan 4000 nəfər itki olduğunu deməklə, yalnız Hayastandan Qarabağa gedib ölənlərin sayını açıqlayır. Bəs onda Qarabağdan olan öldürülmüş erməni döyüşçülərinin sayı nə qədərdir?

Bununla yanaşı, Anna Akopyanın çıxışında maraqlı məqamlar da az deyil. Birincisi, bu çıxışı ilə Anna "populis" boşboğaz revanşistlərə xatırladır ki, müharibə zamanı haylar döyüşmək istəməyiblər. Ali baş komandanlarının səfərbərlik çağırışlarına qoşulmayıblar. Erməni kişilərinə dərs vermək məqsədilə Anna Akopyan "bir qadın olaraq özüm dəstə yaratmaq qərarına gəldim ki, kişilər buna böyük ehtiyac olduğunu görsünlər. Görsünlər ki, silahlı dəstə yaradıb öz vəzifələrini yerinə yetirməyə, dəstələr formalaşdırmağa gedənlər qadınlardır. Kişilərin buna reaksiyası yaxşı olmadı, kişilərimiz buna qoşulmadı", - deyir.

Anna Akopyan bununla da yenə müharibə olarsa, erməni kişilərinin gizlənəcəyinə, erməni "döyüşçülərinin" fərarilik edəcəyinə açıq eyham edir.

Hayastan müxalifəti müharibədəki məğlubiyyəti səbəbindən Paşinyanı və onun komandasını satqın, vətən xaini adlandırır. Anna Akopyanın çıxışındakı maraqlı məqamlardan biri də onları satqın adlandıranlara verdiyi cavabdır: "Tədbirlərdən birində iştirak edənlərdən bəziləri "satqınlara ölüm" qışqırırdılar. Biz düşünməliyik, yenidən danışmalı və reallığı gizlətməməliyik. Ümid edirəm ki, satqın deyəndə, bu, şişirdilməməlidir, çünki bizdə mühakimə olunanlar, xüsusən zabitlər çoxdur". Anna Akopyanın verdiyi cavabdan belə nəticəyə gəlmək olur ki, fərarilik edib, ittiham olunanların əksəriyyəti və satqınlıq edənlər Hayastan ordusunun zabitləridir. Onun demək istədiyi odur ki, 25 faizi fərarilik, xəyanət edən bir orduya güvənib, küçələrdə boşboğazlıq edib "müharibə" qışqıranların fitvasına gedib müharibə etmək Hayastanın növbəti, ən böyük faciəsi olar.

***Elşən QƏNİYEV,***
***"Azərbaycan"***

# İŞİMİZ, GÜZƏRANIMIZ

## Döyüş cığırları zəfər yollarına çevrilir



**İnkişaf yoldan başlayır. Yol mədəniyyətdir, tərəqqidir, inkişafın ən vacib şərtidir. Bu gün Azərbaycan inkişaf etmiş yol infrastrukturuna malik bir ölkədir. Hazırda isə yol tikintisi və bərpası ilə əlaqədar əsas diqqət Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarına yönəldilib.**

Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinin verdiyi məlumata görə, 2022-2026-cı illər ərzində ümumi uzunluğu 2264,5 kilometr təşkil edən 20 avtomobil yolu layihəsinin və Laçın rayonunda Beynəlxalq Hava Limanının tikintisi ilə əlaqədar qazma-partlatma və torpaq işlərinin yerinə yetirilməsi nəzərdə tutulub. Artıq "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı"nın icrasına dair tədbirlər planına uyğun olaraq həmin layihənin icrasına başlanılıb. Layihələrdən 12-nin icrasının 2023-cü, iki layihənin 2024-cü, üç layihənin 2025-ci və bir layihənin isə 2026-cı ildə başa çatdırılması nəzərdə tutulub.

İşğaldan azad olunmuş rayonlarda yolların salınması sahəsində görülən böyük işlər təqdirəlayiqdir. Həmin ərazilərdə ən böyük yol layihələrindən biri Füzuli rayonundan Şuşa şəhərinə çəkilən Zəfər yoludur. Uzunluğu 101 kilometr təşkil edən bu yol iki hərəkət zolaqlı olmaqla ikinci texniki dərəcəyə uyğun tikilib. Başlanğıcını Hacıqabul-Mincivan-Zəngəzur dəhlizi magistral avtomobil yolundan götürən Zəfər yolu Qarabağımızın tacı olan Şuşa şəhərinə qədər uzanır. Zəfər yolunun tikintisi müvəffəqiyyətlə başa çatıb və Prezident İlham Əliyev 2022-ci il noyabrın 7-də Şuşaya səfəri zamanı yolun açılışını edib. Bu yol Hacıqabul-Horadiz-Ağbənd-Zəngəzur dəhlizi magistral avtomobil yolunun 149-cu kilometrindəki Əhmədbəyli kəndindən başlayır və Füzuli şəhəri, Böyük Tağlar kəndi, Topxana meşəsi və Daşaltı kəndindən keçərək Şuşa şəhərinə çatır.

Əslində, bu yol əvvəllər olmayıb. 44 günlük savaşda Azərbaycan əsgəri canı və qanı bahasına bu cığırı açıb. Dünən açılan cığır bu gün böyük yola çevrilib. O yolun bünövrəsini böyük Zəfərdən bir həftə sonra noyabrın 16-da Müzəffər Ali Baş Komandan İlham Əliyev Füzuli və Cəbrayıl rayonlarına səfəri zamanı qoyub.

Cəmi bir ilə çəkilən Zəfər yolu indi hər bir Azərbaycan vətəndaşını və xarici qonaqları Şuşaya aparır. 2021-ci ilin yanvarından isə yeni layihə əsasında Azərbaycanın mədəniyyət mərkəzi olan Şuşaya ikinci bir yolun çəkilişi başlanıb. Əhmədbəylidən başlanan bu yol Füzulidən keçərək Şuşaya gedir. Çox çətin relyefi olan ərazilərdən keçən yol körpü və tunellər hesabına inşa ediləcək. Yolun uzunluğu 84,6 kilometr təşkil edəcək.

Bu yaxınlarda isə Prezident İlham Əliyev Tərtər rayonuna səfəri çərçivəsində Talış-Tapqaraqoyunlu-Qaşaltı sanatoriyası yeni avtomobil yolunun açılışını edib. 2021-ci il oktyabrın 3-də Tərtər rayonunda təməli qoyulan və 4 yaşayış məntəqəsini birləşdirən yeni avtomobil yolunun uzunluğu 22 kilometrdir. Yeni avtomobil yolunun eni 19 kilometrlik hissədə 9 metr, 3 kilometrlik hissədə isə 6 metr təşkil edir. Bu yolun inşası layihəsi çərçivəsində İncəçay üzərində uzunluğu 84 metr olan avtomobil körpüsü tikilib. Üçaşırımlı körpünün eni 14,5 metrdir. Körpü 9 bal seysmiklik nəzərə alınmaqla inşa edilib.

Qeyd edək ki, Tərtər rayonunun işğaldan azad edilmiş Talış, Goranboy rayonunun Tapqaraqoyunlu və Qaşaltı, Qaraqoyunlu kəndlərini keçməklə Naftalan şəhərinə doğru uzanan yeni yolun inşası yolboyu yerləşən yaşayış məntəqələrinin sakinlərinin rahat gediş-gəlişi ilə bərabər, bölgənin sosial-iqtisadi inkişafına töhfə verəcək. Yeni yol həmçinin Tərtər şəhəri ilə yanaşı, alternativ olaraq Naftalan şəhərindən də bu istiqamətdə rahat və təhlükəsiz hərəkəti təmin edəcək.

İstifadədə olan yolların təmiri, yenilərinin çəkilişi hər zaman dövlətin diqqət mərkəzindədir. Ölkədə hər il yüzlərlə kilometr yol çəkilir. Bu yollar dünya standartlarına uyğun istifadəyə verildiyi üçün beynəlxalq təşkilatların da diqqətindən yayınmır. Məsələn, Davos Ümumdünya İqtisadi Forumu Azərbaycanda tikilən yolları yüksək dəyərləndirir. Bu barədə Prezident İlham Əliyev demişdir: "Şadam ki, Davos Ümumdünya İqtisadi Forumunun son hesabatında bu sahədə də irəliləyiş var. Keçən dəfə yolların keyfiyyətinə görə biz 34-cü yerdə olmuşuqsa, bu il 27-ci yerdəyik və MDB məkanında birinci yerdəyik. Bu, onu göstərir ki, yol infrastrukturuna qoyulan sərmayə öz səmərəsini verir. Yol tikintisi geniş vüsət alıb və yollar yüksək keyfiyyətlə tikilir. Belə də davam edin. Azərbaycanın bütün yolları bundan sonra da ən yüksək standartlara cavab verməlidir".

Qeyd edək ki, bu il də həm magistral, həm də şəhərlərarası və kəndarası yolların çəkilişi üçün kifayət qədər vəsait ayrılıb.

*Züleyxa ƏLİYEVA,*
*"Azərbaycan"*

## Hökumətlərarası Komissiyanın Bakıda keçiriləcək növbəti iclasına hazırlıq məsələləri müzakirə olunub

**Energetika Nazirliyində İtaliya Respublikasının xarici işlər və beynəlxalq əməkdaşlıq nazirinin müavini Edmondo Çiriellinin rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüş keçirilib.**

İtaliyalı nazir müavinini Azərbaycan Respublikası və İtaliya Respublikası arasında iqtisadi əməkdaşlıq üzrə Hökumətlərarası Komissiyanın həmsədri təyin edilməsi münasibətilə təbrik edən energetika nazirinin müavini Samir Vəliyev Azərbaycan və İtaliya arasında enerji sahəsində əməkdaşlığın uğurla inkişaf etdiyini vurğulayıb. Neft və təbii qaz sahəsində mövcud əməkdaşlıq əlaqələrindən danışılıb, Azərbaycanın bərpa olunan enerji potensialı, strateji hədəfləri, reallaşdırılan layihələr və gələcək planlar haqqında məlumat verilib, "yaşıl enerji" və enerji səmərəliliyi sahələrində əməkdaşlığın genişləndirilməsi üçün perspektivlərin olduğu qeyd edilib.

Qarşılıqlı maraq kəsb edən bir sıra məsələlərin müzakirə edildiyi görüşdə həmçinin Hökumətlərarası Komissiyanın Bakıda keçiriləcək növbəti iclasına hazırlıq məsələləri ətrafında fikir mübadiləsi aparılıb.

## *Peter Siyarto:* "Macarıstan və Rumıniya Azərbaycanın təbii qazına ümid edirlər"

**"Macarıstan və Rumıniya Azərbaycanın təbii qazına ümid edirlər". Trend xəbər verir ki, bu barədə Macarıstanın xarici işlər və xarici iqtisadi əlaqələr naziri Peter Siyarto Rumıniyanın energetika naziri Vircil-Daniel Popesku ilə keçirilən görüşün yekunları ilə bağlı özünün feysbuk hesabında yazıb.**



"Macarıstan və Rumıniyanın taleyi təbii qaz tədarükünün təhlükəsizliyi baxımından əlaqəli olacaq, çünki hər ikimiz də bir tərəfdən Azərbaycanın təbii qazına ümid edir, digər tərəfdən isə Qara dənizdə dəniz yataqlarından hasilatın başladılmasını gözləyirik", - o, deyib.

Nazirin sözlərinə görə, Macarıstan və Rumıniya "ev tapşırıqlarını yerinə yetirərək" iki ölkənin qaz kəmərləri sistemini birləşdirən interkonnektorun ötürücülük qabiliyyətini 2,5 milyard kubmetrədək artırıblar.

"Qara dənizdən təbii qazı Macarıstan sərhədinədək nəql edə bilən boru kəmərinin inşası haqqında qərar qəbul edilib", - Siyarto əlavə edib.

Daha əvvəl deyildiyi kimi, bu il Azərbaycandan Macarıstana 100 milyon kubmetr qaz nəqlinin başladılmasına dair siyasi razılaşma əldə olunub. Daha sonra tərəflər ildə təqribən 2 milyard kubmetr qaz nəqlinə dair uzunmüddətli saziş imzalayacaqlar. Qaz Türkiyə ərazisindən tranzit yolu ilə nəql ediləcək və müvafiq şirkətlər hazırda təfərrüatları müzakirə edirlər.

Bundan başqa, Azərbaycan Dövlət Neft Şirkəti (SOCAR) və Rumıniyanın Romgaz S.A. şirkəti arasında 1 aprel 2023-cü ildən 1 aprel 2024-cü ilədək Rumıniyaya Azərbaycan qazının nəqlinə dair imzalanmış müqavilə qüvvəyə minib. 2023-2024-cü illər ərzində Azərbaycandan Rumıniyaya 1 milyard kubmetr qazın nəqlinə dair bu saziş fevralın 3-də imzalanıb.

Qeyd edək ki, Azərbaycan qazının Avropaya nəqli 31 dekabr 2020-ci ildə “Cənub qaz dəhlizi”nin Avropa hissəsi olan TAP vasitəsilə başladılıb. Boru kəmərinin ilkin ötürücülük qabiliyyəti ildə 20 milyard kubmetrədək artırmaq imkanı ilə 10 milyard kubmetr təşkil edir. 2022-ci ilin iyul ayında Azərbaycan və Avropa Komissiyası Avropaya qaz tədarükünün 2027-ci ilədək ikiqat artırılması barədə razılığa gəlib. Bazar testinin məcburi mərhələsi tamamlandıqdan sonra TAP konsorsiumu genişlənmənin ilkin mərhələsini başladıb.

## İyunda Bakıda daha bir beynəlxalq konfrans keçiriləcək

**Bu il iyunun 22-23-də Bakıda "Kənd təsərrüfatının proqnozlaşdırılması: inkişaf etməkdə olan ölkələr üçün çağırışlar" mövzusunda beynəlxalq konfrans keçiriləcək.**

Kənd Təsərrüfatı Nazirliyinin tabeliyində olan Aqrar Tədqiqatlar Mərkəzinin təşkilatçılığı ilə keçiriləcək konfrans hibrid (canlı və onlayn) formada təşkil olunacaq.

Konfransın keçirilməsində əsas məqsəd dünyanın müxtəlif ölkələrinin tədqiqatçı və ekspertlərini bir araya gətirməklə inkişaf etmiş ölkələrdə kənd təsərrüfatı sahəsində tətbiq olunan modelləşdirmə və proqnozlaşdırma metodları ilə bağlı bilik və təcrübələrin digər dünya ölkələri ilə mübadiləsi, bu sahədə tədqiqat işlərinə və təhlil alətlərinə əlçatanlığın artırılması, eləcə də elmi-tədqiqat sahəsində beynəlxalq və regional əməkdaşlığın genişləndirilməsinə xidmət edən platformanın təşkil edilməsidir.

Konfrans çərçivəsində iştirakçıların Avropa Birliyi ölkələri tərəfindən kənd təsərrüfatı sahəsində tətbiq olunan modellər və proqnozlaşdırma metodları, həmçinin digər ölkələrdə aqrar sahənin modelləşdirilməsi və proqnozlaşdırılması sahəsində mövcud olan təcrübələr, konseptual yanaşmalarla bağlı məlumatlar və praktiki biliklər əldə etmələri üçün müzakirələr təşkil ediləcək.

Konfransda müasir dövrdə müxtəlif amillərin kənd təsərrüfatına təsirlərinin proqnozlaşdırılması ilə bağlı aparılan çoxsaylı tədqiqatların nəticələri müzakirə olunacaq, inkişaf etmiş ölkələr və beynəlxalq təşkilatlar tərəfindən tətbiq olunan proqnozlaşdırma metodları və alətləri barədə təqdimatlar keçiriləcək.

Həmçinin konfransa kənd təsərrüfatının iqtisadiyyatı və ərzaq təhlükəsizliyi problemləri üzrə statistik, ekonometrik və digər modelləşdirmə metodlarından istifadə edilməklə aparılmış elmi-tədqiqat işlərinin nəticələrinin əks olunduğu məqalələr göndərilə bilər. Tədqiqat işləri kənd təsərrüfatının inkişafı və ərzaq təhlükəsizliyi məsələləri üzrə milli, regional və qlobal səviyyədə əhəmiyyət kəsb edən kənd təsərrüfatı sahəsində artımın proqnozlaşdırılması, aqrar sahənin dayanıqlı inkişafına təsir edən amillərin qiymətləndirilməsi, bu sahədə dövlət tənzimləməsinin effektivliyinin qiymətləndirilməsi, kənd təsərrüfatı sahəsi ilə iqtisadiyyatın digər sahələri arasında qarşılıqlı təsirlərin qiymətləndirilməsi və iqlim dəyişikliklərinin kənd təsərrüfatına təsirinin qiymətləndirilməsi mövzularını əhatə etməlidir.

## Azərbaycan neftinin qiyməti 88 dollara yaxınlaşır




**AZƏRTAC xəbər verir ki, "Azeri Light" markalı neftin bir barelinin qiyməti 5,93 dollar artaraq 87,81 dollar olub.**

Xatırladaq ki, Azərbaycan neftinin bir barelinin ötən il ərzində maksimum qiyməti martın 9-da (135,99 dollar) qeydə alınmışdı.

## Qeyri-neft sektoru üzrə ixracın dəyəri 36,6 faiz artıb

**Azərbaycan iqtisadiyyatında müsbət artım dinamikası davam edir. Bu, özünü idxal və ixrac əməliyyatlarında da göstərir. Müsbət haldır ki, ölkəmizin neft-qaz ilə yanaşı, qeyri-neft-qaz məhsulları ixracı da artıb. Xatırladaq ki, ötən il ölkəmizin xarici ticarət əməliyyatlarında rekord həcmdə müsbət saldo qeydə alınmışdır.**



Dövlət Statistika Komitəsinin məlumatına görə, yanvar ayında ölkəmizdəki hüquqi və fiziki şəxslər dünyanın 136 ölkəsindəki tərəfdaşları ilə ticarət əməliyyatları həyata keçirmiş, 73 ölkəyə məhsul ixrac, 132 ölkədən idxal edilmişdir.

Gömrük orqanlarında qeydiyyata alınmış, lakin gömrük rəsmiləşdirilməsi tam başa çatdırılmamış ixrac olunan xam neft və təbii qazın statistik qiymətləndirilmiş dəyəri nəzərə alınmaqla cari ilin yanvar ayında xarici ticarət dövriyyəsinin dəyəri 4 milyard 591,4 milyon, o cümlədən ixracın dəyəri 3 milyard 178,7 milyon, idxalın dəyəri 1 milyard 412,7 milyon dollar təşkil etmiş, nəticədə 1 milyard 766 milyon dollarlıq müsbət ticarət saldosu yaranmışdır.

İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin təqdim etdiyi "İxrac İcmalı"nın mart sayına əsasən isə cari ilin yanvar-fevral aylarında Azərbaycanın ümumi ixracının dəyəri 4,5 milyard, o cümlədən qeyri-neft sektoru üzrə 651,4 milyon dollar təşkil edib. Qeyri-neft sektoru üzrə ixrac ötən ilin iki ayı ilə müqayisədə 36,6 faiz artıb. Bu ilin yanvar-fevral ayları ərzində spirtli və spirtsiz içkilərin ixracı 6,6 dəfə, şəkər ixracı 78,5, çay ixracı isə 22,7 faiz çox olub. İcmalda bildirilir ki, aqrar və aqrar sənaye məhsulları üzrə birgə ixracın statistik dəyəri 124,8 milyon dollar təşkil edib. İki ay ərzində ixrac edilən meyvə-tərəvəz məhsulları aqrar məhsullar qrupunun 92,2 faizinə bərabər olub. Qeyri-neft-qaz ixracının tərkib hissəsində əhəmiyyətli yer tutan aqrar-sənaye məhsullarının yaratdığı dəyər ötən ilin müvafiq dövrü ilə müqayisədə 90,8 faiz artıb. "İxrac İcmalı"nda həmçinin hesabat dövründə ixrac məhsullarının ən çox Türkiyəyə, Rusiya Federasiyasına, Gürcüstana, Qazaxıstana və İsveçrə Konfederasiyasına göndərildiyi bildirilib.

Fevrala gəldikdə, həmin ay qeyri-neft məhsulları ixracının dəyəri 366,9 milyon dollar təşkil edib. İlin ikinci ayı ərzində yeyinti məhsulları üzrə ixracın dəyəri 53,4 milyon, qeyri-yeyinti məhsulları üzrə isə 313,5 milyon dollara bərabər olub. Fevralda da qeyri-neft sektoruna aid ən çox mal ixrac edilən ölkələrin siyahısında Türkiyə birinci, Rusiya Federasiyası ikinci, Gürcüstan isə üçüncü yerdə qərarlaşıb. Həmin ay ixrac edilən qeyri-neft sektoruna aid malların siyahısında elektrik enerjisi birinci, ilkin formalı polipropilen ikinci və meşə fındığı üçüncü olub.

"İxrac İcmalı"nda o da göstərilib ki, mart ayında "Bir Pəncərə" İxraca Dəstək Mərkəzi vasitəsilə həyata keçirilən qeyri-neft ixracının dəyəri 17,5 milyon dollardır.

İcmal tərəfindən qeyri-neft sektoru üzrə cari ilin yanvar-fevral aylarında həyata keçirilən ixracla bağlı həm qeyri-dövlət, həm də dövlətə məxsus ixracatçı subyektlərin reytinqi tərtib edilib. Bu ilin iki ayında hazırlanan qeyri-dövlət ixracatçı subyektlərin reytinqində ilk onluqda aşağıdakı hüquqi və fiziki şəxslər təmsil olunurlar: "MKT İstehsalat Kommersiya" MMC, "Azərbaycan İnterneyşnl Mayninq Kompani Limited Şirkəti"nin Azərbaycan Respublikasındakı Nümayəndəliyi, "STP Global Cable" MMC, "P-Aqro" MMC, "Azərbaycan Şəkər İstehsalat Birliyi" MMC, Şirinov Elvin Valeh oğlu, "Baku Steel Company" QSC, "Almeyvə" MMC, "Mors Trading" MMC, "Rose Servis" MMC.

Qeyri-neft sektoru üzrə ixrac əməliyyatlarında iştirak edən dövlətə məxsus olan şirkətlərin siyahısına isə "Azərenerji" ASC başçılıq edir. Ardınca isə Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin "Marketinq və İqtisadi Əməliyyatlar İdarəsi", "Socar Polymer" MMC, "Azəralüminium" MMC, "AzerGold" QSC, "Azərpambıq Aqrar Sənaye Kompleksi" MMC, "Azərbaycan Hava Yolları" QSC, "ASK Tütün" MMC, "Şəki Şərab" MMC, "Azəripək" MMC gəlir.

Yanvar-fevral aylarında Azərbaycan Respublikasının Kosmik Agentliyi ("Azərkosmos") dünyanın 39 ölkəsinə 3,6 milyon dollar dəyərində xidmət (peyk telekommunikasiya xidmətləri və optik peyk xidmətləri) ixrac edib. “Azərkosmos”un xidmət ixracından əldə etdiyi gəlir ümumi gəlirlərinin 80 faizinə bərabər olub. Təkcə fevral ayında "Azərkosmos" dünyanın 39 ölkəsinə 1,8 milyon dollar dəyərində xidmət ixracına nail olub.

Cari ilin iki ayı ərzində peyk telekommunikasiya və optik peyk xidmətlərinin ixracının ilk beşliyində 813,3 min dollarla Birləşmiş Krallıq, 698,3 min dollarla Lüksemburq, 534,1 min dollarla Fransa, 294,8 min dollarla BƏƏ və 169,4 min dollarla Almaniya qərarlaşıb.

*Rüstəm KAMAL,*
*"Azərbaycan"*

## Bolqarıstana 30,7 milyon avroluq Azərbaycan qazı ixrac edilib

**Cari ilin yanvar ayında Azərbaycandan Bolqarıstana ixrac olunmuş qazın dəyəri 30 milyon 706 min 761 avro təşkil edib.**

Bu barədə Trend-ə Avropa İttifaqının statistika idarəsi olan "Eurostat"dan bildiriblər. "Eurostat"ın məlumatlarına əsasən, bu ilin yanvar ayında Azərbaycandan Bolqarıstana 77,2 milyon kubmetr qaz ixrac olunub.

Bolqarıstan 1 oktyabr 2022-ci ildə istismara verilmiş Yunanıstan-Bolqarıstan interkonnektoru (IGB) ilə Azərbaycan qazının idxalına başlayıb. İnterkonnektorla qaz tədarükünün müqavilə həcmi ildə 1 milyard kubmetr təşkil edir. IGB-nin ümumi ötürücülük imkanları ildə 5 milyard kubmetrədək genişləndirmə imkanı ilə 3 milyard kubmetr təşkil edir.

## Türk şirkəti Qarabağda həyata keçirilən nəqliyyat layihələrindən danışıb

**Türkiyənin "Proyapı" tikinti şirkəti 2025-ci ilədək avtomobil yolları, körpü və tunellərin cari tikintisini bitirməyi planlaşdırır. Bu barədə Trend-ə "Proyapı" şirkətinin Azərbaycandakı idarəetmə heyətinin sədr müavini Akif Aygen deyib.**

Onun sözlərinə görə, şirkət minimal müddətdə Zəfər yolunu inşa edərək istismara verib. "Füzuli-Şuşa avtomobil yolunun tikintisi davam edir. Bu yolun 2024-cü ildə tikintisinin tamamlanması və istismara verilməsi planlaşdırılır. Bundan başqa, Mincivan-Ağbənd avtomobil yolunu, Kəlbəcər-Laçın yolunu inşa etməyə davam edirik. Bununla yanaşı, Xudafərin-Qubadlı-Laçın yolunun tikintisi davam etdirilir. Bu yol Xudafərini Laçın və Gəncə ilə birləşdirəcək", - o, deyib.

A.Aygen "Zabuxçay" su anbarının tikintisinin də davam etdiyini vurğulayıb: ""Zabuxçay" Qarabağda inşa olunan ilk su anbarıdır. Biz Azərbaycanın işğaldan azad edilmiş ərazilərində inşa olunacaq digər su anbarlarını da layihələndirməkdəyik".




QIRMIZI TERROR

XX əsr tariximiz Azərbaycan ictimai fikrinin inkişafında, cəmiyyətimizin mədəni-mənəvi tərəqqisində mühüm rol oynamış şəxsiyyətlərimizlə zəngindir. Ötən əsrin əvvəllərində yaşamış belə şəxsiyyətlərimiz haqqında danışarkən dərhal yada düşən bir ad da var: Əhməd bəy Pepinov.
Müsəlman Şərqinin ilk demokratik respublikası olan Azərbaycan Xalq Cümhuriyyətinin qurulmasında mühüm rol oynamış Əhməd bəy Pepinov Milli Şuranın, daha sonra Cümhuriyyət parlamentinin üzvü və katibi olub. Nəsib bəy Yusifbəylinin baş nazirliyi ilə qurulan 5-ci hökumətdə əmək və əkinçilik naziri vəzifəsində çalışıb. Azərbaycanın ilk ali təhsil ocağı - Bakı Dövlət Universitetinin yaradılmasında yaxından iştirak edib. Parlament üzvü kimi bir sıra mühüm qanun layihələrinin yaradılmasına töhfələr verib.

# Əqidəsinin qurbanı

## Mircəfər Bağırovun təklifinə "yox" deyən nazir

### *Yüksək təhsilli gənc*

Əhməd bəy Pepinov yüksək təhsil almış ziyalılarımızdan idi. Azərbaycanın tanınmış maarif xadimi, dövrünün qüdrətli qələm sahibi Ömər Faiq Nemanzadənin bacısı oğlu idi. Tiflisdəki zadəgan məktəbini bitirdikdən sonra o, 1912-ci ildə eyni vaxtda Moskva Universitetinin həm Hüquq, həm də İqtisadiyyat fakültələrinə daxil olmuşdu. Bir neçə xarici dilə mükəmməl yiyələnmişdi. Universitetdə təhsil alarkən o, publisistika ilə ciddi şəkildə məşğul olur, "Açıq söz" qəzetində "Axalkalakili Əhməd Cevdet" imzasıyla yazılar dərc etdirirdi.

Ə.Pepinovun Moskva Universitetini bitirdiyi 1917-ci ildə, məlum olduğu kimi, çar Rusiyasında çox əhəmiyyətli siyasi hadisələr baş verirdi. Artıq burjua inqilabı olmuş, çar devrilmiş, qısa müddətdən sonra bolşeviklər hakimiyyəti ələ keçirmişdilər. Əhməd bəy Moskvadan evlərinə qayıdanda bu hadisələrin təsirləri əyalətlərə də keçmişdi. Universitetdə kifayət qədər zəngin bilik və təcrübə toplamış gənc Əhməd bəy də bu axından, təbii ki, kənarda qalmır, dövrünün maarifpərvər insanları cərgəsində ictimai-siyasi fəaliyyətə qoşulur.

Moskva Universitetinin mühitindən irəli gələrək marksizm onun dünyagörüşünə əhəmiyyətli təsir göstərmişdi. Bu siyasi cərəyanın fəlsəfəsini, təməl prinsiplərini dərindən bilirdi. Siyasi əqidə etibarilə özünü bu cərəyana aid edirdi. 1917-ci ildən Hümmət Sosial-Demokrat Təşkilatında təmsil olunmağa başlamışdı və sağ hümmətçi düşüncələrini dəstəkləyirdi. 1917-ci ildə Əhməd bəy yüksək təhsilli gənc ziyalı kimi Cənubi Qafqazdan Müəssislər Məclisinə üzv seçilir. 1918-ci ilin fevralında yaradılan Zaqafqaziya Seymində müsəlman sosialist blokuna daxil olur. 1918-ci il mayın 28-də Azərbaycan Xalq Cümhuriyyəti elan olunduqdan sonra Milli Şurada sosialist fraksiyasının üzvü kimi irəli çəkilir. Dövlət quruculuğu proseslərində yaxından iştirak edir.

Cümhuriyyət parlamentinin sədri Həsən bəy Ağayevin bu savadlı, bacarıqlı gəncə böyük rəğbəti vardı. Pepinovun bu dövrdəki ən böyük xidmətlərindən biri də Azərbaycan Xalq Cümhuriyyətinin xarici ölkələrə universitet təhsili almaq üçün göndərdiyi 100 tələbə ilə bağlıdır. Belə ki, parlamentin xaricə göndəriləcək gəncləri seçmək üçün yaratdığı müsabiqə komissiyasında Əhməd bəy Pepinov da təmsil olunurdu.

### *Zəmanət teleqramı*

Cümhuriyyətin süqutu günlərində Əhməd bəy Pepinov Bakıda deyildi. O, işğalçı XXI Qırmızı ordunun Bakıya gözlənilən yürüşünü ləngitmək məqsədilə danışıqlar aparmaq üçün 1920-ci il aprelin əvvəllərində Azərbaycan parlamentinin digər üzvü Rəhim bəy Vəkilovla birgə Qroznı şəhərinə göndərilmişdi. Pepinov bolşeviklərin həmin vaxt tanınmış liderlərindən Serqo Orconikidze ilə tanış idi. Qroznıdakı görüş zamanı, insafən, S.Orconikidze Əhməd bəyə Moskva ilə danışacağını vəd verir və vədini də yerinə yetirir. Amma nəticə uğursuz olur. Bakını işğal edən bolşevik cəlladları Cümhriyyət xadimlərinə qarşı qanlı repressiyalara başlayırlar. Cümhuriyyət hökumətinin aparıcı üzvlərindən biri kimi Əhməd bəy Pepinovu da böyük təhlükələr gözləyirdi. Bunu nəzərə alaraq Serqo Orconikidze qafqazlı xarakterinə sadiq qalıb onu qorumaq üçün Bakıya zəmanət teleqramı göndərir. Pepinovdan dəyərli kadr kimi faydalanmağı tövsiyə edir. Bu zəmanət teleqramı müəyyən dövr ərzində Əhməd bəyin həyatını xilas edir. Sovet dövründə ona kiçik vəzifələr verirlər. 1922-ci ildə isə onu Xalq Maarif Komissarlığına göndərirlər. Komissarlığın Kollegiya üzvü seçilir, həmin illərdə Azərbaycan təhsilinin, maarifinin inkişafı üçün mühüm işlər görür. Təkcə bir faktı diqqətə çatdıraq ki, latın qrafikası əsasında Azərbaycan əlifbasının ilk variantının yaradıcılarından biri məhz Əhməd bəy Pepinov olmuşdur.



Məlumatlara görə, 30-cu illərə az qalmış Türkiyədən gələn bir dostu buralarda vəziyyətin getdikcə pisləşəcəyini, gec-tez tutulacağını deyərək ona ailəsini də götürüb Türkiyəyə keçməyi tövsiyə edir. Amma Əhməd bəy özünü təqsirsiz saydığından bununla razılaşmır. Sonralar həbsxanada görüş zamanı qaynanası Xədicə xanıma səhvini etiraf edir ki, gərək onda gedəydim.

### *İfadələr, ittihamlar*

Amma millətçi tənəsi ilə təqib və təzyiqlər ara vermirdi. O illərdə repressiyaya məruz qalan Azərbaycan ziyalılarının istintaq sənədlərində Əhməd bəy Pepinovun da adı tez-tez hallandırılırdı. Müstəntiqlər dindirdikləri şəxslərdən müxtəlif işgəncə metodlarının köməyi ilə onunla bağlı ittihamlar əldə edib istintaq sənədlərinə daxil etmək istəyirdilər və buna nail olurdular. Ə.Pepinov digər ziyalılarla birgə Azərbaycanda millətçi əksinqilabçı blok formalaşdırmaqda günahlandırılırdı.

Nəhayət, 1930-cu il dekabrın 8-də 1012 nömrəli orderlə Əhməd bəy də həbs edilir və onunla eyni vaxtda həbsə atılmış 52 nəfərlə birgə xaricdəki əksinqilabi, antisovet mərkəzləri ilə əlaqələrdə təqsirləndirilir. Həbs olunanda 37 yaşı vardı. Günahını boynuna alması və digərləri əleyhinə də ifadə verməsi üçün Əhməd bəyə qarşı ağır işgəncə üsulları tətbiq edilir, amma o bütün əziyyətlərə mətanətlə sinə gərir.

Əhməd bəy Pepinovu həbs etmiş NKVD səlahiyyətlilərini ən çox onun vaxtilə Türkiyənin Bakıdakı konsulu vəzifəsində çalışan Məmduh Şövkət bəylə yaxın dostluq münasibətləri maraqlandırırdı. Məmduh Şövkət Bakıda işlədiyi müddətdə müsavatçıların bütün gizli fəaliyyətlərindən xəbərdar idi. NKVD-nin əldə etdiyi müəyyən dəlillərə görə, o, diplomatik imkanlarından istifadə edərək Məhəmməd Əmin Rəsulzadə ilə Azərbaycandakı müəyyən şəxslər arasında rabitənin qurulmasına da kömək göstərirmiş. Ona görə Türkiyə konsulunun yaxın dostu kimi Əhməd bəy Pepinovun üzərinə çox ciddi şübhələr yönəlmişdi. O həm də Mirzəbala Məmmədzadənin Türkiyəyə qaçmasına kömək göstərməkdə ittiham olunurdu.

Azərbaycan Milli Mərkəzinin Türkiyə, Fransa və İrandakı şəbəkələri ilə əlaqələrdə günahlandırılaraq həbs edilən digər şəxslər Əhməd bəyin əleyhinə müəyyən ifadələr vermişdilər. Bu ifadələrdə göstərilirdi ki, "Azərbaycan Milli Mərkəzinin üst qatında" "Türk Millətinin İstiqlaliyyəti" partiyası da varmış. Mərkəz Türkiyədən alınmış tövsiyə əsasında formalaşdırılmışdı. Məqsəd həmin mərhələdə Azərbaycandakı antisovet hərəkata rəhbərliyi tədricən ələ alan, gələcəkdə isə müstəqilliyini bərpa edəcək məmləkətdə hakim partiya funksiyasını daşımaq idi. İfadələrdə partiyanın Mərkəzi Komitəsinin ilk iclaslarının 1928-ci ilin aprel, mayında Əhməd bəy Pepinovun evində keçirildiyi göstərilirdi. Araşdırma materiallarına əsasən, 1931-ci ildə həmin mərkəzin işi ilə bağlı tutulanlardan biri də Azərbaycan Xalq Cümhuriyyəti nazirlərindən Məmməd Həsən Hacinski olmuşdu. Dekabrın 31-də Tiflisdə həbs edilən M.Hacınski onu sonda nələrin gözlədiyini bilərək kamerada intihar etmişdi.

### *Ölüm cəzası sürgünlə əvəz edilir*

Əhməd bəy Pepinovu da oxşar tale gözləyirdi. 1931-ci il sentyabrın 30-da Baş Siyasi İdarə onu ən ağır cəzaya - güllələnməyə məhkum edir. Ancaq 1932-ci ildə hökm dəyişir. Cəza əvvəlcə 10 il həbslə, daha sonra müddəti tutulduğu gündən sayılmaqla 5 illik sürgünlə əvəzlənir. Bəzi mənbələrə görə, bu dəfə də onun xilasında Serqo Orconikidzenin müəyyən rolu olur. Əhməd bəyin həbsindən sonra bacısı Kəbirə xanım Serqo Orconikidzenin yanına gedib qardaşına kömək göstərməsini xahiş edir. S.Orconikidze yenə də köməyini əsirgəmir, dərhal Bakı ilə əlaqə saxlayaraq Əhməd bəy Pepinovun işinə yenidən baxılmasına, haqqındakı ölüm cəzasının dəyişdirilməsinə, cəzanın sonda 5 illik sürgünlə əvəz edilməsinə nail olur.

Əhməd bəy Pepinov Cümhuriyyət parlamentinin sədri Həsən bəy Ağayevin qızı Xurşid xanımla ailə qurmuşdu və bu izdivacdan bir övladları - illər sonra Azərbaycanın məşhur aktyoru Lütfəli Abdullayevin həyat yoldaşı olacaq Sevda Pepinova dünyaya gəlmişdi. Həbsindən sonra əfsus ki, Əhməd bəyin ailəsi də dağılır. Xurşid xanım başqası ilə ailə qurduğundan balaca Sevda ana nənəsi, Həsən bəy Ağayevin həyat yoldaşı Xədicə xanımın himayəsində qalır.

Həbsdə verilən işgəncələr Əhməd bəy Pepinovun səhhətinə ciddi təsir göstərmişdi. O, müxtəlif xəstəliklərdən əziyyət çəkirdi. Həbsinin qalan müddətini Ulyanovsk şəhərində sürgündə keçirir. 1935-ci ilin yazında sürgünün bitməsi barədə sənədləri alıb Moskvaya gedir. Orada Serqo Orconikidze və kiçik qardaşı Zəki bəylə görüşür. Köhnə tanışı Serqo ona işləmək üçün Qazaxıstana getməyi, Bakıdan, o zamanlar Azərbaycanda hökmfərma olan cəllad Mircəfər Bağırovdan mümkün qədər uzaq olmağı tövsiyə edir. Əhməd bəy isə 1936-cı ilin mayında Bakıya gəlir. Bu zaman NKVD-dən çağırıb ona əməkdaşlıq təklif edirlər. Kommunist Partiyasına daxil olarsa, məsul vəzifə veriləcəyini boyun olurlar. Amma Əhməd bəy bu təklifi qəbul etmir, 1936-cı ildə Alma-Ataya yollanır. Əvvəlcə tikinti sahəsində iqtisadi planlaşdırma məsələləri üzrə çalışmağa başlayır, müəyyən müddətdən sonra isə Qazaxıstan SSR maarif nazirinin müavini vəzifəsində işləyir.

Zaman 1937-ci ilə yaxınlaşdıqca Bakıdakı məşhur ziyalıların kütləvi həbsinin sorağı Alma-Ataya çatdığından özü də bilirdi ki, azadlıqdakı bu günləri müvəqqətidir. O, Alma-Atadan əvvəl Ulyanovska, oradan Moskvaya yollanır. Moskvadan Bakıya xəbər göndərib doğmalarından qızı Sevdanı sonuncu dəfə görmək üçün kömək göstərmələrini xahiş edir. Qardaşı Zəki bəy Pepinov onun bu istəyini yerinə yetirir. Sonra Əhməd bəy Ulyanovska qayıdır. Burada onu dərhal həbs edib Bakıya gətirirlər. Həbsxanada səkkiz ayadək davam edən istintaq prosesində yenə də əksinqilabçı, antisovet, millətçi təşkilatın rəhbəri olmaqda, əvvəlki istintaqda həqiqətləri gizlətməkdə təqsirləndirilir. Sonuncu dəfə 1938-ci il iyulun 3-də NKVD binasındakı 100-cü otaqda onu şəxsən Mircəfər Bağırov özü dindirir. Pepinov bu görüşdə də günahkar olmadığını, istintaqdan heç nə gizlətmədiyini, həmişə namusla yaşadığını bildirir. Onun iradəsindən, mətinliyindən qəzəblənən Mircəfər Bağırov həmin görüşdə Əhməd bəyi şəxsən özü qətlə yetirir.

Bu, əfsuslar olsun ki, həyatın reallığıdır: şər xeyirlə, ədalətsizlər adillərlə, düşüncələri zülmətə qərq olmuşlar işıq zərrələri ilə qarşılaşanda zorakılıqdan, öldürməkdən, qətl etməkdən başqa əl atacaqları bir vasitə tapa bilmirlər. Amma unudurlar ki, ölüm onların əbədiyyət ömrünün başlanğıcıdır.

***İradə ƏLİYEVA, "Azərbaycan"***

BURULĞAN

# Sağalmayan yaralar

1920-ci ilin aprel çevrilişi xalqımızın başına gələn bəlaların başlanğıcı oldu. Azərbaycanın Rusiyaya ilhaq edilməsi ilə ölkəmizdə qırmızı repressiya maşını amansızcasına işə düşdü. 1920-ci illərdən başlayan repressiyalar 30 ilə yaxın bir dövrü əhatə etdi. Sovet hakimiyyəti gəlişi ilə Azərbaycana bəla, ölüm, qan, qırğın gətirdi. Bolşeviklər ilk növbədə hakimiyyətlərinə təhlükə olan, xalq arasında və orduda ciddi nüfuza malik hərbçilərimizi aradan götürməyi planlaşdırdılar.



Təkcə 1920-ci ildə güllələnənlər arasında Azərbaycan Ordusunun 12 generalı, 27 polkovniki və podpolkovniki, 46 kapitanı, ştabskapitan, poruçik və podporuçiki, 146 praporşik və podpraporşiki, 267 digər hərbi qulluqçusu da var idi.

1920-ci ildə əsasən Xalq Cümhuriyyətinin hakimiyyəti illərində Milli Orduda xidmət etmiş hərbi qulluqçulara, generallara, zabitlərə qarşı başlanan repressiyalar sonradan siyasi fikir adamlarını da ağuşuna almağa başladı. Bolşeviklər yerini möhkəmləndirdikcə, hakimiyyət uğrunda mübarizə aparan qruplar arasında mövqe savaşı da güclənirdi. Beləliklə, amansız repressiya maşını öz qurbanlarını udurdu. Sovet hökuməti, eləcə də Azərbaycanda milli qüvvələrə qənim kəsilən ermənilər və onların əlaltıları öz fəaliyyətlərini genişləndirib ziyalıları, mədəniyyət və incəsənət xadimlərini, alim, yazıçı, müəllim, din xadimlərini qurbanlıq seçərək güdaza verirdilər. Onlar ya 20-25 dəqiqə çəkən "məhkəmələrin" amansız qərarları ilə güllələnir, ya da Sibirə, Qazaxıstana və digər yerlərə sürgünə göndərilirdilər. Onu da qeyd edək ki, sürgünə göndərilən soydaşlarımızın çoxunun taleyi daha faciəli sonluqla bitirdi.

Bu illərdə Azərbaycan cəmiyyətinin ən ağıllı, elmli, istedadlı, əməksevər, mənəviyyatlı təbəqəsinin çox böyük hissəsi düşünülərək məhv edilmişdir. SSRİ-nin bəzi respublikalarında "xalq düşmənləri"nə qarşı mübarizə planlı şəkildə yerinə yetirilirdi. Həmin dövrdə Azərbaycanda qətlə yetirilən insanlarla bağlı xüsusi plan hazırlanmışdı ki, o plana görə 3 ayda 1500 nəfər güllələnməli idi.

1937-ci və 1938-ci illərdə məhkəmədən kənar repressiyalar aparılmasına da qərar verilmişdir. Bütün ölkədə fəaliyyət göstərən 15 dəqiqədən çox çəkməyən "üçlük"lərin qərarı ilə dövlət ittihamçısının, vəkilin, bir çox halda müqəssirin iştirakı olmadan ölüm hökmü çıxarmışdılar.

Bu bir faktdır ki, əhalinin hər min nəfərinə düşən repressiya qurbanlarının sayına görə Azərbaycan keçmiş sovet respublikaları içərisində birinci yerdə olmuşdur. Əgər 1920-ci illərdə birmənalı olaraq "əksinqilabçı" adı ilə cümhuriyyətçilər, yaxud müsavatçı və ittihadçılar məhv edilir və ya həbs olunub Solovki adalarına göndərilirdisə, 1937-ci il repressiyası bir qədər fərqli olmuşdur. Bu mərhələdə insanlar "xalq düşməni", "pantürkist", "sui-qəsdçi", "panislamist" yarlığı altında məhv edilirdi.

Həmin illərdə repressiya qurbanları arasında "kommunist"lərin də sayı az deyildi. Necə deyərlər, inqilab öz övladlarını da yeyirdi.

Bu illərdə mənsəb mübarizəsi, hakimiyyətə yarınmalar, rəqibini aradan götürmək üçün ən asan yol danosbazlıq hesab olunurdu. Ən pis cəhəti də bu idi ki, bütün ölkə boyu repressiya maşınının daha amansız işləməsinə xidmət edən bu üsuldan daha geniş istifadə etməyə çalışan böyük bir "ordu" yetişmişdi.

Azərbaycanda ümumilikdə 1930-1940-cı və 1950-ci illərin əvvəllərində 80 mindən çox adam repressiya qurbanı olub. Digər araşdırmalarda bu rəqəm 100 mini ötüb. Əsasən erməni istintaqçılarının "sübutlarına", erməniəsilli hakimlərin çıxardıqları qərara əsasən, təkcə 1937-ci ildə 16 Azərbaycan generalı qətlə yetirilib. Stalin repressiyaları illərində Qazaxıstanın ilan mələyən çöllərində 150 min azərbaycanlı öldürülüb və bunlardan 28 min nəfəri məhkəmə və istintaq olmadan güllələnib. Azərbaycanda ziyalılara qarşı xalqımızın düşmənləri əsl soyqırımı törədib. Ölkədə xüsusi olaraq maarifləndirmə proqramı, savadsızlığa qarşı mübarizə proqramı həyata keçirildiyi bir zamanda 29 mindən çox ziyalımız repressiya qurbanı olub. Məqsəd Azərbaycanı milli şüurdan, milli ruhdan və düşüncədən məhrum etmək idi.

Repressiyaya məruz qalanlar içərisində Abbas Mirzə Şərifzadə, Ayna Sultanova, Bəkir Çobanzadə, Cəmşid Naxçıvanski, Hüseyn Cavid, Mikayıl Müşfiq, Qambay Vəzirov, Ruhulla Axundov, Yusif Vəzir Çəmənzəminli, Ömər Faiq Nemanzadə, Əhməd Cavad kimi nurlu, əsl milli ruha sahib ziyalılarımız da var idi.

Repressiyalar xalqların qanlı tarixinin yaralarıdır. Üstündən illər keçsə də, unudulmayan tarixi dərslərdir.

***Elşən QƏNİYEV, "Azərbaycan"***

İNSANLIĞA QƏSD

# Zor gücünə məcburi həbslər



Azərbaycanda repressiya kampaniyası 1934-cü ildə Kirovun öldürülməsinin ilk aylarında hələ ciddi miqyas almasa da, bəzi tədbirlər artıq görülmüşdü. Azərbaycan SSR KP MK-nın təklifi ilə Sov.İKP MK-nın Siyasi Bürosu "87 qolçomaq, islahedilməz antisovet elementlərin, keçmişdə böyük kapitalist müəssisələrinin rəhbərləri olan, ittifaqın digər bölgələrindən qaçıb gələn qolçomaq ailələrinin Azərbaycan SSR ərazisindən inzibati qaydada əmlaklarının müsadirəsi ilə bərabər özlərinin də həbs düşərgələrinə sürgün edilməsi" haqqında qərar qəbul etdi. Bununla yanaşı, hərbi hissələrdə, ziyalılar arasında təmizləmələr aparılır, respublika rəhbərlərinə, partiya üzvlərinə, ayrı-ayrı təşkilatların vəzifəli şəxslərinə qarşı həbslər həyata keçirilirdi.

1936-cı ilin yazında Bakıda humanitar elmlər sahəsində işləyən bir qrup keçmiş trotskiçilər həbs olundular. Sonra isə "millətçilər" həbslərə məruz qaldılar. İlk olaraq o dövrdə respublika rəhbəri olan Mircəfər Bağırovla düşmən münasibətlərdə olan albanəsilli publisist Əhməd Triniç həbs olundu. M.Bağırov həmin ilin aprelində Azərbaycan SSR Kommunist Partiyası Mərkəzi Komitəsi Bürosunun iclasında 1918-ci ildə guya ki, Triniçin Müsavat parlamentinin müdafiəsi üçün etdiyi xahişi özündə əks etdirən uydurulmuş məktubu oxudu. Nəticədə Triniçi partiyadan kənarlaşdırıb həbs etdilər, istintaq zamanı isə o, düymə udaraq özünü öldürdü. Lakin Azərbaycanda ilk güclü həbslər payızda baş verdi və bu, əsasən bolşevik partiyası daxilindəki müxaliflərə, neobolşevik partiyalarının üzvlərinə və Stalin hakimiyyətinə qeyri-loyal münasibətdə şübhəli bilinən şəxslərə aid edildi.

Noyabr ayında trotskiçilikdə, müsavatçılıqda və casusluqda ittiham olunan onlarca görkəmli kommunist XDİK tərəfindən həbs olundu. Hətta Mircəfər Bağırovun şəxsi katibi Nikişov da "müsavat agenti", "terrorist" kimi tutuldu. Azərbaycan Dövlət Universitetinin rektoru Balabəy Həsənbəyov, "Azərnəşr"in direktoru İbrahim Eminbəyli, tanınmış etnoloq, professorlar A.S.Bukşpan və Nikolayev, Mübariz Allahsızlar İttifaqının sədri ədib Vəli Xuluflu partiyadan qovularaq həbs olundular. İlin sonunda Mircəfər Bağırov Stalinə yazırdı ki: "Azərbaycanın bəzi məsul işçiləri bizdə şübhə yaradırlar. Bunlar incəsənət işləri komitəsinin sədri Ruhulla Axundov, Azərbaycanın xalq maarifi komissarı Müseyib Şahbazov və Azərittifaqın sədr müavini Eyyub Xanbudaqovdur. Əksinqilabçı trotskiçi Mixail Okudjavanın Ruhulla Axundov haqqında verdiyi ifadəyə əsasən, biz XDİK-ə bununla bağlı təhqiqatın aparılması üçün göstəriş vermişik. Eyyub Xanbudaqova qaldıqda isə burada yoldaş Sarkisovla şəxsi görüşdə müəyyən edildi ki o, doğrudan da, aktiv trotskiçidir. Bununla bağlı yoldaş Sarkisov arayış məktubu da verib".

Bu dövrdə kəndlilər arasında "üsyançı" qruplar da aşkara çıxarıldılar. Məsələn, Əli Bayramlı (indi Şirvan) rayonunun kəndlərində əksinqilabi çevriliş hazırlamaqda günahlandırılan bu rayonun bütün kişi əhalisi repressiyalara məruz qaldı.

Dekabrda qırmızı terrora artıq rayon rəhbərləri də qatıldılar. XDİK Naxçıvanda bütün partiya rəhbərliyini həbs etdi. Naxçıvanın partiya bölgə komitəsinin birinci katibi Mehdi Mehdiyev isə məhkəmə qarşısına çıxarıldı və "düşmən və cinayətkar elementlərlə əlaqələr" ittihamı ilə edam edildi. Şirvan, Göyçay, Qazax, Goranboy, Qonaqkənd, Lənkəran, Samux və Şamxor rayonlarının katibləri də qırmızı terrorun qurbanlarına çevrildilər.

1937-ci ilin əvvəlində bir qrup partiya rəhbəri və sovet işçiləri siyasi xarakterli cinayət məsuliyyətinə cəlb olundular. Həbs olunanlar arasında Azərbaycan KP MK-nın və Sov.İKP Zaqafqaziya Diyar Komitəsinin keçmiş katibi Ruhulla Axundov da var idi.

***İ.ƏLİYEVA, "Azərbaycan"***

AMANSIZ QƏRARLAR

# Fövqəladə Üçlüklərin qanlı fəaliyyəti

**Azərbaycanın bütün rayonlarında Baş Siyasi İdarənin (BSİ) şöbələri var idi və bu şöbələrin səlahiyyətləri qeyri-məhdud idi.**

Dağlıq Qarabağ Muxtar Vilayətində də BSİ-nin ermənilərdən ibarət Fövqəladə Üçlükləri fəaliyyət göstərirdi. Onlar Qarabağa və ətraf rayonlara daxil olan azərbaycanlı kəndlərinə nəzarət edirdilər.

1920-ci illərin axırlarından başlayaraq Xankəndidə fəaliyyətdə olan Fövqəladə Üçlüyə Qalstyan, Sarkisyan və Petrosyan daxil idilər. Bu üç nəfərin özbaşına hərəkəti və təqibləri nəticəsində Qarabağın azərbaycanlı kəndlərinin sayı getdikcə azalırdı. Hər kənddən xüsusi hazırlanmış siyahılarla 15-20 kişi güllələnir, əmlakları müsadirə edilir, ailələri də sürgünə göndərilirdi. Elə o vaxtdan Qarabağın azərbaycanlı kənd və obalarının sakinlərinin sayı getdikcə azalır, yerlərini ermənilər tuturdu.



# BANK ƏMLAKLARININ SATIŞI ÜÇÜN İCTİMAİ BİLDİRİŞ

Pakistan Milli Bankının Bakı filialı bankın aşağıdakı binalarının satışını elan edir və maraqlı tərəfləri möhürlənmiş tender təkliflərinə çağırır.
**Əmlak Təfərrüatları:**

| № | Region | Əmlakın növü | Əmlakların təfərrüatları |
|---|---|---|---|
| 1 | Sumqayıt şəhəri | Mənzil | Sumqayıt şəhəri, 9-cu mikrorayon, 2 mərtəbəli, 3 otaqlı, 39,3 kv/m yaşayış, 64,3 kv/m köməkçi, 74 nömrəli evin 94 nömrəli mənzili. |
| 2 | Bakı şəhəri | Fərdi yaşayış evi | Bakı şəhəri, Nəsimi rayonu, Alatava küçəsi 3 ünvanında 0.01116 ha torpaq sahəsində yaşayış sahəsi 57.8 kv.m, yardımçı sahəsi 110.0 kv.m olan 3 otaqlı 108 saylı fərdi yaşayış evi. |
| 3 | Bakı şəhəri | Mənzil | Bakı şəhəri, Xətai rayonu, Nobel prospekti, 0.0917 ha torpaq sahəsində yerləşən 4 mərtəbəli 7 saylı binanın ümumi sahəsi 76.2 kv/m olan 3 otaqlı 16 nömrəli mənzili. |
| 4 | Bakı şəhəri | Qeyri-yaşayış | Bakı şəhəri, Nərimanov rayonu, Heydər Əliyev prospekti 95a, qeyri-yaşayış sahəsinin əmlakının növü: özəl, qeyri-yaşayış sahəsi üzərində hüququn növü: Əmlak, təyinatı: zirzəmi, ümumi sahəsi: 67 kv/m. |
| 5 | Bakı şəhəri | Fərdi yaşayış evi | Bakı şəhəri, Nərimanov rayonu, Yusif Vəzir Çəmənzəminli küçəsində yerləşən 0.00982 ha torpaq sahəsi, 3 mərtəbəli, 4 otaqlı, 76,4 kvadratmetr yaşayışlı, - kvadratmetr qeyri-yaşayış, 140,1 kv/m yardımçı sahəsi, fərdi ev 53 nömrəli tam fərdi yaşayış evi. |
| 6 | Bakı şəhəri | Mənzil | Bakı şəhəri, Binəqədi rayonu, Mir Cəlal küçəsində yerləşən 9 mərtəbəli 123 №-li binada ümumi yaşayış sahəsi 29.11 kv/m olan 2 otaqlı mənzil. |
| 7 | Bakı şəhəri | Mənzil | Bakı şəhəri, Yasamal rayonu, İzmir küçəsində, ümumi sahəsi 72,93 kv/m, yaşayış sahəsi 50,83 kv/m olan 5 mərtəbəli 7a №-li bina, 4 otaqlı, 30 nömrəli mənzil. |
| 8 | Bakı şəhəri | Mənzil | Bakı şəhəri, Nərimanov rayonu, Teymur Əliyev küçəsi, ev 38, mənzil 18, ümumi sahəsi 80 kv/m, yaşayış sahəsi 49,0 kv/m, köməkçi sahə 31,0 kv/m, qonaq otaqları 3, mərtəbə 5. |
| 9 | Bakı şəhəri | Mənzil | Bakı şəhəri, Sabunçu rayonu, Bakıxanov qəsəbəsi, Nazim İsmayılov küçəsi, ev 3, mənzil 7, mərtəbə - 4, ümumi sahəsi - 77,55 kv/m, yaşayış sahəsi, 57,2 kv/m, köməkçi sahə 20,35 kv/m, qonaq otaqlarının sayı-3. |

**Şərtlər və Qaydalar:**

1. Daşınmaz əmlaklar heç bir dəyişiklik edilmədən satışa təklif olunur.
2. Maraqlanan şəxslər (şirkətlər/firmalar/fiziki şəxslər) 1-ci gündən 5-ci günə kimi iş saatları ərzində 09:00-dan 17:00-a kimi (012) 4643052-53 (Anar bəy) telefon nömrəsi vasitəsilə əlaqə saxlayaraq əmlaka baxış keçirə bilərlər.
3. Tender təkliflərinin son təqdim olunma tarixi elan yerləşdirilən tarixdən bir ay müddətinə təyin olunur.
4. Tenderdə iştirak edən tərəflər möhürlənmiş tenderin təqdim edilməsi zamanı bank tərəfindən müəyyən edilmiş əsas vəsaitləri Pakistan Milli Bankının Bakı filialına yatırmalıdırlar.
5. Ədalətli rəqabətin aparılması üçün tender təkliflərinin məxfiliyinə riayət edilməlidir. Tender təklifləri möhürlənmiş zərfdə təqdim edilməli və şirkətin möhürü olmalıdır.
6. Bank daxil olunan təklifləri aldıqdan sonra, tenderin açıldığı tarixdən etibarən 30 gün ərzində qalib iddiaçıya məlumat verəcəkdir.
7. Tərəflər bankın KYC / Due Digence ilə bağlı tələblərini tam şəkildə yerinə yetirməlidirlər, yəni tərəflər gələcəkdə hər hansı məhkəmə çəkişmələrinin qarşısını almaq üçün binanın satın alınması ilə bağlı təkliflərində öz resursları haqqında sertifikat verməlidirlər.
8. Tenderin qalibi elan edildikdən sonra 7 iş günü ərzində tender təklifi məbləğinin 50%-ni əlavə olaraq, tenderin qalan məbləği isə onun qəbul edildiyi gündən 30 gün ərzində depozitə qoyulacaq.
9. Tenderin qalibi tenderdən geri çəkilməməsini təmin etmək üçün Pakistan Milli Bankının Bakı filialı ilə depozitə qoyulmuş əsas vəsaitlə bağlı əlavə müqavilə bağlayacaqdır.
10. Uğur qazanmayan iddiaçılara tender təkliflərinin qəbulu/rədd edilməsi prosesi başa çatdıqdan sonra və ya tender təklifinin təqdim olunduğu son tarixdən sonra 30 gün ərzində depozitləri geri qaytarılacaqdır.
11. Qalib iddiaçı Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq Satış Vergisi, Qeydiyyat xərcləri və/və ya hər hansı digər tətbiq olunan rüsumlar/vergilər kimi bütün xərcləri öz üzərinə götürəcək.
12. Satış aktı NBP-nin Baş ofisinin Kəraçi şəhəri, Pakistanın razılığı ilə Bakı filialı tərəfindən tender təklifi təsdiq edildikdən sonra və bütün müvafiq yerli hüquqi rəsmiləşdirmələr yerinə yetirildikdən, qalan tenderin ödənilməsi şərtilə tenderin qalibi və/və ya onun səlahiyyətli şəxsinin xeyrinə rəsmiləşdiriləcəkdir. Məbləğ və bütün tətbiq olunan ödənişlər əmlakın mülkiyyətinin təhvil verilmə tarixi/saatı alqı-satqı aktının rəsmiləşdirilməsi zamanı razılaşdırılacaq.
13. Bank istənilən vaxt heç bir səbəb göstərmədən hər hansı və/və ya bütün təklifləri rədd etmək/ləğv etmək hüququnu özündə saxlayır.
14. Təklif olunan qiymət, əmanət pulunun depoziti, pasportun surəti, VÖEN-in surəti, adı, ünvanı olan möhürlənmiş tender təklifləri aşağıdakı ünvanlardan hər hansı birinə göndərilməlidir:

**Ünvan: Şeyx Ahtsham Əhməd - Pakistan Milli Bankı - Bakı filialı, Azərbaycan, Bakı şəhəri, Xətai rayonu, 8 Noyabr prospekti, 9A**
E-poçt: **sheikh.ahtsham@nbp-baku.az**
**ahtsham.ahmed@gmail.com**



# OXUCULARIN NƏZƏRİNƏ!

"AZƏRBAYCAN" qəzetinə
*abunə yazılışı davam edir!*

**Abunə respublikanın bütün poçt şöbələri tərəfindən aparılır. Eyni zamanda aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət edə bilərsiniz:**

| | |
|---|---|
| *"Azərpoçt" MMC* | (012) 598-49-55, (051) 225-02-13 |
| *"Azərmətbuatyayımı" ASC* | (012) 441-19-91, (050) 322-33-17 |
| *"Qaya" firması* | (012) 566-77-80, (050) 214-40-53 |
| *"Region Press" MMC* | (055) 316-79-01, (050) 316-79-01 |
| *"Səma-M" MMC* | (012) 594-09-59 |
| *"Ziya" LTD* | (012) 497-76-96, (050) 306-77-22 |
| *"Pressinform" MMC* | (012) 598-49-52, (070) 340-01-00 |
| *"City press" MMC* | (055) 819-09-26 |



**1 illik -124,80** (yüz iyirmi dörd manat səksən qəpik) **manat**
**6 aylıq - 62,40** (altmış iki manat qırx qəpik) **manat**
**3 aylıq - 31,20** (otuz bir manat iyirmi qəpik) **manat**

**Hörmətli oxucular!**
*Abunə ilə bağlı hər hansı bir problemlə üzləşsəniz, (012) 539-59-33 nömrəli telefona zəng vura bilərsiniz.*



*Təkrar*

## "İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi" publik hüquqi şəxs xroniki böyrək çatışmazlığı üzrə tədbirlər proqramının icrası üçün məsrəf mallarının satın alınması məqsədilə *açıq tender elan edir*

Malgöndərənlərə (podratçılara) təklif olunur ki, öz tender təkliflərini möhürlənmiş, imzalanmış şəkildə ikiqat zərflərdə yazılı surətdə təqdim etsinlər.

Müqavilənin icrasını təmin etmək üçün malgöndərənlər (podratçılar) lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar.

Tenderdə iştirak etmək istəyən malgöndərənlər (podratçılar) aşağıdakı məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş tenderin əsas şərtlər toplusunu Bakı şəhəri, Nəsimi rayonu, Lev Tolstoy küçəsi, 170 ünvanından (Əlaqələndirici şəxs: Səbinə Məmmədova, telefon: (+994 12) 310 07 70 (daxili 4444), E-mail: **smammadova@its.gov.az**) ala bilərlər.

Tender 1 LOT üzrə keçirilir:

**LOT-1.** Xroniki böyrək çatışmazlığı üzrə tədbirlər proqramının icrası məqsədilə məsrəf mallarının satın alınması.

**İştirak haqqı: 1,500.00 (bir min beş yüz) manat.**
**İştirak haqqı heç bir halda geri qaytarılmır.**
**Tenderdə iştirak haqqının ödənilməsi üçün satınalan təşkilatın bank rekvizitləri:**
**Təşkilat: "İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi" publik hüquqi şəxs**
**VÖEN: 1701911851**
**Hesab: AZ52AIIB38090019440013375105**
**Bank: Kapital Bank ASC Səbail filialı**
**Bankın VÖEN-i: 9900003611**
**Kod: 200059**
**Müxbir hesabı: AZ37NABZ01350100000000001944**
**S.W.I.F.T.BIK -AIIBAZ2X**

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

*1) Tender prosedurunda iştirak etmək üçün yazılı müraciət;*
*2) Tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
*3) Vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında vergi orqanından arayış (27.03.2023-cü il tarixdən sonrakı tarixə təqdim olunmuş arayış olmalıdır);*
*4) İddiaçının son (əgər daha az müddət fəaliyyət göstərirsə, bütün fəaliyyəti dövründəki) maliyyə vəziyyəti barədə bank tərəfindən verilmiş arayış;*
*5) İddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti (bir ildən az müddətə fəaliyyət göstərirsə, həmin dövrü əhatə edən maliyyə hesabatının surəti);*
*6) Tender təklifi (təkliflərin açıldığı tarixdən sonra azı 90 bank günü qüvvədə olmalıdır);*
*7) Tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (təminatın qüvvədə olma müddəti tender təklifinin qüvvədə olma müddətindən 30 bank günü çox olmalıdır);*
*8) Tender iştirakçısının öz əmlakından sərbəst və məhdudiyyətsiz istifadə etmək imkanı, müflis elan olunmaması, əmlakı üzərinə həbs qoyulmaması, ödənişə yönəlmiş girovun olmaması, məhkəmənin qərarı ilə kommersiya fəaliyyəti dayandırılmış şəxs olmaması və yaxud müvafiq peşə fəaliyyətləri ilə məşğul olmasının məhkəmə qaydasında qadağan edilməməsi barədə sənəd - Kommersiya Məhkəməsindən və ya Dövlət Vergi Xidmətindən Yüklülük haqqında arayış (27.03.2023-cü il tarixdən sonrakı tarixə təqdim olunmuş arayış olmalıdır);*
*9) Tender iştirakçısının satınalma prosedurlarının başlanmasından əvvəlki 5 il ərzində özünün, habelə işlərini idarə edənlərin, qulluqçularının peşəkar fəaliyyətləri, yaxud satınalma müqaviləsinin bağlanması üçün ixtisas göstəricilərini yanlış göstərmələri ilə əlaqədar cinayətə görə məhkum olunmaması haqqında arayış (malgöndərən (podratçı) Daxili İşlər Nazirliyindən və ya "ASAN xidmət" mərkəzlərindən məhkumluq ilə bağlı arayış alır);*
*10) Sahibkarlıq subyekti olması haqqında müvafiq səlahiyyətli orqan tərəfindən verilmiş arayış (malgöndərən uçotda olduğu statistika orqanından alır);*
*11) Tender təklifini və satınalma müqaviləsini imzalamaq səlahiyyətinə malik olan şəxsin səlahiyyətlərini təsdiq edən sənəd (vəzifəyə təyin edilməsi barədə əmrin təsdiq olunmuş surəti və ya müvafiq səlahiyyətin verilməsi barədə etibarnamə);*
*12) İcraçı ləvazimatların istehsal olunduğu və ya satın alındığı ölkənin səlahiyyətli və/və yaxud istehsalçı müəssisəsi tərəfindən verilmiş malların keyfiyyət sertifikatını və istehsalçının təsdiq forması (MAF- Manufacturer's Authorization Form);*
*13) İddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
*14) Tenderin əsas şərtlər toplusunda göstərilən bütün digər sənədlər.*

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildə olan tender təklifləri Azərbaycan dilinə tərcümə olunmalıdır). Tender proseduru "Dövlət satınalmaları haqqında" qanuna uyğun keçiriləcəkdir. İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və bank təminatı istisna olmaqla) **02.05.2023-cü il saat 16:00-a** qədər, tender təklifi və bank təminatını isə möhürlənmiş ikiqat zərfdə **11.05.2023-cü il saat 18:00-a** qədər Bakı şəhəri, Nəsimi rayonu, Lev Tolstoy küçəsi, 170 ünvanına təqdim etməlidirlər. Göstərilən vaxtdan gec təqdim olunmuş zərflər açılmadan geri qaytarılacaqdır. İddiaçıların təkliflərinin açılışı **12.05.2023-cü il saat 16:00-da** Bakı şəhəri, Nəsimi rayonu, Lev Tolstoy küçəsi, 170 ünvanında aparılacaqdır. Açılışda iddiaçıların səlahiyyətli nümayəndələri iştirak edə bilərlər. İddiaçı əsas şərtlər toplusunun məzmununu, o cümlədən təlimatları, formaları və şərtləri tam olaraq öyrənməlidir. Əsas şərtlər toplusunu almış iddiaçının əsas şərtlər toplusunun məzmunundan, o cümlədən təlimatlardan, forma və şərtlərdən kənar təklif verməsi onu bu məsuliyyətdən azad etmir. Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar.

***Tender komissiyası***


# NATO-nun qərargahında 31 bayraq dalğalanır

## Finlandiya bu təşkilata üzv qəbul olundu, İsveçə isə Türkiyə hələlik icazə vermir

Dünən Şimali Atlantika Alyansının (NATO) Brüsseldəki mənzil-qərargahında xarici işlər nazirlərinin iclası öz işinə başlayıb. Tədbirdə Finlandiyanın NATO-ya qəbulu ilə bağlı rəsmi mərasim keçirilib.

Finlandiya NATO-ya İsveçlə birgə daxil olmaq niyyətində olsa da, Türkiyənin terrorçuluqda ittiham etdiyi şəxslərin ekstradisiyası ilə bağlı bütün tələblərini hələ də yerinə yetirmədiyi üçün rəsmi Ankara krallığın alyansa üzvlüyünə icazə verməyib.

İlk olaraq alyansın bütün ölkələrinin xarici işlər nazirləri Finlandiyanın qəbul protokollarının ratifikasiya olunmuş əsillərini ABŞ-nin dövlət katibi Entoni Blinkenə təhvil verib, daha sonra mənzil-qərargahın qarşısında 31-ci ölkənin - Finlandiyanın bayrağı qaldırılıb.

Tədbirdə Finlandiya Prezidenti Sauli Niinistö, NATO-nun baş katibi Yens Stoltenberq, Finlandiyanın xarici işlər naziri Pekka Haavisto və müdafiə naziri Antti Kaykkonen çıxış ediblər.



### Neytrallığın sonu

Beləliklə, sonuncu iki dövlət - Türkiyə və Macarıstanın icazəsindən sonra Finlandiya 4 aprel 2023-cü il tarixdən NATO blokunun tamhüquqlu üzvü olub. Finlər alyansa 1949-cu ildən, bu hərbi blokun yarandığı gündən dəvət edilib, lakin Helsinki elan edilmiş neytrallıq kursuna sadiq qalmağa üstünlük verib. Son vaxtlara qədər Finlandiya NATO-nun üzvü olmayan Avropa İttifaqının altı ölkəsindən biri olaraq qalırdı. Şimali Atlantika Alyansının baş katibi Yens Stoltenberq qeyd edib ki, Brüsseldəki qərargahında Suomi ölkəsinin bayrağının qaldırılması ilə Finlandiya alyansın üzvü olub.

Finlandiyanın NATO-ya doğru hərəkəti hələ 1994-cü ildə, ölkə "Sülh naminə tərəfdaşlıq" proqramına qoşulduqda başlayıb. Həmin vaxtdan Finlandiya ordusu NATO standartlarına mümkün qədər yaxın olmağa çalışıb. Rəsmi Helsinki öz ordusuna alyansın Bosniya və Herseqovina, daha sonra Kosovodakı əməliyyatlarında iştirak etmək üçün "xeyir-dua" verib.

2002-ci ildən 2021-ci ilə qədər Finlandiya hərbi kontingenti Şimali Atlantika Alyansının başçılıq etdiyi Beynəlxalq Təhlükəsizliyə Yardım Qüvvələri (ISAF) tərkibində Əfqanıstanda olub. 2014-cü ildə başlayan Təkmil İmkanlar Proqramına tərəfdaşlıq edib və 2017-ci ildə Böyük Britaniyanın komandanlığı altında Birləşmiş Ekspedisiya Qüvvələrinə daxil olub.

Finlandiya Rusiyanın Ukraynaya hərbi təcavüzünə cavab olaraq neytrallıqdan əl çəkib və alyansa üzv olmaq qərarına gəlib.

İsveç də NATO-ya üzv olmaq üçün ərizə verməklə uzunmüddətli neytrallıq öhdəliyindən imtina edib. Finlandiya NATO-ya İsveçlə birgə daxil olmaq niyyətində olsa da, Ankaranın terrorçuluqda ittiham etdiyi şəxslərin ekstradisiyası ilə bağlı bütün tələblərini hələ də yerinə yetirmədiyi üçün Türkiyə İsveçin təşkilata üzvlüyünə razılıq vermir.

### İsveçə hələ ki, güzəşt olunmur

Türkiyə və Macarıstan hələ də İsveçin NATO blokuna üzvlük müraciətinin təsdiqini ləngidir. Finlandiya və İsveç 2022-ci ilin mayında NATO-ya üzv olmaq üçün rəsmi müraciət ediblər. İlin sonunda onlar bloka daxil olan 30 ölkənin 28-indən razılıq ala biliblər. Budapeşt və Ankara İsveçin yox, Finlandiyanın ərizəsini ratifikasiya etməyə hazır olduqlarını bidiriblər. Ankara Stokholmun "Türkiyənin terrorçu hesab etdiyi insanlara qarşı mübarizədə yetərincə irəli getmədiyini" və kürd terrorçularının tərəfdarlarına, habelə 2016-cı ildə Türkiyədə dövlət çevrilişi cəhdinə görə məsul bildiyi şəbəkə üzvlərinə qarşı əlavə addımlar atmalı olduğunu deyib.

Stokholmda kürdpərəst qrupların küçə etirazları ilə bağlı bir neçə mübahisədən sonra İsveç və Türkiyə arasında danışıqlarda çox az irəliləyiş əldə edilib. Bu yaxınlarda İsveçdə keçirilmiş bir sıra nümayişlər, o cümlədən Türkiyə səfirliyi qarşısında antiislamçı ünsürün "Quran" kitabını yandırması Ankaranı haqlı olaraq qəzəbləndirib. Bu günlərdə İsveçin NATO-ya üzvlüyü ilə bağlı sualı cavablandıran Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan jurnalistlərə belə cavab verib: "Biz onlardan müəyyən şeylər gözləyirik. Əvvəlcə bunlar edilməlidir".

Eyni zamanda Budapeşt İsveçin üzvlüyünün təsdiqini təxirə salıb, çünki macar deputatlar Stokholmun ölkənin daxili işlərinə qarışmasından narahatdırlar.

***Rizvan CƏFƏROV,***
***"Azərbaycan"***

# Hayastanda yeni bahalaşma dalğası

## Beynəlxalq Valyuta Fondunun hesablamalarına görə, bu ölkədə qiymət artımı və inflyasiya pik həddə çatıb

Hayastanda iqtisadiyyatdan tutmuş siyasət və digər sahələrə qədər vəziyyətin daha sürətlə pisləşməsi özünü qabarıq göstərir. Hakimiyyət əleyhinə yönələn etirazların sayının artması və artıq Nikol Paşinyanın istefasının əsas tələb kimi qoyulması mövcud iqtidarın durumunu xeyli ağırlaşdırır. Qeyd olunur ki, müharibədəki məğlubiyyət fonunda Hayastanda ötən il iqtisadi göstəricilər yaxşıya doğru dəyişməyib. Nəticədə yoxsulluq səviyyəsi bir qədər də artıb və iqtisadi tənəzzülün davam etməsi ilə birlikdə hakimiyyətin reytinqi sıfra yaxınlaşır.

Statistika göstərir ki, hazırda ölkədə adambaşına düşən gəlir qabaqcıl ölkələrlə müqayisədə təxminən 16 dəfə, məhsuldarlıq isə 9 dəfə aşağıdır. Hayastanın ərzaq təhlükəsizliyi ilə bağlı heç bir tədbir görülmür. Uzun illərdir ki, aqrar sektorda böhran hökm sürür, bu sahədə islahatlara başlamaq barədə təşəbbüs göstərilmir. Məhz bunun nəticəsidir ki, bu gün Hayastanda kənd təsərrüfatı sahəsində azalma 25-30 faiz təşkil edir.

Ölkədə qida məhsulları qrupunda düyü (13,4 faiz), çörək (8,6 faiz), donuz əti (32,2 faiz) və toyuq əti (24,3 faiz) bahalaşıb. Son 3 ay ərzində qiymətlərdə ən böyük sıçrayış yumurtada olub, 51,3 faiz artımla müşahidə edilib. Kartofun orta qiyməti 38,4 faiz, tərəvəz qrupununku 53,1 faiz artıb. Kərə yağı 15,9 faiz bahalaşıb. Qeyri-ərzaq məhsulları qrupunda texniki malların (soyuducular, paltaryuyan maşınlar, qaz sobaları və digərlərinin) qiymətləri 13,2 faiz bahalaşıb. Siyahını sonsuza qədər davam etdirmək olar, çünki praktik olaraq bütün mallar və xidmətlərdə artım var.

Beynəlxalq Valyuta Fondu cari il Hayastanda ÜDM istehsalının cəmi 1 faiz artacağını proqnozlaşdırıb. Fondun hesablamalarına görə, qiymət artımı və inflyasiya cari ilin birinci yarısında pik həddə çatıb. Sonradan inflyasiya idarə olunacaq 4 faizlik səviyyəyə düşə bilər.

BMT-nin Ərzaq Proqramı və Kənd Təsərrüfatı Təşkilatı da Hayastanda istehsalın azalacağını gözləyir. Təşkilatın proqnozuna əsasən, 2023-cü ildə taxıl istehsalı orta səviyyədən 30 faiz az, təxminən 208 min ton olacaq. Buğda istehsalının isə daha az - 120 min ton olacağı proqnozlaşdırılıb. Bildirilir ki, Hayastan bu il əvvəlkindən 20 faiz çox taxıl məhsulları idxal etməli olacaq.

Ağır sosial-iqtisadi vəziyyət fonunda Hayastanda miqrasiya probleminin daha da dərinləşməsi müşahidə olunur. Hadisələrin real inkişaf axarı göstərir ki, bu gedişlə miqrasiya Hayastanda əsl demoqrafik fəlakət yaradacaq. Hakimiyyətin bu məsələnin həlli istiqamətində atdığı addımlar isə faktiki olaraq iflasa uğrayıb. Məsələnin bu tərəfinə nəzər salan etnoqraflar bildirirlər ki, keçmiş və hazırkı ölkə rəhbərliyi indiyədək miqrasiya prosesini dayandıra, qarşısını ala bilməyib. Qeyd olunur ki, bu gedişlə Hayastanda əhalinin kütləvi şəkildə köç etməsinin, xarici ölkələrə axınının qarşısını almaq qətiyyən mümkün olmayacaq.

Etnoqraf Xarat Qranuşyan xatırladır ki, hələ 15 il bundan əvvəl hökumət miqrasiyanın azaldılmasını nəzərdə tutan strateji proqram işləyib hazırlayıb: "Ancaq indiki mənzərəyə əsasən, görünür ki, bu proqram heç bir nəticə verməyib. İnsanlar ağır vəziyyətdən bezib ölkəni tərk edirlər. Digər tərəfdən, qanunun selektiv tətbiqi səbəbindən də onlar ölkədən çıxıb gedirlər. Yəni Hayastan vətəndaşları çoxdan bilirlər ki, qanunlar yazılırsa, bu, hələ onların adi vətəndaşlara şamil ediləcəyi demək deyil. Oliqarxlar, o cümlədən məmur və deputatlar, siyasi hamiləri olanlar inhisarçıya çevriliblər. Onların iqtisadi bazarda başqalarına da yer vermələri ilə bağlı nə iradəsi, nə istəyi, nə də planı var. Bu, ölkəni tərk edənlərin sayını daha da artırır".

Bu gedişlə ölkənin daha dərin böhran yaşaması, ağır problemlər içində çabalaması, insanların narazılığının pik həddə çatması qaçılmazdır.

***Elçin CƏFƏROV,***
***"Azərbaycan"***

## ALLAH RƏHMƏT ELƏSİN!

Bakı Ağır Cinayətlər Məhkəməsinin rəhbərliyi və kollektivi məhkəmənin hakimi Əhməd Quliyevə əzizi

**TELLİ XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Salyan Rayon Məhkəməsinin sədri Adil Vəliyev və məhkəmənin kollektivi Şirvan Apellyasiya Məhkəməsinin sədri Vəli Abdullayevə qardaşı

**MUSTAFA ABDULLAYEVİN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.


«AZƏRBAYCAN» qəzetinin reklam xidməti



BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Əlaqə telefonları:

| | | | |
|---|---|---|---|
| Qəbul otağı | - 539-68-71, | Beynəlxalq həyat, idman və informasiya şöbəsi | - 539-63-82, 432-37-68 |
| Baş redaktor müavinləri | - 538-86-86, 434-63-30, 539-72-39 | Humanitar siyasət şöbəsi | - 538-56-60 |
| Məsul katib | - 539-43-23, | İctimai əlaqələr şöbəsi | - 539-49-20, 538-31-11, |
| Məsul katib müavinləri | - 539-44-91, | Fotoillüstrasiya şöbəsi | - 538-84-73, |
| Parlament və siyasət şöbəsi | - 539-84-41, 539-21-00, | Kompüter mərkəzi | - 538-20-87, |
| İqtisadiyyat şöbəsi | - 538-42-32, 538-35-55, | Mühasibatlıq | - 539-59-33 |

*AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, "Azərbaycan" nəşriyyatı, IV mərtəbə*
contact@azerbaijan-news.az
az.reklam@mail.ru



www.azerbaijan-news.az

Qeydiyyat № 1

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan Nəşriyyatı" MMC-nin mətbəəsində çap edilmişdir

Qəzetə dərc üçün göndərilən materiallar Azərbaycan dövlətinin mövqeyinə uyğun olmalıdır

Gündəlik rəsmi dövlət qəzeti
Tiraj 5342
Sifariş 811
Qiyməti 40 qəpik